

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti 31 may 2024-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

"Əbədi müstəqilliyimizin banisi: Heydər Əliyev" →Səh.3

BDU-da Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə kitab sərgisi →Səh.4

Astana Beynəlxalq Maliyyə Mərkəzinin Məhkəməsi və Beynəlxalq Arbitraj Mərkəzinin nümayəndələri BDU-da →Səh.2

Dünya şöhrətli alim, Kimya üzrə Nobel mükafatı laureatı Əziz Sancar BDU-da →Səh.6

İspaniyanın Donastiya Beynəlxalq Fizika Mərkəzi və Bask Universitetinin professoru BDU-da elmi seminar keçib →Səh.6

BDU-da “Azərbaycan filologiyasında Heydər Əliyev mərhələsi” mövzusunda Respublika elmi konfransı →Səh.11



BDU və Sosial Xidmətlər Agentliyinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev xatirələrdə" adlı tədbir keçirilib →Səh.2



BDU-da “Dünya və Azərbaycan siyasətində Heydər Əliyev kursu” kitabının təqdimatı →Səh.3



BDU-da tədbir: “Heydər Əliyev şəkillərdə” →Səh.4



Pakistanın Elm və Texnologiya Milli Universitetinin prorektoru BDU-da →Səh.4

BDU və Milli Depozit Mərkəzi arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb →Səh.5



## BDU-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş konfrans

***Mayın 8-də BDU-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş konfrans keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Sonra Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş videoçarx nümayiş etdirilib.

BDU-nun rektoru Elçin Babayev bildirib ki, bu gün qədirbilən xalqımız onu ağır sınaqlardan müdrikliklə çıxarmış, Ulu Öndər Heydər Əliyevi minnətdarlıqla yad edir: “Həyatının məqsədi Azərbaycanın müstəqilliyi, xalqımızın xoşbəxtliyi olan Ulu Öndər bütün mənalı ömrünü bu məqsədə nail olunmasına sərf edib. Ölkənin ən çətin, mürəkkəb məqamlarında dahi lider özünün xilaskarlıq missiyası ilə xalqının köməyinə çatıb. Məhz ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan Ulu Öndərin inanılmaz səyləri ilə keçmiş sovetlər birliyinin geridə qalmış respublikasından yüngül və ağır sənayenin inkişaf etdiyi bir respublikaya çevrildi. İqtisadiyyat, sənaye, elm, təhsil, mədəniyyət sahələrində böyük uğurlara imza atıldı. 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilən Heydər Əliyev 5 il ərzində SSRİ rəhbərlərindən biri oldu".

Rektor qeyd edib ki, 1993-cü ilin ortalarında ölkədə vətəndaş müharibəsinin baş verməsi, dövlətçiliyin itirilməsi və Azərbaycan Respublikasının bir ölkə kimi dünya xəritəsindən silinməsi təhlükəsi yarananda Ulu Öndər Heydər Əliyev xalqımızın nicatı oldu. Ölkəyə yatırılan investisiyalar, həyata keçirilən beynəlxalq layihələr, Ulu Öndər Heydər Əliyevin misilsiz neft strategiyası dövlətimizi qüdrətləndirdi. Ulu Öndərin ikinci dəfə ölkəyə rəhbərlik etdiyi 1993-2003-cü illər müstəqil Azərbaycanın tarixinə qızıl dövr kimi yazıldı. İqtisadiyyatına milyardlarla dollar investisiya qoyulan Azərbaycanda Ümumi Daxili Məhsul dəfələrlə artdı. İllər sonra Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanacağımız tarixi qələbənin təməlləri yaradıldı: “Xalqımızın sarsılmaz birliyi, şəhidlərimizin canı, qazilərimizin qanı, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin hərbi, siyasi və informasiya cəbhələrindəki mahir sərkərdəliyi ilə 30 illik işğal bitdi, 200 illik problem tarixin arxivinə göndərildi. Xalqımız Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə yaradılmasının 20 illik yubileyini qeyd edən Heydər Əliyev Fondunun Ulu Öndərin tükənməz irsinin tədqiqi və təbliği sahəsindəki əvəzsiz xidmətlərini də yüksək qiymətləndirir. Ulu Öndərin hər zaman sonsuz diqqət və qayğı ilə yanaşdığı, məzunu olması ilə fəxr etdiyi BDU-nun kollektivi də bütün xalqımız kimi, Ümummilli Liderin əziz xatirəsini böyük hörmət və ehtiramla yad edir. Ümummilli Liderin irisinin tədqiqi, təbliği BDU-nun alim və tələbələrinin ali məqsədlərindən biridir. Biz fəxr edirik ki, 105 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis edilən və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə intibah dövrünə qədəm qoyan Bakı Dövlət Universitetinin inkişafının son 20 ildəki yeni mərhələsi dahi liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır"

*(Ardı 3-cü səhifədə)*

## BDU-da 28 May – Müstəqillik Gününə həsr edilmiş tədbir

→Səh.8

# Filologiya elmləri doktoru, professor Cəlil Nağıyevlə görüş: “BDU qocaman müəllimlərin gözü ilə”

***Mayın 3-də BDU-nun 105 illik yubileyi çərçivəsində həyata keçirilən “BDU qocaman müəllimlərin gözü ilə” layihəsinin ilk qonağı Filologiya fakültəsinin Dünya ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Cəlil Nağıyev olub.***

Görüşün moderatoru, BDU-nun tarixi muzeyinin müdiri Günel Orucəliyeva layihənin əsas məqsədinin qocaman müəllimlərin iştirakı ilə BDU-nun tarixini, zəngin ənənəsini yaşatmaq və tələbələrə öyrətmək olduğunu deyib.

Daha sonra BDU-nun rektoru Elçin Babayev Universitetin həyatında önəmli yerə sahib olan Cəlil Nağıyevin fəaliyyətindən söz açıb. Bildirib ki, o, 50 ilə yaxındır Universitetin Filologiya fakültəsində yüksəkixtisaslı kadrların hazırlanması işində yaxından iştirak edir: “Universitetimizin nüfuzlu alimlərindən olan Cəlil Nağıyev




çoxsaylı elmi araşdırmaların, tədris vəsaitlərinin və ən əsası, ixtisaslı, savadlı bir gənc nəslin müəllifidir. Zəngin, tarixi elm, təhsil ənənələrinə sahib BDU-da əvəzsiz xidmətləri olan Cəlil Nağıyev tələbələrin sevimli müəllimi, xeyriyyəçi elm adamı, görkəmli filoloq alimdir”.

Rektor tələbələri Cəlil Nağıyev kimi qocaman müəllimlərdən öyrənməyə, peşəkar mütəxəssis, ölkəmizi sevən vətəndaş olmağa səsləyib: “Əminəm ki, siz BDU məzunu olmağınızla həmişə fəxr edəcək, Vətənimizin inkişafına öz töhfələrinizi verəcəksiniz. Həyatı, fəaliyyəti nümunə olan müəllimlərimiz bu yolda sizə ən yaxşı bələdçidir”.

Görüşdə professor Cəlil Nağıyev Universitetlə bağlı xatirələrini bölüşüb. O bildirib ki, ölkənin ilk ali təhsil ocağı olan BDU Azərbaycanı dünyaya tanıdan, görkəmli ziyalıların çalışdığı elm məbədidir. 50 ildir Universitetdə müəllim kimi fəaliyyət göstərdiyini deyən Cəlil Nağıyev Mir Cəlal Paşayev, Muxtar Hüseynzadə, Əkbər Ağayev, Fərhad Zeynalov kimi alimlərdən dərs aldığı, onların tələbəsi olduğu üçün qürur duyduğunu deyib: “Biz bu müəllimlərdən həm dərs alırdıq, həm də həyatı öyrənirdik. Azərbaycanda universitet çoxdur, amma BDU tam fərqlidir. BDU ölkənin elm, təhsil, sosial-iqtisadi və siyasi həyatında önəmli rola sahibdir. BDU-nun belə əzəmətinin səbəbi yüksək varislik ənənəsinin olmasıdır. Universitet sağlam özüllər üzərində qurulub və bu, indiyədək davam etməkdədir. BDU-nun məzunu, müəllimi olmaq böyük şərəfdir”.

Professor torpaqlarımızın azad edilməsindən sonra gənclərimizin üzərinə böyük məsuliyyət düşdüyünü bildirib: “Hazırda bizlər yeni erada yaşayırıq. Bu erada taleyimizdə iki böyük hadisə baş verib: birincisi, Azərbaycanın müstəqillik əldə etməsi, regionda lider dövlətə çevrilməsi, ikincisi, Qarabağda böyük qalibiyyətimiz. 30 ildən sonra torpaqlarımızın azad edilməsi bu günün tələbələrinin çiyninə böyük məsuliyyət qoyur. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu siyasət, gərgin əməyin nəticəsi öz bəhrəsini verir. Bu ənənəni davam etdirmək üçün gənclərimiz daha çox çalışmalı və Azərbaycanımızı, doğma Universitetimizi daha çox sevməlidirlər”.

Görüşün sonunda professor Cəlil Nağıyev tələbələrin suallarını cavablandırıb.

# BDU və Sosial Xidmətlər Agentliyinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev xatirələrdə” adlı tədbir keçirilib

***Mayın 7-də BDU-nun və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində Sosial Xidmətlər Agentliyinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev xatirələrdə” adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun rektoru Elçin Babayev bildirib ki, xalqımızın və dövlətimizin əldə etdiyi bütün uğurların təməlində Azərbaycan dövlətinin qurucusu və memarı, Ulu Öndər Heydər Əliyevin siyasəti dayanır: “Ulu Öndər həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycanın inkişafı üçün misilsiz xidmətlər göstərib. Bütün sahələr kimi, elmin və təhsilin inkişafına xüsusi diqqət yetirən, gələcəkdə müstəqil Azərbaycana bacarıqlı, peşəkar kadrların lazım olacağını prioritet hesab edən Ulu Öndərin bu ölçüyəgəlməz fəaliyyəti sayəsində hələ sovet dövründə respublikada yüzlərlə yeni məktəb istifadəyə verilib, ali təhsil müəssisələrinin sayı və onların qəbul planları artırılıb. 1993-cü ildə ölkəmizdə yaranan siyasi gərginlik, özbaşınalıq özünün pik həddinə çatmışdı. Bu ağır vəziyyətdən isə Azərbaycanı yalnız böyük siyasi xadim Heydər Əliyev xilas edə bilərdi. 1993-cü ildə xalqın çağırışına səs verən Ulu Öndərin yenidən hakimiyyətə qayıtdığı 15 iyun günü Azərbaycanın müasir tarixinin dönüş nöqtəsi oldu. 30 ildə ölkəmizdə baş vermiş hadisələrin təhlili onu deməyə əsas verir ki, Azərbaycanın bütün nailiyyətlərinin, eyni zamanda 44 günlük Vətən müharibəsindəki şanlı qələbəmizin təməlində əsası 1993-cü ildə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sarsılmaz xalq-iqtidar birliyi dayanır”.






Rektor Ulu Öndərin “Azərbaycan xalqının milli sərvəti, milli iftixarı” adlandırdığı BDU-nun dünya şöhrətli məzunu olduğunu, qürurla “Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam” kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığını diqqətə çatdırıb, onun Universitetə hər zaman qayğı ilə yanaşdığını qeyd edib.

Tədbirin Sosial Xidmətlər Agentliyi ilə BDU arasında imzalanmış memoranduma uyğun olaraq keçirildiyini deyən rektor Universitetin Sosial iş ilə yanaşı, Təhsildə sosial-psixoloji xidmət, Korreksiyaedici pedaqogika, Psixologiya və digər müvafiq ixtisaslar üzrə mütəxəssis hazırlığına xüsusi önəm verdiyini, birgə əməkdaşlığın tələbələrə nəzəri biliklərlə yanaşı, praktiki vərdişlərin aşılanmasına da böyük töhfə verəcəyini bildirib. Birgə tədbirlər planına uyğun olaraq, növbəti bir il ərzində inklüziv tədbirlər, mentorluq proqramı, Agentliyin tabeliyində olan sosial xidmət müəssisələrinə tələbələr üçün infoturlar təşkil olunacaq, ustad dərsləri və digər mühüm layihələr icra olunacaq.

ƏƏSMN-in tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycanın qurulmasında, onun müstəqilliyinin, iqtisadi-siyasi əsaslarının möhkəmləndirilməsində, dövlətçilik tarixində müstəsna xidmətləri barədə danışıb. Qeyd edib ki, Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycanda sosial müdafiə siyasətinin də formalaşması və həyata keçirilməsi istiqamətində mühüm addımlar atılıb. 1998-ci ildə Ulu Öndərin Ahıllar evinə səfəri və Əlilliyi olan Şəxslərin I Ümumrespublika Bədii Yaradıcılıq Baxış-müsabiqəsi qaliblərinin yekun konsertində iştirakı xüsusi diqqətə ehtiyacı olan şəxslərə göstərilən diqqəti özündə ehtiva edir. Bu gün isə Prezident İlham Əliyevin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, əhalinin rifahının, sosial müdafiəsinin gücləndirilməsi dayanır.

Sonra Ulu Öndər Heydər Əliyevin şəxsi fotoqrafı Rafiq Bağırov, Əməkdar mədəniyyət işçisi, Əməkdar incəsənət xadimi, filologiya üzrə fəlsəfə doktoru Məhəbbət Mehdiyeva Ümummilli Liderlə bağlı xatirələrini bölüşüb, Azərbaycan xalqı və dövləti üçün gördüyü çoxşaxəli fəaliyyətindən, həyata keçirdiyi layihələrdən, ölkəmizin beynəlxalq aləmdə söz sahibinə çevrilməsindəki misilsiz xidmətlərindən bəhs ediblər.

Tədbir BDU tələbələrinin ifasında bədii hissə ilə davam edib.

# Astana Beynəlxalq Maliyyə Mərkəzinin Məhkəməsi və Beynəlxalq Arbitraj Mərkəzinin nümayəndələri BDU-da

***Mayın 13-də BDU-nun rektoru Elçin Babayev Astana Beynəlxalq Maliyyə Mərkəzinin Məhkəməsi və Beynəlxalq Arbitraj Mərkəzinin nümayəndələri Almat İgenbayev və Bakdaulet Amirxanov ilə görüşüb.***

Rektor Elçin Babayev qonaqlara BDU-nun tarixi, fəaliyyəti, strukturu, tədris və elmi fəaliyyəti, beynəlxalq əlaqələri, “Universitet-5.0” adlı prioritet istiqamətləri barədə ətraflı məlumat verib. Qeyd edib



ki, BDU Azərbaycanın ən qədim və böyük universitetidir. Universitetdə hazırda 16 fakültədə ali təhsilin bütün səviyyələrində 25000-ə yaxın tələbə təhsil alır, 3000-ə qədər əməkdaş, o cümlədən 1500 nəfərə yaxın professor-müəllim heyəti və elmi işçi çalışır. Rektor BDU-nun beynəlxalq əlaqələrində türkdilli dövlətlər, o cümlədən Qazaxıstan universitetləri ilə əməkdaşlığa xüsusilə önəm verildiyini qeyd edib.

Görüşdə BDU ilə Astana Beynəlxalq Maliyyə Mərkəzinin Məhkəməsi və Beynəlxalq Arbitraj Mərkəzi arasında əməkdaşlığın perspektivləri müzakirə olunub. Daha sonra qonaqlar BDU-nun Hüquq, Beynəlxalq əlaqələr və iqtisadiyyat fakültələrinin tələbələri ilə görüşüblər. Görüşdə sözügedən qurumlarda tələbələrin təcrübəkeçmə imkanları haqqında ətraflı məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

# BDU-da “Dünya və Azərbaycan siyasətində Heydər Əliyev kursu” kitabının təqdimatı

*Mayın 7-də BDU-da Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanovun "Dünya və Azərbaycan siyasətində Heydər Əliyev kursu” kitabının təqdimat mərasimi keçirilib.*

BDU-nun rektoru Elçin Babayev bildirib ki, həyatının başlıca amalı Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi olan dünya şöhrətli siyasətçi, Ümummilli Lider Heydər Əliyev bütün mənalı ömrünü bu məqsədə nail olunmasına həsr edib. Müasir Azərbaycanın memarı olan Ümummilli Liderin böyük dühası, fitri istedadı, parlaq zəkası sayəsində xalqımız müstəqillik dövründə böyük nailiyyətlər qazanıb. Onun ikinci dəfə ölkəyə rəhbərlik etdiyi 1993-2003-cü illər müstəqil Azərbaycanın tarixinə qızıl dövr kimi yazılıb. Bu illərdə ölkəmiz sosial-iqtisadi inkişafa nail olub, müstəqil dövlətin hüquqi-siyasi əsasları formalaşdırılıb, ordu quruculuğu sahəsində mühüm addımlar atılıb, azərbaycançılıq məfkurəsi milli ideologiya səviyyəsinə yüksəlib. 2003-cü ildə xalqımızın birmənalı dəstəyi ilə Prezident seçilən cənab İlham Əliyev ötən illər ərzində sarsılmaz təməlləri Ulu Öndər tərəfindən qoyulan dövlətçilik siyasətini əzmlə və qətiyyətlə həyata keçirərək, ölkəmizi dünyanın qüdrətli dövlətlərindən birinə çevirib. Prezident İlham Əliyev ata vəsiyyətini, onun xalqımızın işğal olunmuş ərazilərimizin azad edilməsi ilə bağlı ən ülvi, müqəddəs arzusunu şərəflə yerinə yetirib.





Rektor bildirib ki, Bakı Dövlət Universitetinin kollektivi də bütün xalqımız kimi, Ulu Öndərin əziz xatirəsini böyük hörmət, ehtiram və sevgi ilə yad edir. Bu qocaman təhsil ocağında çalışan hər bir alim, tədqiqatçı, müəllim, tələbə Ümummilli Lider Heydər Əliyevin zəngin və tükənməz irsinin tədqiqi və təbliğini özünün ən ali məqsədlərindən biri hesab edir.

BDU rektoru diqqətə çatdırıb ki, Milli Məclisin komitə sədri Sadiq Qurbanovun “Dünya və Azərbaycan siyasətində Heydər Əliyev kursu” kitabı müstəqil dövlətimizin Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq və dövlətçilik ideyalarının işığında keçdiyi inkişaf yolu və əldə olunmuş uğurlu nəticələrin əsaslı şəkildə təhlili əsasında yazılmış əhəmiyyətli əsərdir. “Heydər Əliyevin Azərbaycan xalqına ən böyük töhfəsi - uğurlu siyasi varisi, qalib sərkərdə İlham Əliyev” məqaləsi kitabda qeyd olunan mövzuların ümumiləşdirilmiş nəticəsi kimi qiymətləndirilməlidir: “Müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir. Kitabda Ulu Öndərin siyasətinin fəlsəfi mahiyyəti, iqtisadi, siyasi, mədəni quruculuq və milli ideologiyanın formalaşması sahəsində misilsiz xidmətləri ətraflı təhlil olunur, həmçinin dahi liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasəti, birinci xanım Mehriban Əliyevanın ölkəmizin Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti kimi xoşməramlı missiyasından geniş bəhs olunur. Monoqrafiya Ümummilli Liderin zəngin irsinin öyrənilməsi istiqamətində əhəmiyyətli rol oynayacaq”.

BDU-nun Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, Milli Məclisin üzvləri Pərvin Kərimzadə və İltizam Yusifov, Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov, Azərbaycan tarixi (humanitar fənlər üzrə) kafedrasının müdiri, dosent Azad Rzayev çıxışlarında bildiriblər ki, Ulu Öndər Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, gələcək nəsillərə ötürülməsi vacibdir. “Dünya və Azərbaycan siyasətində Heydər Əliyev kursu” kitabı da bu baxımdan böyük elmi, siyasi və mənəvi dəyərə malikdir.

Sonda kitabın müəllifi, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov kitabın təqdimatına şərait yaradıldığına görə BDU rəhbərliyinə təşəkkür edib və tədqiqat əsərinin yazılma zərurətindən danışıb. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev fenomeni nəinki Azərbaycanda, bütün dünyada özünə layiqli yer tutub. Azərbaycanın indiki uğurlarının təməlində məhz Ulu Öndər Heydər Əliyevin dövlətçilik və azərbaycançılıq ideologiyası dayanır. Bu ideologiya xalqın rifahına, milli kimlik şüurunun oyanmasına xidmət edir. Heydər Əliyev şəxsiyyətinin öyrənilməsi ilə Azərbaycanın dövlət olaraq necə yüksək inkişaf yolu keçdiyini bilmək olur.

Qeyd edək ki, 4 fəsildən ibarət kitab BDU Elmi Şurasının qərarı ilə çap olunub.

# BDU-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş konfrans



(əvvəli 1-ci səhifədə)

Milli Məclisin üzvü, BDU-nun Orta Şərq dilləri və ədəbiyyatı kafedrasının müəllimi, akademik Rafael Hüseynov Ulu Öndərin bütün mənalı ömrünü Azərbaycanın işıqlı gələcəyinə həsr etdiyini bildirib. Vurğulayıb ki, tarixin son dərəcə çətin dönəmində, 1990-cı illərin əvvəllərində, Azərbaycanın yenicə bərpa edilmiş dövlət müstəqilliyi ilk addımlarını atarkən Ulu Öndərin xilaskarlıq, quruculuq, yurdun və xalqın sabahı üçün möhkəm təməllər yaratmaq yolunda fədakar çalışmaları və mübarizələri ölkəmizi çətin sınaqlardan üzüağ çıxardı.

Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov Ümummilli Liderin siyasi fəaliyyətinin tarixi inkişaf dövrləri barəsində çıxış edib. Bildirib ki, müstəqil Azərbaycan dövlətinin hüquqi əsaslarının yaradılması Ulu Öndərin adı ilə bağlıdır. Bu əsaslar güclü iqtisadiyyat, ordu quruculuğu və peşəkar xarici siyasətə söykənir. Məhz bu istiqamətlərdə həyata keçirilən uzaqgörən siyasət Azərbaycanın sonrakı uğurlarının və Vətən müharibəsindəki qələbəmizin əsasını qoyub.

BDU-nun Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva isə bildirib ki, Azərbaycan dövlətçiliyinin sağlam təməllərinin əsasını qoyan, onu dünya xəritəsində sayılıb-seçilən dövlətlər sırasına daxil edən və öz sözünü deməyə qadir olan müstəqil dövlətə çevirən Ümummilli Lider Heydər Əliyev həyatının hər anında Azərbaycan xalqını düşünürdü: “Xilaskarlıq missiyası onun alın yazısı idi. Bu gün Ulu Öndərin Azərbaycan xalqı üçün ən böyük yadigarı onu işıqlı gələcəyə aparan möhtərəm Prezidentimiz İlham Əliyevdir. Ulu Öndərin Azərbaycanın gələcəyini əmanət etdiyi müasir gənclik isə daim bu əbədi irsi öyrənərək gələcək yollarını sağlam təməllər üzərində qurmağı bacarmalıdır".

# "Əbədi müstəqilliyimizin banisi: Heydər Əliyev"

*Mayın 10-da "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Əbədi müstəqilliyimizin banisi: Heydər Əliyev" adlı tədbir keçirilib.*

Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov dahi liderin həyat yolu, müstəqil Azərbaycan uğrunda apardığı mübarizə və dövlət quruculuğundakı əvəzsiz rolu barədə məlumat verib.

Daha sonra BDU-nun Hüquq fakültəsinin dekanı, hüquq üzrə fəlsəfə doktoru Zaur Əliyev Ulu Öndərin hüquq islahatlarından söz açıb, demokratik və hüquqi dövlət quruculuğundakı əvəzsiz rolunu vurğulayıb, həmçinin Ümummilli Liderin rəhbərliyi ilə müstəqil Azərbaycanın Konstitusiyasının, yeni qanun və məcəllələrin hazırlanmasına diqqət yetirib.

Azərbaycan dili kafedrasının müdiri, professor İlhamə Hacıyeva Ulu Öndərin Azərbaycan dilinin inkişafına ayırdığı xüsusi diqqət və qayğıdan söz açıb.

BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekan müavini, fəlsəfə doktoru Kənan Vəkilov çıxışında Ulu Öndərin çətin zamanda həyata keçirdiyi uğurlu xarici siyasətindən bəhs edib və onun əsasını qoyduğu amalların Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Sonda Ulu Öndərin xatirəsinə həsr olunmuş videoçarx izlənilib.

# BDU kollektivi Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib



*Mayın 10-da BDU-nun kollektivi müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Fəxri xiyabanı ziyarət edib.*

Ulu Öndərin məzarı önünə əklil qoyulub, gül dəstələri düzülüb, xatirəsi hörmət və ehtiramla anılıb.

Daha sonra Universitet əməkdaşları BDU-da Ulu Öndərin büstü önünə gül dəstələri qoyublar.

# BDU-da tədbir: "Heydər Əliyev şəkillərdə"



***Mayın 10-da Mexanika-riyaziyyat, Fizika fakültələrinin və İstiqlal muzeyinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev şəkillərdə" adlı tədbir keçirilib.***

Əvvəlcə İstiqlal muzeyi tərəfindən sərgilənən Ulu Öndərin çoxşaxəli, zəngin fəaliyyətini, həyatının müxtəlif anlarını əks etdirən fotolara baxış keçirilib.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan tarixində mühüm rol oynamış görkəmli şəxsiyyət, onun həyat və fəaliyyətinin gənclərimiz üçün bir örnək olduğunu bildirib. Qeyd edib ki, bu gün müstəqil Azərbaycan dövlətinin qurucusu olan Heydər Əliyevin ağır vəziyyətdən çıxardığı ölkəmiz Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada söz sahibi olan dövlətə çevrilib. Tam suveren, güclü iqtisadiyyatı ilə dünya dövlətləri içində öz sözünü deməyə qadir, qalib Azərbaycanın yüksəlişinin əsası Ulu Öndərin uzaqgörən siyasəti ilə qoyulub.

Millət Məclisin üzvü İltizam Yusifov isə diqqətə çatdırıb ki, Ulu Öndərin hakimiyyəti dövründə ölkəmiz iqtisadi, siyasi, sosial, mədəni sahələrdə böyük irəliləyişlərə nail olub, əhalinin sosial rifah halı yaxşılaşıb. Bu gün qazandığımız bütün nailiyyətlərin, uğurların əsası dünya şöhrətli siyasi xadim Heydər Əliyev tərəfindən qoyulub.

Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, BDU-nun Ali riyaziyyat kafedrasının müdiri Misir Mərdanov Ümummilli Liderin rəhbərliyi altında çalışdığı illərə aid xatirələrindən danışıb. O qeyd edib ki, Ulu Öndər Heydər Əliyev keçmiş ittifaq dövründə və müstəqillik illərində elmin, təhsilin hamisi olub. O, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması, Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün ciddi tədbirlər həyata keçirib, mühüm fərman və sərəncamlar imzalayıb.

Fizika və Mexanika-riyaziyyat fakültələrinin dekan müavinləri Məhəmməd Məhərrəmov, Etibar Əhmədov Ümummilli Liderin irsinin bütün əsrlər və nəsillər üçün örnəyə çevrildiyini və daim gənc nəsil üçün həyat məktəbi rolunu oynadığını bildiriblər.

Sonda tələbələrin hazırladıqları və Ulu Öndərin həyatından bəhs edən videoçarx nümayiş etdirilib.

# BDU-da Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə kitab sərgisi



***Mayın 10-da Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə kitab sərgisi təşkil olunub.***

Ümumilikdə 100-dən çox kitabın yer aldığı sərgidə müasir Azərbaycanın qurucusu və memarı, Ulu Öndər, BDU-nun ən böyük məzunu Heydər Əliyevin mənalı, zəngin və şərəfli həyat yolunu, çoxşaxəli ictimai-siyasi fəaliyyətini, dövlətçiliyimiz tarixində müstəsna xidmətlərini əks etdirən 100-dən çox kitab və digər nəşrlər nümayiş etdirilir.

Sərgilənən yeni nəşrlər içərisində BDU-da təqdimat mərasimi keçirilmiş (BDU-nun "Nəşr Evi"ndə çap olunmuş) akademik Nizami Cəfərovun "Heydər Əliyev: dil, ədəbiyyat və incəsənət", Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanovun "Dünya və Azərbaycan siyasətində Heydər Əliyev kursu" adlı kitabları da yer alır.

# Pakistanın Elm və Texnologiya Milli Universitetinin prorektoru BDU-da



***Mayın 13-də Pakistan İslam Respublikasının Elm və Texnologiya Milli Universitetinin tədqiqat, innovasiya və kommersiyalaşdırma üzrə prorektoru Rizvan Riazın rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

BDU rektoru Elçin Babayev həmkarına Universitetin tarixi və fəaliyyəti barədə məlumat verib. O bildirib ki, 105 illik tarixə malik BDU Azərbaycanın ən böyük və qədim universitetidir. 25 mindən artıq tələbəsi olan BDU-nun 16 fakültəsində elmin bütün sahələri üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlanır. Tədqiqat istiqamətinə xüsusi önəm verən BDU-nun Hirş indeksi artıq 62-yə çatıb. Rektor Elm və Texnologiya Milli Universiteti ilə biotexnologiya, nanotexnologiya, biotibbi materiallar, kompüter elmləri, kibertəhlükəsizlik istiqamətləri üzrə geniş əməkdaşlıq imkanlarının olduğunu vurğulayıb. Bildirib ki, qeyd olunan sahələr üzrə birgə elmi tədqiqatlar və laboratoriyalar yaradıla, seçilmiş istiqamətlərdə ikili diplom proqramları imzalana və birgə sosial layihələr icra edilə bilər.

Pakistan İslam Respublikasının Elm və Texnologiya Milli Universitetinin prorektoru Rizvan Riaz təmsil etdiyi ali təhsil müəssisəsi haqqında ətraflı məlumat verərək, BDU ilə birgə tədqiqatlarda, müəllim-tələbə mübadiləsində maraqlı olduqlarını qeyd edib.

Görüşdə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində müzakirələr aparılıb.

# BDU-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş ədəbi-bədii tədbir

***Mayın 10-da BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş ədəbi-bədii tədbir keçirilib.***

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin mənalı ömür yolu və zəngin dövlətçilik fəaliyyətindən bəhs edən "Ömrün zirvəsi- Heydər Əliyev" filmi nümayiş olunub.

Filmin ssenari müəllifi, BDU-nun Jurnalistika fakültəsinin müəllimi Mahir Qəribov qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev XX əsrdə Azərbaycanın dünyaya bəxş etdiyi dahi şəxsiyyətdir. Onun zəngin dövlətçilik irsini daim təbliğ etmək, gənclərə çatdırmaq lazımdır. "Ömrün zirvəsi- Heydər Əliyev" filminin nümayişi də bu məqsədə xidmət edir.

Daha sonra filmə baxış keçirilib.

Tədbir BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı ədəbi-musiqili kompozisiya ilə davam edib. Ulu Öndərə həsr olunmuş musiqi nömrələri ifa olunub, şeirlər səsləndirilib.

# BDU və Kumamoto Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb

***Mayın 30-da BDU və Yaponiyanın Kumamoto Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Kumamoto Universitetinin prezidenti Oqava Hisao imzalayıb.

Müqaviləyə əsasən, universitetlər arasında akademik, inzibati heyətin, tələbə və tədqiqatçıların, tədqiqat materiallarının və elmi nəşrlərin mübadiləsi nəzərdə tutulur.

Kumamoto Universiteti "Times Higher Education" dünya universitetləri reytinqində 801-1000, QS reytinqində isə 901-950-ci pillədə yer alır.

# BDU Yaponiyanın Tsukuba Universiteti ilə anlaşma memorandumu imzalayıb

***Mayın 29-da BDU və Yaponiyanın Tsukuba Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Tsukuba Universitetinin prezidenti Nagata Kyosuke imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə tədris-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur.

Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Qeyd edək ki, əsası 1973-cü ildə əsası qoyulmuş Tsukuba Universiteti Yaponiyanın ən nüfuzlu universitetlərindən biridir. Tsukuba Universiteti QS dünya universitetləri reytinqində 355-ci, "Times Higher Education" dünya universitetləri reytinqində isə 351-400-cü pillədə qərarlaşır.

# Dövlətə və xalqa xidmət, sevgi simvolu

***Tarixin yaddaşında əbədi iz qoymaq hər insana nəsib olmayan böyük xoşbəxtlikdir. Bu, yalnız müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev kimi dahi şəxsiyyətlərin qismətinə düşən müstəsna taledir.*** Müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirmiş, fenomen şəxsiyyət kimi çağdaş tariximizdə əbədiyaşarlıq qazanaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş Ulu Öndərimiz Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünü xalqımız böyük sevgi, qürur və ehtiramla qeyd edir. Məhz dünyamiqyaslı ictimai-siyasi xadim Heydər Əliyevin titanik əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi sayəsində müasir Azərbaycan dövləti qurulub, ölkəmiz dünya məkanında öz layiqli yerini tutub.

Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövr minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsidir. Bu mərhələ Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması, milli-mənəvi yüksəliş, hər bir fərdin özünü layiqli vətəndaş olaraq dərk etməsi ilə müasir tariximizə əbədi həkk olunub.

Ötən əsrin 70-ci illərindən başlayaraq xalqımızın və dövlətimizin əldə etdiyi bütün uğurların təməlində məhz Ulu Öndər Heydər Əliyevin zərgər dəqiqliyi ilə müəyyənləşdirdiyi ideologiya, dəst-xətt dayanır. Bu ideologiya güclü dövlət, yenilməz iqtisadiyyat, azərbaycançılıq məfkurəsi, milli ruh və özünüdərk, tarixi yaddaşa söykənir. Məhz Ulu Öndər Heydər Əliyevin milli mənafeləri əsas tutmaqla müəyyənləşdirdiyi mütərəqqi inkişaf strategiyası müstəqil Azərbaycanın bütün sahələrdə əldə etdiyi möhtəşəm nailiyyətlərə zəmin yaradıb, onu regionun qüdrətli, sayılıb-seçilən dövlətinə çevirib. Bu mənada Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun Vətənə sevgisi, xalqa ehtiramı, dövlətə sadiqliyi ilə hər kəsə örnək olan, millətini və dövlətini dünyaya tanıdan, bütün ömrünü xalqının xoşbəxt gələcəyi, rifahı və dövlətinin möhkəmlənməsi uğrunda mübarizəyə həsr etmiş övladı olub.



Bir lider və siyasətçi üçün ən vacib keyfiyyət olan uzaqgörənlik Ulu Öndərin ən heyrətamiz cəhətlərindəndir. Ümummilli Liderin atdığı bütün addımlar, həyata keçirdiyi siyasət dövlətin ən vacib strateji xətlərinin illər sonraya hesablanmış yol xəritəsi idi. Ana dilinin milli varlığımızın təməli sayılmasına yönələn addımlar, latın qrafikasına keçidin təmin olunması, milli təhsil şəbəkəsinin qurulması, milli kadrların yetişdirilməsi üçün azərbaycanlı gənclərin ölkə xaricinə göndərilməsi, milli hərbi məktəbin yaradılması – bütün bunlar müstəqil Azərbaycan dövlətinin təməl daşları idi. Azərbaycan xalqı bu addımların bəhrəsini müstəqilliyini yenidən bərpa etdikdən sonra gördü və görməkdədir.

Xalqını sonsuz məhəbbətlə sevən, azərbaycanlı olmağı ilə həmişə qürur duyan fenomenal şəxsiyyət Heydər Əliyev özünün fitri idarəçilik istedadı sayəsində respublikada ədalətli, sivil və demokratik cəmiyyətin möhkəm əsaslarını yaradıb, dövlət-vətəndaş münasibətlərində hər birinin mənafeyini prioritet kimi götürüb. Azərbaycanda dövlətçilik ənənələrinin zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması məhz Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olub. Azərbaycan xalqının yaddaşına xilaskar, qurucu, yaradıcı lider kimi həkk olunan dahi şəxsiyyət bütün dünya azərbaycanlılarının fəxrinə çevrilib. Ulu Öndər Heydər Əliyevin fədakar əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi ilə müasir Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsasları yaradılıb, müstəqil Azərbaycan dünyada öz layiqli yerini tutub.

Ulu Öndər Heydər Əliyev milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində görür, respublikada elmin, təhsilin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirirdi. O, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməyib, cəmiyyətdə yüksək bilikli, intellektual təbəqənin formalaşmasına çalışıb.

Ümummilli Lider Heydər Əliyev məzunu olduğu, qürurla "Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, eyni zamanda, "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı Bakı Dövlət Universitetinə də hər zaman qayğı ilə yanaşıb. Ulu Öndər istər sovet dövründə, istərsə də müstəqillik illərində Universitetin kadr potensialının, maddi-texniki bazasının gücləndirilməsinə əvəzsiz töhfələr verib. Ümummilli Liderin təhsil illəri və sonralar bu təhsil ocağı ilə sıx əlaqələri BDU-nun şanlı tarixinin bütöv bir mərhələsini təşkil edir. BDU-nun inkişafının son 20 ildəki yeni mərhələsi dahi liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır.

1993-2003-cü illər Ulu Öndər Heydər Əliyevin imzası ilə Azərbaycan tarixində inkişafın və tərəqqinin bünövrəsinin qoyulduğu dövr kimi tarixin yaddaşına qızıl hərflərlə yazılıb. 2003-cü ildən başlayaraq isə ölkəmiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla həyata keçirdiyi mütərəqqi islahatlarla inkişafın yeni mərhələsinə qədəm qoyaraq regional güc mərkəzinə çevrilib, dünyada öz layiqli yerini tutub. Xalqımız həm də ona görə xoşbəxtdir ki, Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları, müəyyənləşdirdiyi siyasi xətt, dövlətçiliyimizin hərtərfli inkişaf konsepsiyası onun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Bütün bunların sayəsində hazırda ölkəmiz intibah və çiçəklənmə dövrünü yaşayır.

Ümummilli Liderin xalqa 1 oktyabr 2003-cü il tarixli müraciəti bugünkü zəfərlərimizin, uğurlarımızın başlanğıcı oldu. Həmin müraciətdə bu inam ifadə edilmişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". 2003-cü ildə xalqımızın birmənalı dəstəyi ilə Prezident seçilən cənab İlham Əliyev ötən illər ərzində sarsılmaz təməlləri Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik siyasətini əzmlə inkişaf etdirərək ölkəmizi dünyanın qüdrətli dövlətlərindən birinə çevirdi.

Müqəddəs ata vəsiyyətini, xalqımızın işğal olunmuş ərazilərimizin azad edilməsi ilə bağlı ən ülvi, ən müqəddəs arzusunu şərəflə yerinə yetirdi. Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin hərbi, siyasi və informasiya cəbhələrindəki mahir sərkərdəliyi, xalqımızın sarsılmaz birliyi, şəhidlərimizin canı, qazilərimizin qanı ilə 30 illik işğal bitdi. Artıq xalqımız azad edilmiş və yenidən qurulmuş, dirçəlmiş ərazilərimizə qayıdışın xoşbəxtliyini yaşayır.

Ulu Öndərin adı tarixdə təkrarolunmaz siyasətçi, qüdrətli dövlət başçısı, əfsanəvi şəxsiyyət kimi qalacaq, parlaq xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq. Azərbaycan və Ümummilli Lider Heydər Əliyevin adları əsrlər boyu bütün dünyada qoşa səslənəcək.

Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, daha yüksək zirvələr fəth edəcək.

***Elçin Babayev,***
*BDU-nun rektoru*

# BDU və Milli Depozit Mərkəzi arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb

***Mayın 16-da Bakı Dövlət Universiteti və Milli Depozit Mərkəzi arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.***

Mərasimdə çıxış edən rektor Elçin Babayev qeyd edib ki, Universitetin 105 illik yubileyi ərəfəsində BDU-nun ölkədaxili və beynəlxalq əlaqələrinin gücləndirilməsi əsas prioritetlərdən biridir: "Elmlə təhsilin qovuşduğu ali təhsil müəssisəsinin kadr hazırlığında ən böyük hərəkətverici qüvvə məhz ölkədaxili əlaqələrin düzgün qurulmasıdır. Çünki kadr hazırlığında ölkədə fəaliyyət göstərən qurumların tələb və təklifləri nəzərə alınır. Milli Depozit Mərkəzi ilə anlaşma memorandumunun da tezliklə öz bəhrəsini verəcəyinə əminəm. Artıq həmin tələb-təkliflər nəzərə alınmaqla uyğun istiqamətdə kadr hazırlığına başlamaq barədə razılaşmışıq. Bu prosesdə Mərkəzin əməkdaşları yaxından iştirak edəcəklər. Təhsilalanların Milli Depozit Mərkəzində və



Mərkəzlə əlaqəli qurumlarda təcrübə keçməsinin də böyük əhəmiyyəti var".

Milli Depozit Mərkəzinin (MDM) İdarə Heyətinin sədri Ağahüseyn Xudaverdiyev isə bildirib ki, Azərbaycanda fond və maliyyə bazarının inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. BDU-nun Azərbaycan ali təhsilinin flaqmanı olduğunu qeyd edən Ağahüseyn Xudaverdiyev Mərkəzin əməkdaşlarının 20 faizinin Universitetin məzunları olduğunu diqqətə çatdırıb: "İmzalanan memorandum iki qurum arasında əməkdaşlığın genişlənməsinə, maliyyə bazarının yüksəkixtisaslı kadrlarla təmin olunmasına böyük töhfə olacaq".

Tədbirdə MDM-də strategiya və layihələrin idarəedilməsi üzrə məsul şəxs Əli Əliyev qurumun fəaliyyəti haqqında təqdimat edib. Sonra BDU haqqında videoçarx nümayiş olunub.

Daha sonra iki qurum arasında memorandum imzalanıb. Memoranduma əsasən, tərəflər elm, təhsil və əmək bazarı-universitet-biznes işbirliyi sahələrində əməkdaşlıq həyata keçirəcəklər. Memorandumda kapital bazarı üzrə Universitet kontingentinin təhsil keyfiyyətinin yüksəldilməsi, məzunların məşğulluğu və əmək bazarına inteqrasiyası, tələbə-gənclərin əmək bazarında rəqabətə davamlılığının artırılması məqsədi ilə bütün səylərin birləşdirilməsi, idarəetmə, maliyyə və qiymətli kağızlarla bağlı aktual məsələlərə dair birgə konfrans, seminar, təlim, dəyirmi masa və layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Həmçinin BDU-nun tələbə və məzunları ilə birgə qiymətli kağızların dövriyyəsi üzrə innovasiya yönümlü layihələrin araşdırılması, startapların yaradılması, onların iqtisadi səmərəliliyinin qiymətləndirilməsi, biznes proseslərində innovasiya nailiyyətlərinin tətbiqi və digər innovativ layihələrin həyata keçirilməsi planlaşdırılır. Universitet tərəfindən irəli sürülən layihələrə birgə dəstəyin verilməsi, könüllü təcrübə proqramlarının, müsabiqələrin təşkil edilməsi, kapital bazarı üzrə fəaliyyət göstərə biləcək mütəxəssislərin yetişdirilməsi, MDM əməkdaşlarının tədris fəaliyyətinə və Universitet tərəfindən təşkil edilən ixtisasartırma proqramlarına cəlb edilməsi də memorandumda əksini tapıb.

# “BDU məzunları”: Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı ilə görüş

***Mayın 15-də BDU-nun 105 illik yubileyinə həsr olunmuş “BDU məzunları” layihəsinin növbəti qonağı Milli Məclisin üzvü, Xalq şairi Sabir Rüstəmxanlı olub.***

Rektor Elçin Babayev Universitetin 105 illik yubileyi ərəfəsində BDU-nun Sabir Rüstəmxanlı kimi nüfuzlu məzunları ilə görüşlərin qürurverici olduğunu bildirib. O qeyd edib ki, Sabir Rüstəmxanlının milli düşüncənin oyanmasına səbəb olan əsərləri ilə bütöv bir nəsil yetişib, bu əsərlər örnək, dəyər hesab edilib: “Sabir Rüstəmxanlı şair, ictimai-siyasi xadim, dövlət əhəmiyyətli vəzifələrdə çalışmış ziyalı, Milli Məclisin altı çağırış deputatı kimi tanınıb. Onun bütün fəaliyyəti milli-vətənpərvərlik ruhunun güclənməsinə, xalqımızın tərəqqisinə xidmət edib. Sabir Rüstəmxanlının yalnız “Ömür kitabı”nı böyük bir abidə hesab etmək olar. Belə məzunlarımızı dinləmək, onlardan öyrənmək tələbələrimiz üçün misilsiz fürsətdir. BDU ailəsinə xoş gəlmisiniz!”.



Tədbirin moderatoru, BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Bayramlı Sabir Rüstəmxanlının həyat və yaradıcılığı haqqında tələbələrə məlumat verib. Sabir Rüstəmxanlının yaradıcılığının milli səciyyə daşıdığını vurğulayan Məti Bayramlı tələbələri bu cür əsərlərlə mənəviyyatlarını zənginləşdirməyə çağırıb.

Doğma Universitetdə tələbələrlə görüşə şad olduğunu deyən Sabir Rüstəmxanlı BDU-nun ölkəmizin həyatında böyük missiya daşıdığını vurğulayıb. O, tələbəlik illəri ilə bağlı xatirələrini bölüşüb. “Ədəbiyyatsız millət olmaz, ədəbiyyatsız dünya ruhsuz bədənə dönər” deyən şair ilk şeirlərini elə universitet illərində yazdığını bildirib: “Mənim bütün həyatım mübarizə və savaş dolu olub, hətta sözümlə də mübarizə aparmışam. Azərbaycanın hər bir vətəndaşı millətin taleyində rol oynamağa hər an hazır olmalıdır. Milli düşüncənin formalaşmasına kömək etmək mənim ən böyük missiyalarımdan biridir. Bu, “Ömür kitabı”nda da belə idi, onun davamı olan “Vətəndaşlığın əlifbası”nda da. Tələbələrimiz bu dəyərləri daha çox mənimsəməli, müstəqillik ideyası daşıyan əsərlər dərsliklərimizə daha çox salınmalıdır”.

Daha sonra şair son illərdə çap olunmuş “Vətəndaşlığın əlifbası”, “Qarabağa qayıdış”, “Ölüm son deyil: tanıdığım Heydər Əliyev”, “Şair və şər” kitablarından sitatlar gətirərək, bugünkü görüşün həm də bu əsərlərin təqdimatı olduğunu deyib.

Sabir Rüstəmxanlı sevilən şeirlərini oxuyub, tələbələrin suallarını cavablandırıb, sonda kitablarını BDU-nun Elmi Kitabxanasına hədiyyə edib.

# Dünya şöhrətli alim, Kimya üzrə Nobel mükafatı laureatı Əziz Səncər BDU-da

***Mayın 31-də Dünya şöhrətli alim, ABŞ-nin Şimali Karolina Universitetinin Biokimya və biofizika fakültəsinin professoru, Kimya üzrə Nobel mükafatı laureatı Əziz Səncər BDU-da müəllim və tələbələri ilə görüşüb.***

BDU rektoru Elçin Babayev türk dünyasının tanınmış oğlu Əziz Səncərin Azərbaycanın ən qədim və böyük universiteti olan Bakı Dövlət Universitetini ziyarət etməsinin fəxr olduğunu bildirib: "Əziz Səncərin elmi nailiyyətləri və tədqiqatları təkcə elm dünyasında deyil, həm də bütün insanlıq üçün böyük əhəmiyyət kəsb edir. Əziz Səncərin həyatı və fəaliyyəti gənclər üçün nümunədir. Bu, onu göstərir ki, təhsildə və elmdə zəhmət dünyanın hər yerində ən yüksək mükafatlara layiq görülə bilər".

Rektor diqqətə çatdırıb ki, Əziz Səncərin elmi irsi və tədqiqatları bəşəriyyətin ən vacib problemlərindən biri olan xərçəngin müalicəsində yeni üfüqlər açır: "Görkəmli alimin tədqiqatları və əldə etdiyi uğurlar milyonlarla insana ümid, bu sahədə aparılan elmi işlərə yeni bir istiqamət verir. Bugünkü seminarın mövzusu da müasir elmin ən vacib istiqamətinə - DNT-nin bərpası və beyin xərçənginə həsr olunub. BDU elm və təhsil sahəsində davamlı yeniliklərə və irəliləyişlərə sadiqdir. Bizim məqsədimiz gənc alim və tələbələrə dünya səviyyəli təhsil və tədqiqat imkanları təqdim etməkdir. Professor Əziz Səncər kimi nüfuzlu alimlərin BDU-nu ziyarət etməsi və biliklərini paylaşması bu məqsədə çatmaqda bizə kömək edir".




Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli çıxışında Əziz Səncərin türk dünyasının təbiət elmləri üzrə Nobel mükafatına layiq görülən tək görkəmli alimi olduğunu deyib: “Biokimya kimi çətin bir sahədə bu nüfuzlu mükafatı qazandığına, belə yüksək zirvəni fəth etdiyinə görə minnətdarıq. Alim birinci növbədə öz ölkəsini, Vətənini sevməlidir. Bu mənada Əziz Səncər türk dünyasının böyük oğlu, əsl vətənpərvərdir. Bizim gənclər Əziz Səncərin həyat və fəaliyyətindən, verdiyi dərslərdən örnək almalıdırlar”.

“Can Azərbaycanın qəlbimdə ayrıca yeri var, bura sevərək gəlirəm” deyən professor Əziz Səncər özünü həm də Azərbaycan vətəndaşı hesab etdiyini bildirib. Daha sonra professor Əziz Səncər “DNT-nin bərpası və beyin xərçəngi” adlı təqdimatla çıxış edib.

DNT-nin bərpası, onun genetik quruluşunun qorunmasından bəhs edən alim bu sahədə araşdırmaların 40 ildən çoxdur ki, aparıldığını bildirib. Əziz Səncər qeyd edib ki, xərçəngin qarşısını almaq, inkişafını dayandırmağın ən yaxşı və asan yolu siqaret çəkməməkdir. Tütün məhsulları, xərçəngin müalicəsində istifadə edilən dərmanlar, ultrabənövşəyi şüalar DNT-nın pozulmasına səbəb olur. Bunların tərkibindəki kimyəvi maddələr DNT-nin quruluşunu pozur. Bunun nəticəsində isə xərçəng yaranır. Çox siqaret çəkən insanlarda DNT özünü bərpa edə bilmir və quruluşu pozulur.

Əziz Səncər yaxın gələcəkdə tədqiqat nəticələrinin xərçəngin müalicəsində tətbiq ediləcəyinə ümidvar olduğunu bildirib.

# İspaniyanın Donastiya Beynəlxalq Fizika Mərkəzi və Bask Universitetinin professoru BDU-da elmi seminar keçib

***Mayın 30-da BDU-da İspaniyanın Donastiya Beynəlxalq Fizika Mərkəzi və Bask Universitetinin professoru Yevgeniy Vladimiroviç Çulkovun “Maqnit topoloji izolyatorların fizikası və materialşünaslığında son nailiyyətlər” (“Recent advances in physics and materials science of magnetic topological insulators”) mövzusunda seminarı keçirilib.***

O, əvvəlcə təbii surətdə alınan, laboratoriya şəraitində sintez olunan və strukturlaşdırılan 3D və 2D topoloji izolyatorları, kvant-spin Holl izolyatorları haqqında geniş məlumat verib.

Daha sonra məruzəçi kondensə olunmuş hal fizikası sahəsinin ən son nailiyyətlərindən biri olan maqnit topoloji izolyatorların müxtəlif alınma üsullarından danışıb.

O, kvant-anomal Holl faza sistemləri, antiferromaqnit topoloji izolyatorlar, güclü spin-orbital qarşılıqlı təsirə malik iki ölçülü və üç ölçülü sislemlərdə ifratkeçiricilik, həcmi materialların səthində bir hissəcikli və kollektiv həyəcanlanmalar, onların parçalanma mexanizmləri, topoloji izolyatorların elektron xassələri, kvant spin və anomal Holl effektləri haqqında məlumat verib.



Professor Yevgeniy Çulkov maqnit topoloji izolyatorların alınması, struktur analizi və tədqiqi sahəsində Azərbaycan fiziklərinin əldə etdiyi nailiyyətlərə də diqqət çəkib.

O qeyd edib ki, 2023-cü ildə “Bəşəriyyət üçün elmin inkişafı” tədbiri çərçivəsində Çinin paytaxtı Pekində ilk dəfə Fundamental Elmlər Beynəlxalq Konqresi (International Congress of Basic Science (ICBS)) keçirilib və Azərbaycan alimlərinin bir sıra ölkələrin alimləri ilə həmmüəllif olduqları “Materiyanın yeni kvant halı – antiferromaqnit topoloji izolyator” adlı məqaləsi son beş ildə çap olunmuş yüksək fundamental elmi dəyərə malik olan nailiyyət və ən yaxşı tədqiqat işi kimi qiymətləndirilib, beynəlxalq mükafata layiq görülüb. Bu elmi məqalə 18 dekabr 2019-cu ildə "Nature" jurnalında nəşr olunub və ona olan istinadların sayı 1000-i keçib. Məqalənin mükafata layiq görülməsi dünya elmi ictimaiyyətinin azərbaycanlı alimlərin fəaliyyətinə verdiyi yüksək qiymətdən xəbər verir. Professor Yevgeniy Çulkov həm də Sankt-Peterburq Universitetinin Nanosistemlərin elektron və spin quruluşu laboratoriyasının rəhbəri, Tomsk Dövlət Universitetinin beynəlxalq şurasının üzvü və elmi məsləhətçisidir.

# BDU-da tanınmış alim, şair, professor Mahirə Nağıqızı ilə görüş

***Mayın 30-da BDU-da tanınmış alim, şair, professor Mahirə Nağıqızının tələbələrlə görüşü keçirilib.***

BDU-nun rektoru Elçin Babayev Mahirə Nağıqızının gözəl pedaqoq, istedadlı şair, vətənpərvər ziyalı, zəhmətkeş alim olduğunu qeyd edib. O bildirib ki, filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü Mahirə Hüseynova alim kimi ana dilimizin tədqiqi sahəsində qiymətli əsərlər ərsəyə gətirib: "Çoxsaylı monoqrafiya, kitab və məqalələrin müəllifi olan Mahirə xanım öz sözləri ilə desək, "öyrədənlərin öyrədənidir". Mahirə xanım Azərbaycan elminin inkişafına xidmət edən sanballı alimlərdən biridir. Onun dilçilik sahəsində apardığı tədqiqatlar, çap etdirdiyi əsərlər mühüm yenilikləri ilə seçiyyəvidir. Alimin müxtəlif mövzuları əhatə edən 30-dək kitabı onun alim və şair kimi məhsuldar fəaliyyətini əks etdirir".

Rektor qeyd edib ki, görkəmli alimin "Ulu Öndərimizin natiqlik məharəti", "Ulu Öndərimizin natiqlik məharəti xalqımızın ən böyük sərvətidir", "Missiya", "Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası" (Sayalı Sadiqova ilə birlikdə) kimi əsərlərində Azərbaycan xalqının Ümummilli Lideri, fenomenal şəxsiyyət Heydər Əliyevin nəsillərə örnək olan həyatı və misilsiz xidmətləri əhatəli şəkildə təqdim olunub.



Elçin Babayev onun poeziyasında Vətən və Ana obrazının ülvi, qırılmaz sevgi, bədii dilin bütün gözəllikləri ilə, ustalıqla yaradıldığını bildirib: "Mahirə Nağıqızının poeziyasının əsas obrazları Ana və Vətəndir. "Mənim anam", "Yaşadacaq anam məni", "Analı dünyam" kimi şeirlərində biz ana məhəbbətini, nəvazişini, istiliyini, fədakarlığını bütün dərinliyi ilə hiss edirik. Mahirə Nağıqızı şəhidləri "sağlığında döyüşən əsgər", məzarlarını isə "Vətənin istehkamı" adlandırır. O, "Şəhid nəğməsi", "Son döyüşə hazır ol", "Al bayrağım" və sair şeirlərində qəhrəmanlıq, fədakarlıq və vətənpərvərlik hisslərini ülviləşdirərək ifadə edir".

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, Milli Məclisin deputatı Məlahət İbrahimqızı, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru Sevinc Əliyeva, "Azərbaycan" jurnalının baş redaktorunun müavini Əsəd Cahangir çıxışlarında şairənin zəngin söz dünyasından, yaradıcılığının özünəxas cəhətlərindən bəhs ediblər. Çıxışlarda qeyd olunub ki, Mahirə Nağıqızının əsərlərində milli ruhun təbliği xüsusi yer tutur. Vətən sevgisi, onun bütövlüyü, toxunulmazlığı, Qarabağ Zəfəri görkəmli şairin yaradıcılığından qırmızı xətlə keçir.

Daha sonra söz professor Mahirə Nağıqızıya verilib. Tələbələrlə görüşün çox xoş olduğunu qeyd edən tanınmış şair gənclərə inamının böyük olduğunu deyib: "Mütaliəsiz tələbəni silahsız əsgərə bənzədirəm. Gənclərimiz daha çox oxumalı, mütaliəli olmalı, elm, bilik qazanmalı, inkişaf etməlidirlər. Gənclərə çox inanıram. Qarabağımızı məhz bu gənclər azad elədilər. Dünya olimpiadalarında üzümüzü gənclərimiz ağ edirlər. Qərbi Azərbaycana da məhz o gənclər gedəcəklər".

Ədəbiyyata marağının anasının səsləndirdiyi bayatıları dinləyərək, sevərək yarandığını deyən Mahirə Nağıqızı 1300-dək bayatının müəllifi olduğunu diqqətə çatdırıb: "Ana dilimizi qorumaq hər bir gəncin borcudur. Vətənimiz, anamız necə vazkeçilməzdirsə, ana dilimiz də elə olmalıdır. Hər kəs öz səngərində əsgər kimi milli dəyərlərimizi qorumalıdır". Daha sonra tanınmış şair müəllifi olduğu şeirlərdən səsləndirib və tələbələrin suallarını cavablandırıb.

# Gənc tədqiqatçı və magistrantların "Şərq filologiyası məsələləri" mövzusunda Respublika elmi konfransı

***Mayın 20-də Şərqşünaslıq fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş Gənc tədqiqatçı və magistrantların "Şərq filologiyası məsələləri" mövzusunda Respublika elmi konfransı keçirilib.***

Şərqşünaslıq fakültəsinin elmi işlər üzrə dekan müavini Nigar İsmayılzadə konfransı giriş sözü ilə açaraq müstəqil Azərbaycanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda təhsilin, elmin inkişafı istiqamətlərində önəmli işlər görüldüyünü qeyd edib. Gənclərin elmi-tədqiqat işinə cəlb olunmasının BDU-nun prioritet vəzifələrindən olduğunu vurğulayıb.

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan rəhbərlik etdiyi fakültənin gənc alim və magistrantlarına konfransın işində uğurlar diləyib, Ümummilli Lider Heydər Əliyevin gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab etdiyini deyib. Qeyd edib ki, Ulu Öndər Azərbaycanın tərəqqisi, onun iqtisadi, siyasi və mədəni həyatı, demokratik dövlət və cəmiyyət qurulmasında gənclərin rolunun danılmaz olduğunu vurğulayıb.

Konfransda Şərqşünaslıq fakültəsinin Orta Şərq dilləri və ədəbiyyatı kafedrasının müəllimi Familə Nəcəfli orta əsr farsca-türkcə lüğətlərin xüsusiyyətlərindən, yaranma tarixindən, əlyazma variantlarından bəhs edib, onların mövzu üzrə təsnifi, quruluş prinsiplərindən nümunələr səsləndirib. Türk filologiyası kafedrasının müəllimi Həyat Məmmədova məruzəsində Yaşar Kamalın yaradıcılığı haqqında məlumat verib və yazıçının "İlanı öldürsələr" romanında ilan və insan kultu haqqında təhlillərini təqdim edib.

Daha sonra fakültənin gənc doktorant və magistrantları Şərq ölkələrinin dili, ədəbiyyatı, filologiyası, fəlsəfi fikrin öyrənilməsi və araşdırılması haqqında məruzələr ediblər. Konfransda "Ərəb ədəbi dilində morfoloji və sintaktik zaman", "Xətib Təbrizinin şagirdləri", "Həzrət Sultan Bahu fəlsəfi dünyagüşündə "Nəfs" və "Zikr" anlayışları" kimi mövzularda məruzələr dinlənilib.

# BDU-da Respublika elmi konfransı: "Qlobal iqlim dəyişikliyi və Azərbaycanın müasir ekosistemi"

***Mayın 17-də Ekologiya və torpaqşünaslıq fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Qlobal iqlim dəyişikliyi və Azərbaycanın müasir ekosistemi" mövzusunda Respublika elmi konfransı keçirilib.***

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Akif Ağbabalı müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan tarixindəki rolu, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi islahatlar barədə ətraflı məlumat verib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyev bütün ictimai-siyasi fəaliyyəti dövründə Azərbaycanın inkişafı üçün çalışıb, millətimiz, xalqımız üçün əlindən gələni əsirgəməyib.



Konfransın açılış hissəsində Ekoloji kimya kafedrasının müdiri Sevinc Hacıyeva Ümummilli Liderin respublikamızın ətraf mühitinin qorunması sahəsindəki xidmətləri və ekoloji siyasəti, Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrasının müdiri Qərib Məmmədov qlobal iqlim dəyişikliklərinin torpaqların deqradasiyasına təsiri, Coğrafi ekologiya kafedrasının professoru Şövqi Göyçaylı Ulu Öndər Heydər Əliyevin irsi və Azərbaycan təbiətinin mühafizəsi barədə ətraflı məlumat veriblər.

Çıxışlarda Ulu Öndərin Azərbaycanda siyasi hakimiyyətə yenidən qayıdışı ilə ölkənin davamlı inkişaf yoluna qədəm qoyduğu, sabitliyin bərqərar olduğu, xarici siyasətdə böyük uğurlar qazanıldığı vurğulanıb.

Daha sonra konfrans işini bölmə iclasları ilə davam etdirib.

# Şərqşünaslıq fakültəsinin təşkilatçılığı ilə "Ədibin evi"ndə "Füzuli və Mir Cəlalın yaradıcılığı" adlı tədbir keçirilib

***Mayın 17-də Şərqşünaslıq fakültəsinin təşkilatçılığı ilə "Ədibin evi"ndə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunmuş "Füzuli və Mir Cəlalın yaradıcılığı" adlı tədbir keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə görkəmli ədib, alim, pedaqoq, professor Mir Cəlal Paşayevin həyat və yaradıcılığından bəhs edən sənədli filmə baxıblar.

Fakültənin Ərəb filologiyası kafedrasının müəllimi, filologiya elmləri doktoru, professor Tərlan Quliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Məhəmməd Füzulinin 530 illik yubileyinin qeyd edilməsi ilə bağlı Sərəncamının zəngin ədəbi-mədəni irsimizin yaşadılması, qorunması baxımından mühüm əhəmiyyət daşıdığını bildirib. O qeyd edib ki, professor Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabı bu zəngin irsin öyrənilməsi baxımından ən qiymətli mənbələrdəndir. "Füzuli sənətkarlığı" kitabı Füzuli haqqında müasir elmi-metodologiya ilə yazılan ilk monoqrafiyadır. "Füzuli sənətkarlığı" ilk dəfə 1958-ci ildə işıq üzü görsə də, füzulişünaslıqda böyük bir hadisə kimi öz elmi əhəmiyyətini bu günə qədər qorumaqdadır. Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatşünaslığında bu kitabla Füzuli irsinin öyrənilməsi məktəbinin əsasını qoyub.

Ərəb filologiyası kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Vüqar Qaradağlı Füzuli irsinin dəyərlərindən danışaraq, tələbələr üçün belə görüşlərin əhəmiyyətindən bəhs edib. Sonda Şərqşünaslıq fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Nigar İsmayılzadə belə tədbirlərin BDU tələbələrinin yetişməsində mühüm rol oynadığını qeyd edib.

# BDU-da "Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar" mövzusunda konfrans

***Mayın 27-də Bakı Dövlət Universiteti, Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurası, YAP Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə 28 May - Müstəqillik Günü münasibətilə "Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar" mövzusunda konfrans keçirilib.***



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev yaradılmasının 106-cı ildönümünü qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki rolundan bəhs edib. Qeyd edib ki, Azərbaycan xalqının XX əsrin əvvəlində Şərqdə ilk demokratik respublika yaratması mühüm tarixi nailiyyətdir.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın dövlətçilik ənənələrində özünəməxsus yer tutur. O dövrdə Xalq Cümhuriyyəti müəyyən səbəblərdən süqut etdi. Lakin xalqımız XX əsrin sonunda yenidən azadlığa qovuşdu və dövlət müstəqilliyini bərpa etdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra müstəqil Azərbaycanın sarsılmaz bünövrəsini yaratdı, dövlətçiliyimizin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Bu gün Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan dövləti dünyada böyük nüfuza malikdir. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimiz ən qüdrətli dövrünü yaşayır. Prezident İlham Əliyevin Azərbaycanın hərtərəfli inkişafını təmin edən məqsədyönlü və düşünülmüş siyasətinin uğurları, dövlətimizin öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, beynəlxalq miqyasda nüfuzlu dövlətə çevrilməsi hər bir vətəndaşı qürurlandırır. Bu, ölkə başçısının gələcək nəsillərə unudulmaz dövlətçilik əmanətidir".

BDU-nun prorektoru Əliş Ağamirzəyev isə qeyd edib ki, milli dövlətçilik tariximizdə Azərbaycan Xalq Cümhuriyyəti müstəsna yer tutur. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə demokratik ənənələrin formalaşmasına əhəmiyyətli təsir göstərib. Xalq Cümhuriyyətinin uğurlarından biri də 1919-cu ildə Bakı Dövlət Universitetinin yaradılmasıdır. Bu gün milli dövlətçilik ənənələrimizin davam etdiyini deyən Əliş Ağamirzəyev bildirib ki, müstəqil Azərbaycan böyük zəfərlər qazanaraq adını tarixə qızıl hərflərlə yazdırıb: "Ən mühüm nailiyyət isə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunmasıdır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş bütün ərazilərimiz dirçəlir, cənnətə çevrilir. O cümlədən Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması böyük əhəmiyyət kəsb edir".

YAP Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru, professor Dilarə Seyidzadə deyib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması dövlətçilik tariximizin şanlı səhifələrindən biridir. Tarixçi kimi elmi işinin XX əsrin əvvəllərində azərbaycanlı deputatların Rusiya Dumasında fəaliyyəti ilə əlaqədar olduğunu vurğulayan Dilarə Seyidzadə həmin dövrdəki deputatların xalqımız üçün böyük işlər gördüklərini söyləyib: "Onlar əsl vətənpərvər ziyalılar idi. Bu insanların fəaliyyəti Xalq Cümhuriyyətinə gedən yolda böyük rol oynayırdı. Nəticədə 1918-ci ilin mayında Xalq Cümhuriyyəti elan olundu. Cümhuriyyət dövründə ana dilində məktəblər açıldı, qadınlara səsvermə hüququ verildi, bir sıra mühüm qanunlar qəbul olundu və digər önəmli addımlar atıldı. Lakin o dövrdə mürəkkəb geosiyasi proseslər baş verirdi və həmin proseslər fonunda Cümhuriyyət cəmi 23 ay yaşaya bildi".

YAP Veteranlar Şurasının üzvü deyib ki, müstəqil dövlətimizi qorumaq, onu sevmək hər bir vətəndaşımızın borcudur: "Doğma vətəni sevməyin ən böyük nümunəsini Ulu Öndər Heydər Əliyev göstərib. Bu gün Prezidentimiz İlham Əliyev öz siyasəti ilə müstəqil dövlətimizi daha da gücləndirir".

BDU-nun dosenti Xumar Səfərova çıxışında bildirib ki, Cümhuriyyət qurucularının xidmətləri daim xalqımız, dövlətimiz tərəfindən yüksək dəyərləndirilir, onların əziz xatirəsi hər zaman uca tutulur.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb, YAP sıralarına qəbul edilmiş şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# BDU-da 28 May – Müstəqillik Gününə həsr edilmiş tədbir

***Mayın 24-də BDU-da 28 May - Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun rektoru Elçin Babayev bildirib ki, 106 il bundan əvvəl, 1918-ci ilin may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla müstəqilliyimizi dünyaya bəyan etdi. Fəaliyyət göstərdiyi cəmi iyirmi üç ay ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradıldı, dövlət atributları təsis olundu, sərhədləri müəyyən edildi, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirildi. Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atıldı. Cümhuriyyət parlamentinin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynadı. Xalq Cümhuriyyəti təkcə Azərbaycanda deyil, müsəlman Şərqində, türk və islam dünyasında ilk parlamentli respublika və ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsidir.

Rektor qeyd edib ki, 1919-cu il sentyabrın 1-də Parlament "Bakı Dövlət Universitetinin təsis olunması haqqında" Qanun qəbul etdi. Milli universitetin açılması Cümhuriyyət xadimlərinin doğma xalq qarşısında çox mühüm tarixi xidməti idi: "Ümummilli Liderimiz Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə mühüm yeri olan Azərbaycan Xalq Cümhuriyyətinin xidmətlərini hər zaman yüksək qiymətləndirib. 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncam imzalanıb və bu tarixi hadisə münasibətilə 2019-cu il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunaraq ölkədə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilib. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi müvəffəqiyyətlə davam etdirilir, respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf edir. Müstəqil, qüdrətli, ərazi bütövlüyünü təmin etmiş Azərbaycanın həyatında yeni səhifələr açılır".

Daha sonra Milli Məclisin üzvləri, BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, professor Anar İsgəndərov və Aydın Hüseynov çıxış ediblər. Çıxışlarda müstəqil Azərbaycanın Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrini uğurla davam etdirdiyi və yeni çalarlarla daha da zənginləşdirdiyi qeyd edilib.

Tədbir bədii hissə ilə davam edib.

# "Əbədi müstəqilliyimizdən tarixi zəfərə" adlı tədbir

***Mayın 29-da BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə 28 May - Müstəqillik Gününə həsr olunmuş "Əbədi müstəqilliyimizdən tarixi zəfərə" adlı tədbir keçirilib.***

BDU-nun Tarix fakültəsinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri Azad Rzayev qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti bizim dövlətçilik tariximizdə mühüm yer tutur. Cümhuriyyət dövründə Milli Ordu yaradılıb, Azərbaycan dilində məktəblər açılıb, ilk dəfə Azərbaycan tarixinin yazılmasına başlanılıb, İstiqlal muzeyi təşkil edilib. Cümhuriyyətin yaradıcılarına ən böyük dəyəri məhz Ümummilli Lider Heydər Əliyev verib: "Ulu Öndər keçən əsrin sonlarında dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olduğunu bəyan etdi. Ulu Öndər Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə mühüm yeri olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarını, xidmətlərini hər zaman yüksək qiymətləndirib, Cümhuriyyət ənənələrinin yaşadılmasına və inkişaf etdirilməsinə daim böyük əhəmiyyət verib". Daha sonra Şərqşünaslıq fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Şahin Yusifli AXC-nin yaradılmasını zəruri edən səbəblər barədə danışıb, müstəqil Azərbaycanın Xalq Cümhuriyyətinin ənənələrini yaşatdığını qeyd edib.

# BDU-da "Könüllülük həftəsi" çərçivəsində "Müstəqillik turniri"

***Mayın 27-də BDU-nun 105 və "BDU könüllüləri" təşkilatının 5 illik yubileyləri münasibəti ilə təşkil edilən "Könüllülük həftəsi" çərçivəsində Azərbaycandakı müxtəlif könüllü təşkilatların üzvlərinin iştirakı ilə 28 May - Müstəqillik Gününə həsr olunmuş "Müstəqillik turniri" intellektual oyunu keçirilib.***

İntellektual oyunda "BDU könüllüləri", "Ailəm Könüllüləri" Proqramı və "Miqrasiya könüllüləri" təşkilatlarını təmsil edən 11 komanda ("Morituri", "CoupDeGrace", "Məğlubedilməz Armada", "Albinos", "İnclude", "Filosoflar", "Eldorado", "Xarıbülbül", "Sonuncu şam yeməyi", "Sirius", "FərqliSən") hər turda 12 suala cavab verməklə 2 turda yarışıb.

Oyunun nəticələrinə görə, "Morituri" komandası l, "CoupDeGrace" komandası ll, "Məğlubedilməz Armada" komandası lll yerə layiq görülüb.

Qalib komandaların üzvləri sertifikatla təltif olunublar.

# BDU-da ali məktəb tələbələri arasında Respublika Olimpiadası qaliblərinin mükafatlandırılma mərasimi

***Mayın 24-də BDU-da ali məktəb tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə və BDU-nun 105 illik yubileyinə həsr olunmuş Fizika, Riyaziyyat, Kimya, Biologiya və Coğrafiya fənləri üzrə Respublika Olimpiadasının qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.***



Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev Azərbaycanda elm və təhsil sahəsində həyata keçirilən siyasətin uğurlu nəticələrindən danışıb, olimpiada hərəkatının ildən-ilə genişləndiyini qeyd edib. Elçin Babayev olimpiadada iştirak etməyin tələbələr üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayıb, bunun onların sonrakı həyatına uğurlu təsir göstərdiyini deyib. Olimpiadada iştirak tələbələrdən fərqli yanaşma tələb edir, onlara əzmkarlıq, öz üzərilərində çalışmaq kimi vərdişləri aşılayır. Olimpiadada BDU ilə yanaşı, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Xəzər Universiteti, Odlar Yurdu Universiteti, Qərbi Kaspi Universiteti, Bakı Ali Neft Məktəbi, ADA Universiteti, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Lənkəran Dövlət Universiteti və Bakı Mühəndislik Universitetindən ümumilikdə 400-dən çox tələbə iştirak edib. Olimpiadanın məqsədi Azərbaycanda Fizika, Riyaziyyat, Kimya, Biologiya və Coğrafiya elmləri üzrə ixtisaslı mütəxəssislərin hazırlanmasının keyfiyyətini daha da yüksəltmək, istedadlı tələbələri aşkarlamaq və dəstəkləmək, onları elmi-tədqiqat fəaliyyətinə cəlb etməkdir.

Riyaziyyat, Kimya, Fizika, Biologiya, Coğrafiya fənləri üzrə olimpiadanın Təşkilat Komitəsinin sədrləri - BDU-nun uyğun fakültələrinin dekanları Ziyatxan Əliyev, Fuad Kərimli, Bəxtiyar Paşayev, Afət Məmmədova və Məqsəd Qocamanov çıxışlarında belə olimpiadaların keçirilməsinin önəmindən danışıb, qaliblərə uğurlar arzulayıblar.

Daha sonra BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov Respublika Olimpiadasının qaliblərini elan edib. Müsabiqənin nəticələrinə əsasən, 60 tələbə Olimpiadanın qalibi olub. Onlardan 5-i I, 10-u II, 15-i III yerləri tutub, 30 tələbə həvəsləndirici yerlərə layiq görülüb. Olimpiada qaliblərinə diplom və hədiyyələr təqdim olunub.

# Şimali Kipr Türk Respublikasının nümayəndə heyəti BDU-da

***Mayın 24-də "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycanda səfərdə olan Şimali Kipr Türk Respublikasının (ŞKTR) nümayəndə heyəti BDU-da olub. Nümayəndə heyətinə ŞKTR-in ictimai xadimləri, şəhid ailələrinin üzvləri, ali məktəb təmsilçiləri daxildir. Səfər "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin icra etdiyi "Türk dünyasının şəhid ailələri arasında əlaqələrin inkişafı" layihəsi çərçivəsində təşkil olunub.***

Qonaqlar əvvəlcə BDU-da şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri qoyub, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsinə ehtiramlarını bildiriblər. Daha sonra onlar BDU-nun "Zəfər tarixi" lektoriyası ilə tanış olublar.

Rektor Elçin Babayev qeyd edib ki, qardaş Türkiyə, türk dünyasının bir parçası olan Şimali Kipr Türk Respublikası ilə sevinc və kədərimiz, kökümüz, dilimiz, dinimiz, milli və mənəvi dəyərlərimiz birdir: "Vətən, bayraq uğrunda savaş, şəhidlik zirvəsi bizim üçün müqəddəsdir. Son illər türk dünyası iqtisadi, siyasi, sosial, mədəni, hərbi sahələrdə güclənir. Bu birliyin daha da artması, uzunmüddətli olması üçün türkdilli dövlətlərin elm, təhsil



müəssisələrinin, ictimai qurumlarının üzərinə mühüm vəzifələr düşür".

BDU İctimai Nəzarət Şurasının üzvü, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova qonaqlara BDU kollektivinin Vətən müharibəsi günlərində həm ön, həm də arxa cəbhədə fədakarlığı barədə məlumat verib. Qeyd edib ki, Universitetin 22 məzun və tələbəsi şəhidlik zirvəsinə ucalıb. Hazırda BDU-da 200-dən artıq Vətən müharibəsi iştirakçısı, 10-a yaxın şəhid ailəsi üzvü təhsil alır.

ŞKTR Prezidentinin QHT-lərlə əlaqələr üzrə müşaviri Latif Akça, "Şəhid Ailələri və Əlil Qazilər Dərnəyi"nin sədri Gürsel Benan çıxışlarında iki xalq arasında ortaq layihələrin, vətəndaş cəmiyyəti və elm, təhsil qurumları arasında birgə tədbirlərin, əməkdaşlığın, qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıblar.

# Türkiyənin Mərmərə Universitetinin rektoru BDU-da

***Mayın 21-də BDU-nun rektoru Elçin Babayev Türkiyə Respublikasının Mərmərə Universitetinin rektoru Mustafa Kurt ilə görüşüb.***

Rektor Elçin Babayev qonağa 105 yaşlı BDU-nun tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri barədə məlumat verib. BDU-nun türkdilli ölkələrlə, o cümlədən qardaş Türkiyənin ən tanınmış universitetləri ilə sıx əməkdaşlıq etdiyini bildirib. O, BDU-nun



nəzdində Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzində biotexnologiyalar, nanotexnologiyalar, kimya, riyaziyyat və s. sahələr üzrə birgə elmi tədqiqatlar aparmağı təklif edib. Rektor qeyd edib ki, hər iki universitet elmin müxtəlif sahələri üzrə ikili diplom proqramları imzalaya, ortaq layihələr, tədbirlər icra edə bilər.

BDU-da olmaqdan məmnunluğunu bildirən Mərmərə Universitetinin rektoru Mustafa Kurt hər iki ölkənin köklü universitetlərinin əməkdaşlığının qardaş xalqların inkişafına fayda verəcəyinə əminliyini bildirib. O, Mərmərə Universitetinin BDU ilə birgə beynəlxalq tədqiqat layihələrində iştirak və birgə araşdırma mərkəzi yaratmaq imkanlarını yüksək qiymətləndirib.

Görüşdə iki universitet arasında əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparılıb.

# Rumıniyanın ölkəmizdəki səfiri və nümayəndə heyəti BDU-da

***Mayın 20-də BDU-nun rektoru Elçin Babayev Rumıniya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vasile Soare, Buxarest Universitetinin rektoru, Qara Dəniz Universitetlər Şəbəkəsinin prezidenti Marin Perda, Şəbəkənin baş katibi Eden Mamut ilə görüşüb.***

Qonaqları salamlayan rektor Elçin Babayev BDU-nun tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri ilə bağlı məlumat verib, Universitetin Rumıniya universitetləri ilə səmərəli, uğurlu əməkdaşlıq etdiyini diqqətə çatdırıb.



Rektor BDU ilə Buxarest Universiteti arasında maraq doğuran istiqamətlər üzrə ikili diplom proqramlarının qurulması, akademik, inzibati heyətin və tələbə mübadiləsinin aparılmasının əhəmiyyətinə toxunub. Elçin Babayev eyni zamanda ortaq forumların, elmi konfransların keçirilməsinin, birgə elmi qrantlara müraciət edilməsinin vacibliyini qeyd edib. O bildirib ki, BDU-nun Rumıniya universitetləri ilə "Erasmus+ KA 171" proqramı çərçivəsində uğurlu əməkdaşlığı mövcuddur və bu istiqamətdə Buxarest Universiteti ilə də faydalı əməkdaşlıq qurula bilər.

Buxarest Universitetinin rektoru Marin Perda BDU ilə ortaq layihələrə, xüsusilə müəllim-tələbə mübadiləsinin, müxtəlif sahələr üzrə elmi tədqiqatların genişlənməsinə ehtiyac olduğunu bildirib.

Görüşdə həmçininin iki universitet arasında əməkdaşlığın və Qara Dəniz Universitetlər Şəbəkəsi çərçivəsində qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# BDU-nun Nobel Sülh mükafatçısı olan məzunu tələbə-jurnalistlərlə görüşüb

*Mayın 16-da BDU-nun məzunu, Azərbaycan əsilli ilk Nobel Sülh mükafatçısı Bəxtiyar Siracov Jurnalistika fakültəsinin qonağı olub. Əvvəlcə fakültənin dekanı Vüqar Əliyev qonağı tələbələrə təqdim edib, onun fəaliyyətini Azərbaycan elminin uğuru kimi dəyərləndirib.*



Professor Cahangir Məmmədli Norveç Sülh Komitəsinin qərarı ilə 2005-ci ildə Nobel Sülh mükafatına layiq görülən və 26 il Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) məsul əməkdaşı olan həmyerlimiz haqqında tələbələrə məlumat verib.

Bəxtiyar Siracov məzunu olduğu universitetdə tələbələrlə görüşdən məmnunluğunu ifadə edib. Qonaq tələbəlik illərindən tutmuş AEBA-dakı fəaliyyətinədək keçdiyi yol barədə ətraflı məlumat verib, elmin inkişafına gənclərin töhfəsinin vacibliyini vurğulayıb. O, bilik və təcrübələrindən bəhrələndiyi Azərbaycan alimlərini minnətdarlıqla yad edib, onların yetirmələrinin bu gün dünyanın nüfuzlu universitetlərində, elm mərkəzlərində çalışdığını fəxrlə bildirib. Qonaq gəncləri elmi irsi daha dərindən və mükəmməl öyrənməyə, tarixi ənənələrdən bəhrələnməyə çağırıb.

Bəşəriyyətin uğuru və firavan gələcəyinin elm adamlarının uğurundan asılı olduğunu deyən alim tələbələrin ünvanladığı çoxsaylı sualları cavablandırıb, səmimi, interaktiv mühitdə keçən görüşə görə Universitet rəhbərliyinə və tələbə-jurnalistlərə təşəkkürünü bildirib.

Xatırladaq ki, BDU-nun 105 illik yubileyi çərçivəsində Jurnalistika fakültəsində silsilə tədbirlər keçirilir. Tələbələr tanınmış məzunlarla görüşür, onların fəaliyyəti ilə yaxından tanış olurlar.

# BDU-da “I Gənc mədəniyyət müxbirləri məktəbi”nin növbəti təlimi

*Mayın 16-da BDU-da tanınmış jurnalist Ramilə Qurbanlının iştirakı ilə "I Gənc mədəniyyət müxbirləri məktəbi" layihəsi çərçivəsində növbəti təlim keçirilib.*



Mədəniyyət və incəsənət jurnalistikası haqqında tələbələrə ətraflı məlumat verən təlimçi bu sahədə ixtisaslaşmaq arzusunda olan jurnalistlərin bilməli olduqları xüsusi nüansları izah edib.

Tanınmış jurnalist mədəniyyət və incəsənət jurnalistikasının özəllikləri, dil-üslub xüsusiyyətləri, janr müxtəlifliyi, yazı texnikası, bu sahədə etik qaydaları əyani misallarla izah edib.

Ramilə Qurbanlı mədəniyyət xadimləri ilə müsahibələr zamanı yaşanan maraqlı məqamları, xatirələrini bölüşüb.

İnteraktiv formada keçən dərsin sonunda Ramilə Qurbanlı tələbələrin suallarını cavablandırıb və onlara öz kitablarını hədiyyə edib.

Qeyd edək ki, BDU-nun Jurnalistika fakültəsi, Azərbaycan Mətbuat Şurası və "525-ci qəzet"in birgə təşkilatçılığı ilə həyata keçirilən "I Gənc mədəniyyət müxbirləri məktəbi" layihəsinin məqsədi mədəniyyət sahəsi üzrə püxtələşmək arzusunda olan tələbələrin inkişafına təkan verməkdir. Layihə çərçivəsində bu sahədə imzası tanınan şəxslərin təlimlərinin keçirilməsi, tələbələrin mədəni-kütləvi tədbirlərə cəlb olunması, öyrəndiklərini tətbiq etmək üçün materialların hazırlanması və işıqlandırılması, sonda isə "I Gənc mədəniyyət müxbirləri məktəbi"nin xüsusi sertifikatının verilməsi nəzərdə tutulur.

# AZƏRTAC-ın baş buraxılış redaktoru Pərvin Abbasov Jurnalistika fakültəsinin tələbələri üçün təlim keçib

***Mayın 27-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) baş buraxılış redaktoru Pərvin Abbasov Jurnalistika fakültəsinin tələbələri üçün təlim keçib.*** Əvvəlcə fakültə dekanı Vüqar Əliyev AZƏRTAC-ın fəaliyyəti barədə danışıb, Azərbaycan Dövlət İnformasiya Agentliyinin jurnalistlər üçün böyük məktəb olduğunu deyib. Dekan qonaq barədə tələbələrə məlumat verib, jurnalistikanın nəzəri əsaslarının öyrənilməsi ilə yanaşı, praktik cəhətdən təcrübəli jurnalistlərlə birbaşa ünsiyyətin əhəmiyyətindən bəhs edib.





O, Pərvin Abbasovun ölkənin ən tanınmış informasiya agentliklərində çalışdığını, xəbər, reportaj və araşdırma janrları üzrə ixtisaslaşdığını vurğulayıb.

Pərvin Abbasov gənc jurnalistlərlə görüş imkanından məmnunluğunu bildirərək, media sahəsində karyerasından danışıb. O, təlim zamanı tələbələrə xəbərin hazırlanma, press-relizlərlə işləmək qaydaları, mənbələrin seçilməsi və qorunması, saxta xəbərlə mübarizə üsulları barədə məlumat verib. Jurnalistikada müəlliflik hüququnun qorunmasının zəruriliyini xüsusi vurğulayan Pərvin Abbasov həmçinin medianın etik və hüquqi aspektlərindən danışıb, konkret praktik nümunələrlə sadaladığı tezisləri əsaslandırıb.

İnteraktiv formada keçən görüşdə tələbələrin sualları cavablandırılıb.

# BDU-da millət vəkili, professor Kamilə Əliyeva ilə görüş

***Mayın 31-də Biologiya fakültəsində millət vəkili, BDU-nun Genetika kafedrasının müdiri, professor Kamilə Əliyeva ilə görüş keçirilib.***

Görüşdə Biologiya fakültəsinin dekanı, professor Afət Məmmədova 105 yaşını qeyd etməyə hazırlaşan Universitetdə həyata keçirilən yubiley tədbirlərindən danışıb. Afət Məmmədova qeyd edib ki, Kamilə Əliyeva orta məktəbi qızıl medalla bitirib, bir imtahandan “əla” qiymət almaqla BDU-nun Biologiya fakültəsinə daxil olub. Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra isə BDU-da müəllim, baş müəllim, dosent kimi çalışıb. Biologiya elmləri doktoru, BDU-nun professoru olan Kamilə Əliyeva insan genetikası, tibbi genetika, molekulyar genetika, sitologiya sahələrində müxtəlif dərslik, dərs vəsaitləri və elmi məqalənin müəllifidir. O, eyni zamanda millət vəkili kimi geniş ictimai-siyasi fəaliyyətlə məşğuldur.

Professor Kamilə Əliyeva gənclərə uğurlu karyera qurmağın əzmkarlıq və çalışqanlıqdan keçdiyini bildirib, alim, pedaqoq və millət vəkili kimi fəaliyyəti ilə bağlı onları məlumatlandırıb. O, əvvəlki dövrlə müqayisədə bugünkü tələbələrin intellekt səviyyəsinin daha yüksək olduğunu, peşəkar mütəxəssis kimi yetişmək üçün çoxlu imkanlar yarandığını deyib.

Sonda tələbələrin sualları cavablandırılıb.

# “BDU qocaman müəllimlərin gözü ilə”: Professor İzzət Rüstəmovla görüş



***Mayın 27-də BDU-nun 105 illik yubileyi çərçivəsində həyata keçirilən “BDU qocaman müəllimlərin gözü ilə” layihəsinin növbəti qonağı Sosial elmlər və psixologiya fakültəsinin məsləhətçi professoru İzzət Rüstəmov olub.***

Görüşün moderatoru, BDU-nun tarixi muzeyinin müdiri Günel Orucəliyeva layihənin məqsədindən, 105 yaşını qeyd etməyə hazırlaşan qocaman Universitetdə həyata keçirilən yubiley tədbirlərindən danışıb.

Görüşdə İzzət Rüstəmov Universitetlə bağlı xatirələrini bölüşüb. Qeyd edib ki, Azərbaycan xalqının maariflənməsində, ziyalı təbəqənin formalaşmasında, elmi dəyərlərin zənginləşməsində Universitetin rolu danılmazdır. Tarixin müxtəlif keşməkeşli dövrlərindən keçən Universitet bütün inkişafı boyu öz müqəddəs missiyasını şərəflə daşıyıb, ölkəmizdə əsas elm və təhsil məbədi, milli düşüncənin formalaşma mərkəzi kimi nüfuz qazanıb.

Professor İzzət Rüstəmov Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə əmək fəaliyyətindən bəhs edib. Ümummilli Liderin müstəqil Azərbaycan dövlətinin yaranmasında, inkişafında və dünya ölkələri içərisində tanınmasında göstərdiyi misilsiz xidmətlərə diqqət çəkib.

İzzət Rüstəmov sonra oğlu, Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi Məzahir Rüstəmovun keçdiyi döyüş yolundan, etdiyi qəhrəmanlıqlardan da danışıb.

Sonda tələbələrin sualları cavablandırılıb.

# Millət vəkili Anar İsgəndərov BDU-da ustad dərsi keçib

***Mayın 24-də İnformasiya və sənəd menecmenti fakültəsində "Ulu Öndər Heydər Əliyev – müasir Azərbaycan dövlətinin qurucusu" mövzusunda ustad dərsi keçirilib.*** Ustad dərsində Milli Məclisin deputatı, BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, tarix elmləri doktoru, professor Anar İsgəndərov Ümummilli Lider Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı müstəsna xidmətlərini tarixi dövrləşdirmə əsasında elmi-nəzəri baxımdan şərh edib.



Ümummilli Lider Heydər Əliyevin sovet dövründə xüsusi xidmət orqanlarındakı fəaliyyətindən bəhs edən natiq vurğulayıb ki, Ulu Öndər həmin illərdə yüzlərlə azərbaycanlını repressiyalardan xilas edib, eyni zamanda bütün çətinliklərə, maneələrə, təqib və təzyiqlərə baxmayaraq, dövlət təhlükəsizlik orqanlarının milliləşdirilməsinin əsasını qoyub. Professor Anar İsgəndərov qeyd edib ki, Ulu Öndər Heydər Əliyev hələ sovet dövründə müstəqil Azərbaycanın təməllərini formalaşdırır, bunun üçün hərtərəfli zəmin hazırlayırdı: "Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər tariximizə parlaq hərflərlə yazılıb. Məhz bu illərdə Azərbaycan geridə qalmış aqrar ölkədən sənaye ölkəsinə çevrildi, konstitusiyada dilimiz dövlət dili kimi təsdiq olundu, Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradıldı, azərbaycanlı gənclər ittifaqın ən nüfuzlu ali təhsil müəssisələrinə göndərildi, respublikamızda zavodlar, fabriklər, iş yerləri açıldı, şəhərlər, qəsəbələr salındı və saymaqla bitməyən digər misilsiz işlər həyata keçirildi".

Ümummilli Lider Heydər Əliyevin 1982-ci ildən SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi ittifaqa rəhbərlik edən şəxslərdən biri olduğunu vurğulayan məruzəçi həmin dövrdə Ulu Öndərin xalqımızın rifahı naminə göstərdiyi fədakarlıqlardan, apardığı mübarizələrdən bəhs edib. Dahi rəhbərin fəaliyyətinin Naxçıvan dövründən danışan natiq məhz Ulu Öndərin misilsiz xidmətləri sayəsində ötən əsrin 90-cı illərinin əvvələrində Naxçıvanın erməni hücümlarından qorunduğunu, eyni zamanda Naxçıvan əhalisinin blokada şəraitindəki ağır vəziyyətdən qurtulduğunu bildirib: "1993-cü ilin iyununda, tariximizin və taleyimizin mürəkkəb, ziddiyyətli bir dövründə Ulu Öndər xalqın çağırışına səs verərək, Azərbaycanda yenidən siyasi hakimiyyətə gəldi.

Bununla da dövlətçiliyimiz məhv olmaq təhlükəsindən xilas oldu. Bugünkü xoşbəxt günlərimizin, inkişaf və rifahımızın təməlləri yaradıldı. Qədirbilən xalqımız haqlı olaraq Ulu Öndər Heydər Əliyevi özünün xilaskarı, müasir Azərbaycan dövlətinin qurucusu hesab edir". Məruzədə Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdəki misilsiz fəaliyyəti təhlil olunub, tarixi faktlar, sənədlər, arxiv materialları, mühüm mənbələr əsasında elmi izahlar verilib.

Professor Anar İsgəndərov Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən milli müstəqilliyimizin və dövlətçiliyimizin hərtərəfli inkişafının davam etdirildiyini vurğulayıb, 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının tarixi Zəfər qazanaraq işğal altındakı torpaqlarımızı azad etdiyini bildirib: "Qarabağımızın azad edilməsi, bu gün həmin bölgədə aparılan quruculuq işləri, eyni zamanda da tarixi torpaqlarımız olan Qərbi Azərbaycana dinc yolla qayıdışla bağlı həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət xalqımızda yüksək əhval-ruhiyyə və gələcəyə daha böyük inam formalaşdırıb".

# BDU-da "Azərbaycan filologiyasında Heydər Əliyev mərhələsi" mövzusunda Respublika elmi konfransı

***Mayın 22-də Filologiya fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Azərbaycan filologiyasında Heydər Əliyev mərhələsi" mövzusunda Respublika elmi konfransı keçirilib. Konfransın plenar iclasında müxtəlif elm və ali təhsil müəssisələrindən tanınmış elm adamları, dilçi və ədəbiyyatşünas alimlər, gənc tədqiqatçılar iştirak ediblər.***

Plenar iclası giriş sözü ilə açan Filologiya fakültəsinin dekanı, dosent Elçin Məmmədov Ulu Öndər Heydər Əliyevin millət və dövlət quruculuğu sahəsində həyata keçirdiyi misilsiz addımlardan, banisi olduğu azərbaycançılıq ideologiyasından, Azərbaycan dili və ədəbiyyatının inkişafına verdiyi əvəzolunmaz töhfələrdən danışıb. Bildirib ki, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə görkəmli ədəbi şəxsiyyətlərin yubileyləri qeyd edilib, ədəbiyyat və mədəniyyət xadimləri yüksək qayğı ilə əhatə olunub, dövlət dilinin qorunması və təbliği istiqamətində tarixi əhəmiyyət daşıyan fərman və sərəncamlar imzalanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu şərəfli missiyanı uğurla davam etdirir, xüsusilə Qarabağda ədəbi-mədəni mühitin yenidən dirçəldilməsi yönündə mühüm addımlar atır.

BDU-nun Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədov "Azərbaycanda türkologiyanın inkişafı Heydər Əliyevin dövlətçilik fəaliyyətinin tərkib hissəsi kimi" adlı məruzə edib. Məruzədə Ümummilli Liderin hakimiyyəti illərində ölkəmizin türkoloji düşüncənin əsas mərkəzlərindən birinə çevrilməsindən, bu müddətdə aparılan mühüm türkoloji tədqiqatlardan, Prezident İlham Əliyevin türk dünyasının mənəvi-siyasi birliyinin möhkəmləndirilməsi yönündə atdığı tarixi addımların türkologiyanın inkişafına təsirindən bəhs olunub. Məruzəçi qeyd edib ki, böyük tarixi Zəfərdən sonra respublikamızın türk dünyasında nüfuzunun daha da güclənməsi və bu coğrafiyada əsas söz sahiblərindən birinə çevrilməsi, Prezident İlham Əliyevin mühüm beynəlxalq tədbirlərdə dünyanın müxtəlif ərazilərində yaşayan türk xalqlarının hüquqlarının və maddi-mədəni irsinin qorunması yönündəki çağırışları türkoloji araşdırmaların məzmunca yeniləşməsinə və aktual məsələlərin tədqiqinə geniş imkanlar yaradıb.

Plenar iclasda Mingəçevir Dövlət Universitetinin müəllimi Sona Məmmədovanın "Misralara sığmayan lider - Heydər Əliyev", Bakı Qızlar Universitetinin tələbəsi Nurçin Bəşirlinin "Heydər Əliyev və Azərbaycan dili" və Azərbaycan Dillər Universitetinin tələbəsi Zəhra Hüseynovanın "Azərbaycan ədəbiyyatında Heydər Əliyev obrazı" adlı məruzələri dinlənilib.

Konfrans öz işini üç bölmədə davam etdirib. Bölmə iclaslarında 100-ə yaxın elmi məruzə dinlənilib.

# BDU-da Cahangir Məmmədlinin ustad dərsi olub

***Mayın 14-də Jurnalistika fakültəsində Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədlinin ustad dərsi olub.***

O, "Müasir mətbuatda müsahibə və onun janr xüsusiyyətləri" mövzusunda mühazirə ilə çıxış edib.

Cahangir Məmmədli müsahibənin müasir mətbuatda oynadığı roldan danışıb. Professor 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin xarici mediaya verdiyi müsahibələrdən maraqlı nümunələr gətirərək, informasiya müharibəsində janrın üstünlüklərindən bəhs edib.

Təqdimatda Cahangir Məmmədlinin erməni vandallığına uğramış Ağdam məscidi qarşısındakı müsahibəsinə də yer verilib.

Sonda tələbələrin sualları cavablandırılıb və xatirə fotosu çəkilib.

# Milli Oftalmologiya Mərkəzinin Avtomobil Səyyar Klinikasının BDU-dakı dördgünlük tibbi aksiyası başa çatıb

***Mayın 21-də BDU-da akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Avtomobil Səyyar Klinikası tərəfindən keçirilən dördgünlük tibbi aksiya başa çatıb.***

Aksiya müddətində Mərkəzin peşəkar həkimləri tərəfindən 500-dək tələbə və müəllim oftalmoloji müayinədən keçirilib.

Aksiyanın keçirilməsində məqsəd Universitetin tələbə və müəllim heyətinə tibbi xidmət göstərmək, görmə patologiyasının erkən diaqnostikasını aşkarlamaq, göz xəstəlikləri ilə bağlı monitorinqlər aparmaq, əldə edilən nəticələri müzakirə və həll etməkdir.

Qeyd edək ki, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi tərəfindən 2005-ci ildən paytaxtda və ölkənin müxtəlif bölgələrində əhaliyə təmənnasız oftalmoloji, xüsusilə cərrahi yardım göstərmək üçün səyyar aksiyalar keçirilir. Mobil Oftalmoloji Klinikanın fəaliyyəti respublikanın ali təhsil müəssisələrinin tələbələrinin vaxtında yoxlanılması, refraksiya anomaliyalarının aşkarlanması və mümkün olan ağırlaşmaların qarşısını almaq üçün vacibdir. Klinikada təcrübəli və xaricdə ixtisas keçmiş həkim-oftalmoloqlar bütün göz xəstəliklərinin müayinə və müalicəsi, eləcə də əməliyyatı ilə məşğul olur. Bununla yanaşı, 2018-ci ildən akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Qatarı fəaliyyətə başlayıb.

# BDU-nun tərəfdaşlığı ilə nərəkimilərin endemik növlərinin genom analizi aparılıb

Xəzər dənizinin Azərbaycana məxsus hissəsində məskunlaşmış nərəkimilərin genetik xüsusiyyətlərinin öyrənilməsi və elmi tədqiqatlarla sübuta yetirilməsi istiqamətində BDU,"LU-MUN HOLDİNG", İzmir Yüksək Texnologiya İnstitutu, "Bayramlı Group", Türkiyənin "Letgen Biotechnology" şirkətlərinin əməkdaşlığı ilə nərəkimilərin endemik növlərinin genom analizi aparılıb.

Mikrosatelit analizi "Sturgeon Acipenser" balıq növü üzərində həyata keçirilib. Bu balıq növünün öyrənilməsi üçün 125 fərddə 6 mikrosatelit lokusu üzrə 90 allel yoxlanılıb. Aparılan genetik analizlər Xəzər nərəsinin pasportlaşdırılmasına və onun Azərbaycana məxsusluğunu elmi tədqiqatlarla təsdiqlənməsinə zəmin yaradır.

# Azərbaycanın analitik kimya ixtisası üzrə ilk və yeganə akademiki

***Mayın 6-sı Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, kimya elmləri doktoru, professor, əməkdar elm xadimi Rəfiqə xanım Əliyevanın anım günüdür.***



Görkəmli alim, akademik Rəfiqə Əlirza qızı Əliyeva onu tanıyanların yaddaşında əsl Azərbaycan qadını, elm fədaisi və humanist qəlbli insan kimi yaşayır, işıqlı xatirəsi daim ehtiramla anılır.

Rəfiqə Əliyeva 1932-ci il sentyabrın 20-də Naxçıvan şəhərində anadan olub. Ali təhsilini 1951–1956-cı illərdə Bakı Dövlət Universitetinin Kimya fakültəsində alıb. Əmək fəaliyyətinə 1956-cı ildə Azərbaycan Politexnik İnstitutunda başlayan Rəfiqə Əliyeva 1957-ci ildən etibarən BDU-da, 1958-1960-cı illərdə isə Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda kiçik elmi işçi kimi çalışıb. 1960-1963-cü illərdə BDU-nun Kimya fakültəsinin aspiranturasında təhsil alan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər Universitetin Analitik kimya kafedrasında işləyib və burada assistent, baş müəllim, dosent, professor vəzifələrini tutub. O, 2001-ci ildən "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasına rəhbərlik edib.

Rəfiqə Əliyeva 1970-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyalarını müdafiə edib və həmin ildə professor adına layiq görülüb. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. O, Azərbaycanın elm tarixində analitik kimya ixtisası üzrə ilk və yeganə akademik kimi qalır. Görkəmli akademik 2017-ci il mayın 6-da əbədiyyətə qovuşub.

Ömrünü kimya elminə həsr etmiş Rəfiqə Əliyeva bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasına bütün bilik və bacarığını sərf edib. Yarım əsrdən artıq pedaqoji fəaliyyətlə məşğul olan alimin araşdırmaları analitik reaksiyaları xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığın müəyyən edilməsinə həsr olunub. Rəfiqə xanımın ətraf mühitin mühafizəsi ilə bilavasitə bağlı olan bir sıra tədqiqatları, eyni zamanda, üzvi reaktivlərin köməyi ilə metalların təyini və onların ayrılması metodikasının işlənib hazırlanmasına yönəlib. Ekologiyanın aktual problemləri ilə bağlı işləri isə ölkəmizin davamlı inkişafının təmin olunmasına öz töhfəsini verib.

450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifi olan Rəfiqə Əliyeva bir sıra elmi şuraların və cəmiyyətlərin üzvü olub. Alimin rəhbərliyi altında 20-dən çox fəlsəfə və elmlər doktoru yetişib.

Akademik Rəfiqə Əliyevanın elmi-pedaqoji fəaliyyəti Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndirilib. Azərbaycan Prezidentinin sərəncamı ilə o, "Əməkdar elm xadimi" adına layiq görülüb, "Şöhrət" ordeni ilə təltif edilib.

Akademik Y.Məmmədəliyev adına mükafatın laureatı olan Rəfiqə Əliyeva Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Amerika Biblioqrafiya İnstitutu tərəfindən "2001-ci ilin adamı" və "2001-ci ilin işgüzar qadını" seçilib. 2018-ci ildə "Azərbaycanım" Beynəlxalq Jurnalının redaksiya şurası "Akademik Rəfiqə Əliyeva adına Qızıl Orden" təsis edib.

Onun ekologiyaya və ümumi ekologiyaya aid dərs vəsaitləri isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Həsən Əliyev adına mükafatı ilə qiymətləndirilib.

Görkəmli alim, həssas qəlbli insan, qayğıkeş ana Rəfiqə xanım Əliyevanın əziz xatirəsi qəlbimizdə həmişə yaşayacaq və gənc nəsil onun yaratdığı elmi istiqaməti davam etdirəcək.

# Görkəmli dilçi alim Yusif Seyidovun 95 illik yubileyi qeyd olunub

***Mayın 6-da Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasında görkəmli dilçi alim, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Yusif Seyidovun 95 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***

Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri, professor Mətanət Abdullayeva görkəmli dilçinin gələcək nəsillərə örnək ömür yolu və yaradıcılıq istiqamətləri haqqında məlumat verib. O, Yusif Seyidovun Azərbaycan dilçiliyinin aktual problemləri ilə yanaşı, ədəbiyyatşünaslıq və ədəbi tənqid sahəsində yazdığı əsərlərinin də dəyərli elmi araşdırmalar olduğunu vurğulayıb, çoxşaxəli yaradıcılığı ilə Azərbaycanda filoloji düşüncənin inkişafına böyük töhfələr verdiyini diqqətə çatdırıb. Bildirib ki, alimin ədəbiyyatşünaslıq və ədəbi tənqid sahəsində yazdığı əsərlərdə həm də fəlsəfi dünyagörüşü, estetik baxışları ifadə olunub.

Filologiya fakültəsinin dekanı, dosent Elçin Məmmədov Yusif Seyidovun Azərbaycan dilinin qrammatika problemlərinin araşdırılmasında, dilimizin saflığının qorunması sahəsində nəinki Azərbaycan, ümumən türkoloji dilçiliyin önəmli mənbələrindən biri olduğunu qeyd edib, ana dilimizin ali və orta məktəblərdə tədris olunmasında və kafedranın yaradılmasında mühüm xidmətlərindən söz açıb.

Sonra Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədov, Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının müdiri, professor İlhamə Hacıyeva, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosentləri Rəhilə Quliyeva, Rəna Mahmudova və Şəlalə Abdullayeva, həmçinin mərhumun ailə üzvləri çıxış edərək, böyük ziyalının şərəfli ömür yolundan, zəngin elmi yaradıcılığından, Azərbaycan dilinin tədrisi sahəsindəki müstəsna xidmətlərindən, kafedra müdiri kimi 50 illik fəaliyyətindən, alim və müəllim kimi şəxsi keyfiyyətlərindən danışıb, onunla bağlı xoş xatirələrini bölüşüblər.

# BDU-da professor Qafar Əfəndiyevin 100 illik yubileyi qeyd olunub

***Mayın 24-də Fizika fakültəsinin təşkilatçılığı ilə Azərbaycanda fiziki elektronika məktəbinin əsasını qoymuş görkəmli alim, professor Qafar Əfəndiyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***



Tədbirdə çıxış edən rektor Elçin Babayev BDU-nun 105 illik yubileyi ərəfəsində Universitetin tarixinə çevrilmiş şəxsləri xatırlamağın və gənc nəslə tanıtmağın vacibliyini qeyd edib. Rektor, həmçinin, Qafar Əfəndiyev kimi şəxsiyyətlərin adının əbədiləşdirilməsi üçün addımlar atılmalı olduğunu bildirib. O, Qafar Əfəndiyevlə bağlı tələbəlik illərinə aid xatirələrini bölüşüb, onu tələbkar, qayğıkeş müəllim kimi xatırladığını diqqətə çatdırıb.

Fakültə dekanı Bəxtiyar Paşayev BDU-da Fiziki elektronika kafedrasının yaranmasının professor Qafar Əfəndiyevin adı ilə bağlı olduğunu deyib. Tanınmış alim uzun illər bu kafedraya rəhbərlik edib, ölkədə fizika sahəsində yüksəkixtisaslı kadrların yetişməsində böyük xidmətlər göstərib.

Fakültənin III kurs tələbəsi Aytac Rəsulova Qafar Əfəndiyevin tərcümeyi-halı haqqında məlumat verib. Sonra Qafar Əfəndiyevə həsr olunmuş videoçarx nümayiş olunub.

Fiziki elektronika kafedrasının müdiri Əhməd Abdinov Qafar Əfəndiyevin elmi-pedaqoji fəaliyyəti barədə məruzə edib. O, keçən əsrin 50-ci illərindən başlayaraq akademik Həsən Abdullayevlə birgə Qafar Əfəndiyevin təşəbbüsü ilə Azərbaycanda yarımkeçiricilər fizikası istiqamətində tədqiqatlara başlanıldığını, bunun nəticəsi kimi keçmiş SSRİ-də ikinci Yarımkeçiricilər fizikası laboratoriyasının BDU-da yaradıldığını qeyd edib. Bildirib ki, sonralar Qafar Əfəndiyevin dəstəyi, təşəbbüsü ilə BDU-nun Fizika fakültəsinin sonuncu kurs tələbələri, məzunları keçmiş SSRİ-nin bir çox aparıcı elm və təhsil mərkəzlərində diplom işi yerinə yetirmək, aspiranturada təhsil almaq və tədqiqatlar aparmaq üçün göndərilib. Məhz həmin kadrlar sonradan BDU-da fiziki elektronika üzrə elmi məktəbin formalaşmasında və Fiziki elektronika kafedrasının təşəkkül tapmasında yaxından iştirak ediblər.

Tədbirdə çıxış edən Optika və molekulyar fizika kafedrasının professoru Niftalı Qocayev, Maddə quruluşu kafedrasının müdiri Eldar Məsimov, Yarımkeçiricilər fizikası kafedrasının müdiri Vaqif Salmanov, Azərbaycan Dövlət Neft və Sənaye Akademiyasının Fizika kafedrasının müdiri Müsavər Musayev belə bir tədbirin keçirilməsinin təqdirəlayiq hal olduğunu qeyd edərək, Qafar Əfəndiyevin Azərbaycan elmi və təhsili qarşısında göstərdiyi xidmətlərdən danışıb, onunla bağlı xatirələrini söyləyiblər.

Sonda Qafar Əfəndiyevin qızı, Maddə quruluşu kafedrasının professoru Sacidə Əbdülvahabova tədbirin təşkilinə görə BDU-nun və fakültənin rəhbərliyinə təşəkkür edib.

# BDU-da görkəmli Azərbaycan şairi Əli Tudənin 100 illik yubileyinə həsr olunmuş elmi seminar

***Mayın 14-də Filologiya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin nəzdində fəaliyyət göstərən "Ədəbiyyatşünaslıq" klubunun təşəbbüsü ilə görkəmli Azərbaycan şairi Əli Tudənin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş elmi seminar keçirilib. Tədbirdə fakültənin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.***

Əvvəlcə tanınmış sənətkarın ömür yolunan bəhs edən videoçarx nümayiş olunub.

Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Almaz Məmmədova görkəmli şairin həyatı və yaradıcılığı, müasir Azərbaycan poeziyasının inkişafındakı uzumüddətli səmərəli fəaliyyəti, lirik yaradıcılığının ideya-bədii xüsusiyyətləri haqqında məruzə edib. O bildirib ki, mühacir Azərbaycan şairi Əli Tudə poeziyasında Vətən və ayrılıq motivləri üstündür. Vətənin azadlığı, müstəqillik arzusu başlıca yer tutan bu şeirlərdə Cənub həsrəti, istiqlal nəğmələri, azadlıq hissləri geniş şəkildə qələmə alınıb. Bu əsərlərin əsas leytmotivi Vətənə bağlılıq, milli oyanış və azadlıq uğrunda mübarizənin tərənnümüdür. Poeziya yaradıcılığında siyasi lirikaya böyük önəm verən şair Cənubi Azərbaycan demokratik ədəbiyyatının yaradıcılarından biri hesab edilir.

Tədbir tələbələrin ədəbi-bədii çıxışları ilə davam edib. Filologiya fakültəsinin I kurs tələbəsi Hümbət Bədəlov Əli Tudə obrazını canlandıraraq monoloq, tələbələrdən Səyahət Məhərrəmova şairin "Nigarançılıq", Nərgiz Vəlizadə isə "Məndədir" şeirlərini ifa ediblər.

# Kimya fakültəsi 60 nömrəli orta məktəbdə “Kimya gecəsi” keçirib



***Mayın 8-də Kimya fakültəsinin Kimyanın tədrisi metodikası kafedrasının təşkilatçılığı ilə Bakı şəhəri Paşa Nəzərov adına 60 saylı tam orta məktəbdə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş “Kimya gecəsi” keçirilib.***

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü uğrunda həyatlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

60 saylı məktəbin direktoru Yasəmən Əliyeva müstəqil dövlətimizin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin müstəsna tarixi xidmətlərindən danışıb, Ulu Öndərin elmə, təhsilə daim xüsusi önəm verdiyini vurğulayıb.

Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsinin, dövlətçilik təcrübəsinin əhəmiyyətindən bəhs edib. Qeyd edilib ki, dahi rəhbər Heydər Əliyev ölkəmizdə digər sahələrlə yanaşı, kimya sənayesinin inkişafına da böyük diqqət göstərib.

Kimya fakültəsinin Kimyanın tədrisi metodikası kafedrasının müdiri Xəlil Nağıyev kimya elmi və onun əhəmiyyəti barədə şagirdləri məlumatlandırıb.

Təcrübəçi tələbə Milana İdrisova Ulu Öndər Heydər Əliyevin həyatı və onun kimya sənayesinin inkişafındakı tarixi rolu haqqında çıxış edib. Sonra məktəbin şagirdlərinin təqdimatında Azərbaycanın görkəmli kimyaçı alimləri – akademiklər Rəfiqə Əliyeva, Yusif Məmmədəliyev, İzzət Orucova və professor Xudu Məmmədova həsr olunmuş təqdimat nümayiş etdirilib.

Kimya fakültəsinin təcrübəci tələbələri və məktəbin şagirdlərinin birgə hazırladığı səhnəciklər və kimyəvi reaksiyalar tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Məktəbin XI sinif şagirdi Rəhimə Qafarlı və BDU-nun Kimya fakültəsinin I kurs tələbəsi Alim Məmmədovun ifasında maraqlı müsiqi nömrələri təqdim edilib.

Sonda metodist rəhbər Lalə Nəsibova və fənn müəllimi Fatma Rəsulovanın çıxışları dinlənilib.

# BDU-da “Qafqazdan dünyaya doğan günəş” adlı tədbir

***Mayın 10-da Filologiya fakültəsinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə “Qafqazdan dünyaya doğan günəş” adlı tədbir keçirilib.***

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ardınca Ulu Öndərin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Filologiya fakültəsinin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov Ümummilli Liderin gələcək nəsillərə örnək ömür yolundan, onun zəngin irsinin daim araşdırılması və gənc nəslə aşılanmasının zəruriliyindən, sovet dövründə və müstəqillik illərində dövlət, millət və ordu quruculuğu, həmçinin elm və mədəniyyət sahəsində həyata keçirdiyi mühüm addımlardan söz açıb. Ana dilimizə və ədəbiyyatımıza göstərdiyi xüsusi diqqət və qayğının bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının müəllimi Aytəkin Mirzəyeva Azərbaycan dilinin dövlət dilinə çevrilməsi, mədəni və sosial-siyasi həyatda layiqli yer tutması, dünya diplomatiyasına yol tapmasında Ulu Öndər Heydər Əliyevin tarixi xidmətləri haqqında məlumat verib, dahi liderin XX əsrin görkəmli natiqlərindən biri kimi bənzərsiz keyfiyyətlərindən danışıb.

Tədbir ədəbi-bədii və musiqili çıxışlarla davam edib.

# BDU-da “Kimya və kimya texnologiyası” adlı lll Respublika elmi konfransı

***Mayın 22-də Kimya fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-cu ildönümünə həsr olunmuş Doktorant, magistr və gənc tədqiqatçıların “Kimya və kimya texnologiyası” adlı III Respublika elmi konfransı keçirilir.***

Tədbirin açılış mərasimində çıxış edən elm və innovasiyalar üzrə prorektor Hüseyn Məmmədov bildirib ki, konfrans bir neçə əlamətinə görə aktualdır. Müstəqil Azərbaycanın memarı, neft strategiyasının banisi, Ümumimilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü bütün ölkəmizdə olduğu kimi, BDU-da da böyük sevgi və ehtiramla qeyd olunur. Ulu Öndərin Azərbaycanın neft-kimya sənayesinin inkişafında və yenidən qurulmasında misilsiz xidmətlərini xatırladan Hüseyn Məmmədov diqqətə çatdırıb ki, Kimya fakültəsi ölkədə kimyaçı kadrların yetişməsində xüsusi çəkiyə malikdir. Daha sonra natiq BDU-da elmi tədqiqatların səviyyəsi, beynəlxalq bazalarda indeksləşməsi, eləcə də yeni ixtisasların yaranması haqqında məlumat verib.

Kimya fakültəsinin dekanı Fuad Kərimli Ulu Öndər Heydər Əliyevin dövlət quruculuğu və elmimizin inkişafında əvəzsiz rolundan danışıb, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib. O bildirib ki, konfransa ölkənin müxtəlif universitetlərindən, Elm və Təhsil Nazirliyinin elmi-tədqiqat institutlarından 220-dən çox tezis qəbul olunub.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, akademik Vaqif Fərzəliyev, professor Məhəmməd Babanlı və Sumqayıt Dövlət Universitetinin prorektoru Elşad Abdullayev çıxışlarında Ulu Öndər Heydər Əliyevin Azərbaycanda neft-kimya sənayesinin inkişafındakı tarixi xidmətlərini diqqətə çatdırıblar.

Konfransın plenar iclasında Yüksəkmolekullu birləşmələr kimyası kafedrasının müdiri, professor Rasim Alosmanovun və Sənaye kimyası elmi-tətqiqat laboratoriyasının müdiri Ələkbər Hüseynzadənin məruzələri dinlənilib.

Konfrans öz işini iki gün ərzində dörd bölmədə davam etdirəcək.

# BDU-da dərman müalicəsinin nanohissəciklərlə dəyişdirilməsi barədə tədqiqatlar aparılır

***Mayın 8-də BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin (TİİMM) növbəti mərkəzləşdirilmiş elmi seminarı keçirilib.***

Tədbirdə TİİMM-in əməkdaşları, mərkəzin tərkibinə daxil olan elmi-tədqiqat laboratoriyalarının rəhbərləri, qonaq qismində isə əlaqəli mövzularda tədqiqat işləri aparan alim və mütəxəssislər iştirak ediblər.

Seminarda Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının elmi işçisi, kimya üzrə fəlsəfə doktoru Aynurə Kərimova “Dərman müalicəsinin nanohissəciklərlə dəyişdirilməsi: xərçəngə qarşı terapevtik potensialın tədqiqi” adlı məruzə ilə çıxış edib.

Daha sonra "İnsan kolon karsinoma hüceyrələrində şişə qarşı effektivliyi artırmaq üçün xrizin yüklənmiş maqnetit nanohissəciklərinin səthinin müxtəlif modifikasiya strategiyaları” mövzusunda apardığı elmi tədqiqat işində kimyəvi yolla sintez edilmiş və sonradan səthi funksionallaşdırılmış maqnetit nanohissəciklərin quruluş xüsusiyyətləri, dərman yükləmə effektivliyi və dərman daşıyıcı da daxil olmaqla müxtəlif parametrlərin tənzimlənməsi məsələlərini açıqlayıb. Aynurə Kərimova cari ilin əvvəlində tədqiqatlar aparmaq üçün Almaniyanın Akademik Mübadilə Xidmətinin müvafiq proqramının dəstəyi ilə Heydelberq Universitetinin Manhaym Tibb Mərkəzində elmi ezamiyyətdə olarkən sintez etdiyi nanohissəcik-daşıyıcı və dərman sistemlərinin HCT-116 hüceyrə xətlərində şişə qarşı effektivliyin yoxlanılması istiqamətində tədqiqat aparıb.

Sonda məruzəçi iştirakçıların suallarını cavablandırıb.

# BDU-da bitkilərdə termogenez prosesinə dair tədqiqatlar aparılır

***Mayın 7-də Biologiya fakültəsində "Bitkilərdə termogenez: alternativ oksidaza" mövzusunda elmi seminar keçirilib.***

Botanika və bitki fiziologiyası kafedrasının dosenti Sevinc İsmayılova bildirib ki, tənəffüs yollarının tənzimləmə qanunauyğunluqlarını bilməklə molekulyar-genetik səviyyədə nəinki bitkilərin, həm də insanın həyat fəaliyyətinə nəzarət etmək olar. Bu, hazırda müasir biologiyanın tədqiq etdiyi əsas məsələlərdəndir.

Termogenez orqanizmdə istiliyin əmələ gəlməsi, istehsalı və xaric edilməsi prosesi olub, əsasən istiqanlı (qomoyotermiya) heyvanlarda – quşlarda, məməlilərdə və bəzi termogen bitki növlərində (təxminən 30-a yaxın fəsilənin, əsasən aroidkimilərin müəyyən nümayəndələrində) müşahidə edilir. Məməlilərdə termogenez hadisəsinin əsasında qonur piy toxuması üçün spesifik sayılan və digər toxumalarda rast gəlinən termogenin və ya UCP-1 (uncoupling protein) adlandırılan ayırıcı zülalların fəaliyyəti durur. Onun konstitutiv ekspressiyası isə tənəffüsün alternativ yolunun bitkilərin kompleks metabolizmində rol oynadığını göstərir.

Son illər AO mitoxondrial oksidləşdirici fosforlaşma sisteminin müxtəlif zədələnmələri zamanı terapevtik vasitə kimi tədqiqatçıların diqqətini cəlb edir. Belə ki, uşaqlarda kardiomiopatiya, Parkinson, Azheimer, xərçəng, işemiya və s. kimi xəstəliklərin əksəriyyətinə səbəb mitoxondrilərin disfunksiyası və bu zaman əmələ gələn oksigenin mitoxondrial aktiv formalarının (OAF), xüsusən də superoksid radikalının artıq miqdarıdır. İnsanın böyrək hüceyrələri kulturalarına AO geninin yeridilməsi ilə əlaqəli aparılmış tədqiqatlarda bu disfunksiyanın göstəricisi kimi hüceyrələrdə toplanmış süd turşusu və OAF-ın miqdarı kəskin aşağı enib. Tədbirin sonunda iştirakçıların sualları ətraflı cavablandırılıb.

# "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş rəsm sərgisi

***Mayın 15-də Kimya fakültəsində Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş rəsm sərgisi açılıb.***

Sərginin təşkilində məqsəd ətraf mühitin qorunmasına, iqlim dəyişikliyinin qarşısının alınmasına diqqət çəkmək, tələbə-gəncləri bu prosesdə aktiv iştiraka cəlb etməkdir. Sərgidə fakültənin tələbələrinin çəkdiyi 30 rəsm sərgilənir.

Sərgi iki gün davam edəcək.



# Tanınmış folklorşünas alim Nizami Xəlilovun 75 illik yubileyinə həsr olunmuş tədbir keçirilib

***Mayın 22-də Filologiya fakültəsində Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının mərhum professoru, tanınmış folklorşünas alim Nizami Xəlilovun 75 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***

"Nizami Xəlilov – 75" adlı tədbirdə fakültənin professor-müəllim heyəti, tələbələr, alimin yaxınları və ailə üzvləri iştirak ediblər.

Əvvəlcə Nizami Xəlilovun həyat və yaradıcılığından bəhs olunan videoçarx nümayiş olunub.

Filologiya fakültəsinin dekanı, dosent Elçin Məmmədov professor Nizami Xəlilovun uzun illər dekan müavini, Elmi Şuranın üzvü, tədqiqatçı, pedaqoq kimi fəaliyyətindən söz açıb, onun barəsində xatirələrini bölüşüb. Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor Səhər Orucova Nizami Xəlilovun elmi yaradıcılığı, kafedranın elmi-pedaqoji həyatında rolu haqqında geniş məlumat verib. Qeyd edib ki, professor Nizami Xəlilov bir folklor araşdırıcısı kimi həyatını Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrası ilə bağlayıb. Ağız ədəbiyyatımızın, xüsusilə aşıq yaradıcılığının tədqiqi, tədrisi və təbliği onun fəaliyyətinin əsasını təşkil edib. Onun yüzlərlə məqaləsi, 10-a yaxın kitabı və tədris vəsaiti nəşr edilib.

Sonra Ümumi və qeyri-üzvi kimya kafedrasının professoru Teymur İlyaslı, Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məhərrəm Vəliyev, Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti Etibar Talıblı tanınmış ziyalının elmi-pedaqoji fəaliyyəti, alim və müəllim kimi şəxsi keyfiyyətləri ilə bağlı çıxışlar edib, onunla bağlı xatirələrini bölüşüblər.

Mərhum professorun ailə üzvləri adından çıxış edən qardaşı oğlu Azər Xəlilov onun qayğıkeş ailə başçısı, gözəl ata və baba, yardımsevər insan kimi həmişə yaxınları, qohumları və dostları tərəfindən sevildiyini, xeyirxah əməlləri ilə xatirələrdə yaşayacağını bildirib, tədbirin təşkilatçılarına təşəkkür edib.

Tədbir bədii hissə ilə davam edib.

# BDU və Bioloji Müxtəlifliyin Qorunması Xidməti Şirvan Milli Parkında birgə tədbir keçirib

***Mayın 22-də BDU ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti Şirvan Milli Parkında 22 may – Beynəlxalq Biomüxtəliflik Gününə həsr olunmuş tədbir keçirib.***

Tədbirdə Nazirliyin və Universitetin məsul şəxsləri, Biologiya fakültəsinin tələbələri və Salyan rayonundan icma üzvləri iştirak ediblər. Əvvəlcə BDU tələbələri Beynəlxalq Biomüxtəliflik Gününə həsr olunmuş sərgi ilə tanış olublar.

Tədbiri giriş sözü ilə açan Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis müavini Arzu Babayeva bu günün önəmindən, ETSN-in son illər nəsli kəsilməkdə olan növlərin mühafizəsi və bərpası istiqamətində həyata keçirdiyi layihələrdən, xüsusi mühafizə olunan təbiət ərazilərindən bəhs edib.

Sonra Şirvan Milli Parkının direktoru Seymur Kərimov Milli Parkda mühafizə olunan və "Qırmızı kitab"a daxil olan növlərin bərpa və reintroduksiya işləri haqqında tələbələri məlumatlandırıb.

Sonda tələbələr Milli Parkda qorunan bitki və heyvan növləri ilə əyani tanış olublar.

# Çilinin Azərbaycandakı müvəqqəti işlər vəkili və məşhur ALMA rəsədxanasının nümayəndələri BDU-da

***Mayın 22-də Çili Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili Cankarlo Alaberti Barios, bu ölkənin məşhur ALMA rəsədxanasının baş astronomu David Rebolledo və mütəxəssisi Nicolas Lira BDU-da olublar.***

Qonaqları salamlayan rektor Elçin Babayev BDU, eləcə də Astrofizika kafedrası haqqında ətraflı məlumat verib. O bildirib ki, BDU-nun Astrofizika kafedrası Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1975-ci ildə yaradılıb. Kafedra astofizika sahəsində Azərbaycanda yüksəkixtisaslı kadr hazırlığı istiqamətində fəaliyyət göstərir. Rektor BDU ilə ALMA rəsədxanası arasında tələbə və tədqiqatçıların mübadiləsi, qısa və uzunmüddətli ezamiyyətlər, radioastronomiya sahəsində kadr hazırlığı və digər istiqamətlərdə əməkdaşlıq imkanlarının mövcudluğunu vurğulayıb.

Çili Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili Cankarlo Alaberti Barios bildirib ki, ALMA rəsədxanası 20 ölkə əməkdaşlıq edir. O, Azərbaycanı da bu ölkələr arasında görmək istədiyini qeyd edib.

Sonra Çilidən olan astronomlar Fizika fakültəsinin professor-müəllim heyəti və tələbələri ilə görüşüb. Görüşdə David Rebolledo və Nicolas Lira ALMA rəsədxanası və orada aparılan elmi tədqiqat işləri haqqında geniş məlumat veriblər.

Çıxışlar tələbələrin böyük marağına səbəb olub. Sonda qonaqlar onların suallarını cavablandırıblar.

# BDU-da "Şamil Qurbanov: ömrün fikir dünyası" adlı elmi seminar keçirilib

***Mayın 16-da Filologiya fakültəsində Türkologiya kafedrasının təşkilatçılığı ilə "Şamil Qurbanov: ömrün fikir dünyası" mövzusunda elmi seminar keçirilib. Seminar Azərbaycanın tanınmış dövlət xadimi, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Şamil Qurbanovun 90 illik yubileyinə həsr olunub.***

Elmi seminarda Filologiya fakültəsinin Türkologiya kafedrasının dosenti Fatima Dursunova Şamil Qurbanovun həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib. Qeyd edib ki, tanınmış alim 22 kitabın, 300-dən çox məqalənin, o cümlədən, "Açılmamış səhifələr", "Ədəbi dostluq", "Ömrün fikir dünyası", "Ömər Faiq Nemanzadə", "Nəriman Nərimanov dünyası", "Cəmaləddin Əfqani", "Atatürk və Nərimanov" kimi qiymətli əsərlərin müəllifidir. Mühacirət ədəbiyyatı, represiya qurbanları, ədəbi əlaqələr, haqsız yerə unudulmuş Azərbaycan ziyalıları Şamil Qurbanovun əsas tədqiqat sahələridir. O, Azərbaycan ədəbiyyatında yeni səhifələr açıb, indiyə qədər məlum olmayan və ya az məlum olan şəxsiyyətləri üzə çıxarıb. Onun Şeyx Cəmaləddin Əfqani, Ömər Faiq Nemanzadə, Hüseyn Minasazov, Rəhim bəy Məlikov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov haqqında dəyərli tədqiqat əsərləri var.

Tədbirdə fakültənin müəllim-professor heyəti, tələbələri, Şamil Qurbanovun ailə üzvləri və başqa qonaqlar iştirak ediblər.

# Akademik Nizami Cəfərovun tərcüməsi ilə nəşr olunmuş kitabın təqdimatı

***Mayın 21-də Filologiya fakültəsində Ümumi dilçilik kafedrasının müdiri, millət vəkili, akademik Nizami Cəfərovun tərcüməsi ilə nəşr olunmuş görkəmli Danimarka dilçisi Lui Yelmslevin "Linqvistik nəzəriyyənin əsasları" kitabının təqdimatı keçirilib.***

Tədbirdə fakültənin professor-müəllim heyəti, AMEA İ.Nəsimi adına Dilçilik İnstitutunun və Azərbaycan Dillər Universitetinin dilçi alimləri, tanınmış ziyalılar, gənc tədqiqatçı və tələbələr iştirak ediblər.

Filologiya fakültəsinin dekanı, dosent Elçin Məmnmədov qonaqları salamlayaraq, BDU-da ümumi dilçilik akademik məktəbinin ənənələrindən söz açıb, Nizami Cəfərovun rəhbərliyi dövründə kafedranın elmi həyatında baş verən canlanmanın gənclərin elmə marağının artmasında mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Alimin tərcümə yaradıcılığına diqqət çəkən dekan bildirib ki, Lui Yelmslevin struktur dilçiliyin qlossematik hüdudlarını və üfüqlərini müəyyən edən bu əsəri ilk dəfə Danimarka, sonra isə ingilis dillərində nəşr olunub. Əsərin Azərbaycan dilindəki hazırkı nəşri isə rus dilindən tərcümədir.

Sonra söz akademik Nizami Cəfərova verilib. Tərcüməçi-alim görkəmli dilçinin elmi yaradıcılığı haqqında məlumat verib, kitabın tərcüməsinin Azərbaycan elmi ictimaiyyəti üçün mühüm maraq doğuracağına əminliyini ifadə edib. Bildirib ki, dahi Ferdinand de Sössürün "Ümumi dilçilik" kursunun nəşrindən sonra dil haqqındakı elmin tarixində böyük bir hərəkat baş verib.

AMEA İ.Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli, Dilçilik İnstitutunun şöbə müdiri, professor İlham Tahirov, BDU-nun professorları Elbrus Əzizov və Tofiq Hacıyev, Azərbaycan Dillər Universitetinin professorları Azad Məmmədov və Adil Babayev, BDU-nun dosenti İsmayıl Məmmədov akademik Nizami Cəfərovun ümumi dilçilik və tərcümə sahəsindəki xidmətlərindən, o cümlədən yeni nəşrin dilçiliyimiz üçün mühüm hadisə olmasından danışıb, müəllifə uğurlar arzulayıblar.

# BDU AHİK tərəfindən 2023-cü ildə “Ən yaxşı müəssisə” olaraq mükafatlandırılıb

***Mayın 8-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə keçirilmiş “Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə 2023-cü ilin ən yaxşı müəssisəsi (təşkilatı)” respublika müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi baş tutub.***



Müsabiqədə Kimya fakültəsi təmsil edib və qalib olub.

Qeyd edək ki, müsabiqədə iştirak etmək üçün AHİK-in müsabiqə komissiyasına 2560-dan artıq müəssisə, təşkilat, sex və sahədən 291 sənəd daxil olub. Onlardan 67-si İcraiyyə Komitəsinin qərarı ilə qalib elan olunub.

# BDU-da görkəmli mətnşünas və biblioqraf Salman Mümtaza həsr olunmuş elmi seminar

***Mayın 7-də İnformasiya və sənəd menecmenti fakültəsində görkəmli mətnşünas və biblioqraf Salman Mümtaza həsr olunmuş elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının dosenti Nailə Mehrəliyeva məruzə edib.*** Araşdırmada orta əsr əlyazmalarının kolleksiyaçısı, klassik ədəbiyyat nümunələrimizin tədqiqatçısı və naşiri Salman Mümtazın mətnşünaslıq və biblioqrafiyaşünaslıq sahələrindəki fəaliyyəti öyrənilib.

Məruzəçi bildirib ki, Salman Mümtaz folklor mətnlərinin, aşıq poeziyası nümunələrinin və klassik ədəbiyyatımızın nümayəndələrinin əlyazmalarının toplanması, şərhi və nəşrə hazırlanması sahəsində böyük xidmətlər göstərib. Görkəmli mətnşünas uzun illər apardığı araşdırmalar əsasında “El şairləri” adlı ikicildlik kitab çap etdirib, klassik ədəbiyyatımızın görkəmli simalarından Qövsi Təbrizi, İmadəddin Nəsimi, Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundzadə, İsmayıl bəy Qutqaşınlı və başqaları haqqında sanballı məqalələr çap etdirib, klassiklərin elmi-tənqidi mətnlərini hazırlayıb.

Məruzədə Salman Mümtazın keşməkeşli həyatından da bəhs edilib: “Salman Mümtaz 1937-ci ildə xalqımızın bir sıra görkəmli şəxsiyyətləri kimi repressiyaya məruz qalıb, həbs olunub, 1941-ci ildə isə güllələnib. Onun həbsi zamanı topladığı 270 əlyazma məhv edilib. 2024-cü ilin mayında anadan olmasının 140 ili tamam olan Salman Mümtazın xatirəsi hər zaman dövlətimiz və xalqımız tərəfindən əziz tutulur. Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivi 1996-cı ildən Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə Salman Mümtazın adını daşıyır”.

Elmi seminar müzakirələrlə davam etdirilib, məruzəçiyə suallar ünvanlanıb.

# Elmi seminar: "Məhəmməd Füzuli və Şərq kitab mədəniyyəti”

***Mayın 29-da İnformasiya və sənəd menecmenti fakültəsində görkəmli Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunmuş elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan “Məhəmməd Füzuli və Şərq kitab mədəniyyəti” mövzusunda məruzə edib.***

Knyaz Aslan bildirib ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin keçirilməsi, onların irsinin təbliği hər zaman xalqımızın Ümummilli Lideri Heydər Əliyevin diqqət mərkəzində olub. Ümummilli Lider Heydər Əliyev 16 mart 1994-cü ildə “Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi haqqında” Fərman imzalayıb, yubiley tədbirlərinin keçirilməsi ilə əlaqədar Dövlət Komissiyası yaradıb və Dövlət Komissiyasına məhz özü sədrlik edib: “Dahi şairin 500 illik yubiley tədbirləri



yalnız ölkəmizdə deyil, dünya miqyasında keçirilib, əsərləri yenidən çap edilib, görkəmli şairin irsi haqqında yeni tədqiqat əsərləri yazılıb”. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 yanvar 2024-cü ildə Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzaladığını diqqətə çatdıran natiq vurğulayıb ki, ölkə rəhbərinin mütəfəkkir şairin yaradıcılığına verdiyi yüksək qiymət Füzuli irsinin müxtəlif aspektlərdən araşdırılmasını elm və təhsil müəssisələrinin qarşısında mühüm vəzifə kimi qoyur.

Füzuli irsinin bütövlükdə Şərq bədii-ictimai fikrinin inkişafında mühüm rol oynadığını vurğulayan məruzəçi şairin müxtəlif ölkələrin kitabxana, arxiv və muzeylərində saxlanılan əlyazma nüsxələri, ona həsr olunmuş elmi tədqiqat əsərləri barədə ətraflı məlumat verib. Məruzədə Füzulinin əsərlərinə və eləcə də haqqında aparılmış tədqiqatlara əsaslanmaqla orta əsrlərdə əlyazma kitab mədəniyyəti haqqında aydın təsəvvür yaradılıb, şairin kitab, mütaliə və yazı sənəti barədə kəlamları şərh olunub, onun Şərq kitab mədəniyyətinin inkişafına göstərdiyi təsirlər diqqətə çatdırılıb.

Elmi seminar müzakirələrlə davam edib.

# BDU-da təlim: “Prokrastinasiya: tənbəlliyə qalib gəl”

***Mayın 21-də BDU-nun Psixoloji yardım sektoru və İCE Beynəlxalq Kouçinq Təhsil Akademiyasının birgə təşkilatçılığı ilə “Prokrastinasiya: tənbəlliyə qalib gəl” mövzusunda təlim keçirilib.***

Təlimdə İCE Beynəlxalq Kouçinq Təhsil Akademiyasının təlim üzrə koordinatoru Rəşad İbrahimov qeyd edib ki, prokrastinasiya - edilməsi vacib, lakin icra etmək istəmədiyimiz işlərin sonraya saxlanması prosesidir. İşləri sonraya saxlayan insanlar daha çox stresə məruz qalır, uğursuzluğa düçar olacaqlarını düşünərək, işi icra etməkdən qorxurlar.

Araşdırmalar göstərir ki, işləri sonraya saxlamağa meylli insanlar daha az pul qazanır, tez-tez xəstələnir və xroniki narahatlıqdan əziyyət çəkirlər.

Təlimdə prokrastinasiya haqqında araşdırmalar müzakirə olunub, bu prosesin səbəbləri və aradan qaldırılma yolları izah edilib. Mütəxəssis sindromdan əziyyət çəkənlər üçün günü, həftəni, hətta ayı planlaşdırmağın gərəkli olduğunu bildirib.

İnteraktiv formada davam edən tədbirdə tələbələri maraqlandıran suallar cavablandırılıb.

# BDU tələbələri informasiya təhlükəsizliyi haqqında məlumatlandırılıblar

***Mayın 7-də BDU-nun “BDU könüllləri” təşkilatının Tətbiqi riyaziyyat və kibernetika fakültəsi üzrə üzvlərinin təşəbbüsü ilə “İnformasiya təhlükəsizliyi” mövzusunda təlim keçirilib.***

Təlimdə BDU-nun İnformatika kafedrasının müdiri Mübariz Xəlilov, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının hüquqşünası Təbriz Cəfərov, Araşdırma və tədqiqat şöbəsinin məsləhətçisi Vüqar Qədimov iştirak edib.

Təlim zamanı informasiya hüququnun əsasları, informasiya müharibəsi, kiberhüququn mənbələri, informasiya təhlükəsizliyi sahəsində dövlət siyasətinin istiqamətləri haqqında məruzələr edilib. Bildirilib ki, Azərbaycan 2009-cu ildə “Kibercinayətkarlıq haqqında” Konvensiyanı ratifikasiya edib. Azərbaycan Respublikasının informasiya məkanının müasir təhdidlərdən qorunması milli təhlükəsizliyin əsas istiqamətlərindəndir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı bu sahədə mövcud olan və yeni yaranan risklərin təhlilinin aparılmasını, mühafizə obyektlərinin dəqiqləşdirilməsini, informasiya infrastrukturlarından istifadə edən subyektlərin hüquqlarının və qanuni maraqlarının qorunmasını, informasiya təhlükəsizliyini idarəetmə alətlərinin davamlı təkmilləşdirilməsini şərtləndirir. Kibertəhlükəsizlik sahəsində aparılmış əməli fəaliyyət ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin ciddi şəkildə yaxşılaşdırılması ilə nəticələnib. Belə ki, Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının tərtib etdiyi “Qlobal kibertəhlükəsizlik indeksi 2020” reytinqində 194 ölkə arasında 40-cı yerdə qərarlaşıb. Ötən il isə “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası” qəbul edilib. Strategiya dövlətin, cəmiyyətin və insanların müasir İKT-dən təhlükəsiz istifadəsinin təmin edilməsi üçün milli informasiya təhlükəsizliyi səviyyəsinin yüksəldilməsinə, dövlət və özəl şəbəkələrin, kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin olunmasına aid tədbirlərin müəyyənləşdirilməsinin və həyata keçirilməsinin təşkilinə, həmçinin fərdi məlumatların mühafizəsinə daha əlverişli şəraitin yaradılmasına xidmət edir.

Təlimin sonunda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# BDU əməkdaşları Neftçalada Beynəlxalq Biomüxtəliflik Gününə həsr edilmiş tədbirdə

***Mayın 23-də BDU-nun əməkdaşları “LU-MUN HOLDİNG”in törəmə şirkəti olan “Azerbaijan Fish Farm” MMC-nin Neftçala rayonunda yerləşən Kür-Təcrübi Nərə Balıqartırma Zavodunda 22 may - Beynəlxalq Biomüxtəliflik Gününə həsr olunan tədbirdə iştirak ediblər.***

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Kənd Təsərrüfatı Nazirliyinin, BMT-in Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) və ölkəmizdəki diplomatik korpusların nümayəndələri, BDU rektorunun gənclər siyasəti və sosial məsələlər üzrə müşaviri Xumar Məmmədbağırova, rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərova və Protokol sektorunun müdiri Cahan Qənizadə iştirak ediblər.

Tədbirdən sonra iştirakçılar Kür-Təcrübi Nərə Balıqartırma Zavodunda yetişdirilmiş 50000 nərə balığının Xəzər dənizinə ətraf mühitin qorunması və dəniz biomüxtəlifliyinin bərpa edilməsi məqsədilə buraxılması mərasiminə qatılıblar.

Qeyd edək ki, bu ilin əvvəlində BDU və “LU-MUN HOLDİNG” arasında arasında elmi-texniki fəaliyyət istiqamətləri üzrə əməkdaşlığın gücləndirilməsi və inkişaf etdirilməsi məqsədilə müqavilə imzalanıb.

# Professor İlham Rəhimov Hüquq fakültəsinin tələbələri ilə görüşüb

*Mayın 2-də Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının nəzdindəki "Cinayət Hüququ Klubu"nun "Cinayətkarlıqla mübarizədə nəzəri və praktiki mübadilə" adlı layihəsinin növbəti qonağı Əməkdar hüquqşünas, Rusiya Elmlər Akademiyasının akademiki, hüquq üzrə elmlər doktoru, professor İlham Rəhimov olub.*



Professor İlham Rəhimov cinayət və cəza-icra hüququ üzrə 100-ə yaxın elmi məqalənin, məhkəmə hakimiyyəti və qanunvericiliyin fundamental problemlərinə həsr olunmuş bir çox monoqrafiyanın müəllifidir. Onun yaradıcılığında "İslah-əmək təsirinin nəzəri və praktiki problemləri" (Bakı,1981); "Məhkəmə proqnozlaşdırılmasının nəzəriyyəsi" (Bakı,1987); "Cəzanın fəlsəfəsi və onun vəzifəsi problemləri" (Bakı,1998); "Cinayətkarlıq və cəza" (Moskva, 2012); "Ölməz ölüm cəzası" (Bakı, 2018), "Dünyəvi dinlərdə cinayət və cəza" (2023) adlı kitabları mühüm yer tutur. Bir çox xarici dillərə tərcümə olunan bu monoqrafiyalar Azərbaycan cinayət hüququ elmini dünyada geniş təbliğ edib.

Tədbirdə professor İlham Rəhimov hüquq elminə verdiyi müstəsna töhfələrə görə Hüquq fakültəsinin 95 illik yubileyi ilə əlaqədar təltif edilib. Qonaq "Cinayət Hüququ Klubu"nun fəxri üzvü seçilib.

Tədbirdə məruzə ilə çıxış edən professor İlham Rəhimov tələbələrin suallarını cavablandırıb.

# "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı BDU-nun tələbə-jurnalistləri ilə görüşüb

*Mayın 2-də Əməkdar jurnalist, tarix üzrə fəlsəfə doktoru, "Şərq" qəzetinin təsisçisi və baş redaktoru, Mətbuat Şurası İdarə Heyətinin üzvü Akif Aşırlı Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb.*

Fakültənin dekan müavini Samir Mirzəyev qonağı jurnalist-tələbələrə təqdim edərək, "Şərq" qəzetinin yeni dövr Azərbaycan mətbuatı tarixindəki yerindən bəhs edib. Belə səmimi ünsiyyətin tələbələrin qəzetçilik ənənələrinə olan marağının stimullaşdırılmasında mühüm rol oynayacağını bildirib.

Görüşün təşkilinə görə Universitet rəhbərliyinə minnətdarlığını çatdıran Akif Aşırlı tələbələrə mətbuat tarixinin maraqlı məqamları ilə bağlı məlumat verib, müstəqilliyin bərpasından sonra Azərbaycanda çap mediasının fəaliyyəti, inkişaf istiqamətləri haqqında danışıb.

Texnologiyanın inkişafı ilə əlaqədar çap mediasına marağın azalmasından bəhs edən Akif Aşırlı qəzetçiliyin yeni medianın tələblərinə uyğunlaşmasından, sosial media platformalarında qəzetin təmsil olunmasından söhbət açıb. Eyni zamanda tələbələri "Şərq" qəzetində yazılar dərc etməyə çağırıb.

Görüş interaktiv formada davam edib, tələbələri maraqlandıran suallar cavablandırılıb.

# "BDU qocaman müəllimlərin gözü ilə": Tarix üzrə fəlsəfə doktoru, dosent Azad Rzayevlə görüş

*Mayın 10-da BDU-nun 105 illik yubileyinə həsr olunmuş "BDU qocaman müəllimlərin gözü ilə" layihəsi çərçivəsində Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Azad Rzayev tələbələrə ustad dərsi keçib.*

Görüşün moderatoru, BDU-nun tarixi muzeyinin müdiri Günel Orucəliyeva layihənin məqsədindən danışıb. Bildirib ki, Bakı Dövlət Universiteti Azərbaycanda ictimai fikrin formalaşmasında müsbət rol oynayıb, sağlam fikirli və müstəqil düşüncəli gənclərin yetişdirilməsində əvəzsiz xidmətlər göstərib.

Daha sonra Azad Rzayev əyani arxiv materialları əsasında BDU-nun təsis edilməsi, parlamentdə ali məktəbin yaradılması ilə bağlı aparılan gərgin mübarizədən, Universitetin inkişaf mərhələlərindən söz açıb. Bildirib ki, Şərqin ilk mütərəqqi təhsil ocaqlarından olan BDU zəngin tarixi keçmişə malikdir. Azad Rzayev BDU-nun müsəlman Şərqinin yeni tipli ilk ali təhsil müəssisəsi kimi Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olduğunu, bu müqəddəs təhsil ocağının vətənpərvər ziyalıların, elm, təhsil və mədəniyyət fədailərinin milli təəssübkeşliyi, əzmkarlığı və mübarizəsi sayəsində yarandığını deyib. Respublikada fəaliyyət göstərən bir çox ali təhsil müəssisələrinin, o cümlədən Azərbaycan Tibb Universitetinin, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC), Azərbaycan Dövlət Pedaqoji Universitetinin BDU-nun bazasında yaradıldığını bildirən Azad Rzayev qeyd edib ki, Bakı Dövlət Universiteti yüzlərlə görkəmli alim, tanınmış ictimai xadim və yaradıcı ziyalı yetişdirib. BDU-nun inkişafında yeni və mühüm mərhələ 1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin ölkəyə rəhbərlik etməsi ilə başlayıb. Universitetin elm və təhsil flaqmanı kimi şöhrətlənməsi məhz bu tarixdən sonra gerçəkləşib. Ali təhsil ocağının 50 illik yubiley tədbirlərinə Ulu Öndər Heydər Əliyevin şəxsən rəhbərlik etməsi, universitetə daimi qayğısı BDU-nun nüfuzunu daha da artırıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində BDU inkişafının növbəti mərhələsinə qədəm qoyub. Ulu Öndər məzunu olduğu Bakı Dövlət Universitetinə daim xüsusi qayğı göstərib. Bu gün həmin tarixi missiyanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev davam etdirir. BDU son 20 ildə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub. Prezidentin müvafiq Sərəncamı ilə 2019-cu ildə BDU-nun 100 illik yubileyi ölkədə və xaricdə qeyd olunub.

Görüş iştirakçıların böyük marağına səbəb olub.

# BDU tələbələri üçün Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "Açıq qapı" günü

*Mayın 2-də Hüquq fakültəsinin tələbələri üçün Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "Açıq qapı" günü keçirilib.*

Görüş zamanı tələbələrə İdarənin strukturu, vəzifə bölgüsü və istintaq orqanları ilə əlaqələr barəsində ətraflı məlumat verilib.

Tələbələr inzibati bina ilə yaxından tanış olublar. Baş Prokurorluğun Kriminalistika və İnformasiya Texnologiyaları İdarəsinin Kriminalistika şöbəsində cinayətlərin üstünü açmaq üçün istifadə olunan texnikalar, kriminalistik çantalar və digər avadanlıqlar tələbələrə əyani şəkildə göstərilib, onlar haqqında ətraflı məlumat verilib, tələbələri maraqlandıran suallar cavablandırılıb.

# BDU-da Əməkdar artist Azad Şükürovla görüş



*Mayın 6-da BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin təşəbbüsü ilə Əməkdar artist Azad Şükürovla görüş keçirilib. Mərkəzin rejissoru Vahid Orucoğlu Əməkdar artistin həyat və yaradıcılığı haqqında məlumat verib, onun bədii qiraət ustası, səhnə danışığı müəllimi kimi xidmətlərindən söz açıb.*

Azad Şükürov ölkənin nüfuzlu ali təhsil ocağının tələbələri ilə görüşün təşkilinə görə təşəkkürünü bildirib. Tanınmış sənətkar milli kino və teatr sənətinin indiki durumu, inkişaf perspektivləri, sənətə gəlişi, çəkildiyi filmlər, tamaşalarda yaratdığı obrazlar haqqında danışıb. Aktyor həmçinin tamaşa və kinolarda çəkilişlər zamanı yaddaqalan məqamlarla bağlı xatirələrini də gənclərlə bölüşüb, daha sonra tələbələrin suallarını cavablandırıb.

# "ASAN xidmət"in İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Jurnalistika fakültəsinin qonağı olub



*Mayın 7-də Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ("ASAN xidmət") İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Elnur Niftəliyev Jurnalistika fakültəsində tələbələrlə görüşüb.*

Əvvəlcə fakültənin dekanı Vüqar Əliyev qonağı tələbələrə təqdim edib, Elnur Niftəliyevin fakültənin ən uğurlu məzunlarından olduğunu, televiziya və PR sahəsində peşəkar fəaliyyət göstərdiyini deyib.

Elnur Niftəliyev fəaliyyət göstərdiyi qurumun İctimaiyyətlə əlaqələr şöbəsi haqqında məlumat verib, PR sahəsində çalışmaq istəyən tələbə-jurnalistlərə tövsiyələrini verib. O, böhran vəziyyətlərində düzgün idarəçilik qaydalarını, KİV-də sosial media və PR fəaliyyətinin spesifik xüsusiyyətlərini tələbələrin diqqətinə çatdırıb.

İnteraktiv və səmimi görüşün sonunda qonaq tələbələrin çoxsaylı suallarını cavablandırıb.

# BDU-da Ümummili Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş idman yarışlarının bağlanış mərasimi

*Mayın 6-da BDU-da Yasamal rayonundakı ali və orta ixtisas təhsili müəssisələrinin komandaları arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş silsilə idman yarışlarının bağlanış və mükafatlandırma mərasimi olub.*



İdman yarışları Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatı, Yasamal Rayon İcra Hakimiyyəti, Bakı şəhər Gənclər və İdman İdarəsinin Yasamal rayonu üzrə Gənclər və idman sektorunun birgə təşkilatçılığı, "XXI əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi"nin tərəfdaşlığı ilə keçirilib.

Mərasimdə BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Yasamal Rayon İcra Hakimiyyətinin başçısının I müavini Hüseyn Əfəndiyev, Azərbaycan Texniki Universitetinin (AzTU) rektoru Vilayət Vəliyev, Bakı şəhər Gənclər və İdman İdarəsinin Yasamal rayonu üzrə Gənclər və idman sektorunun müdiri İlham Səfərov, "XXI əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi"nin Müşahidə Şurasının sədri Fərhad Qaraşov, Yasamal rayonunda yerləşən ali təhsil müəssisələrinin nümayəndələri və tələbələri iştirak ediblər.

Əvvəlcə mini futbol idman növü üzrə final qarşılaşması start götürüb. Final qarşılaşmasında BDU-nun komandası AzTU komandasına qalib gəlib.

Daha sonra I, II və III yerlərə layiq görülmüş komandaların mükafatlandırma mərasimi keçirilib.

Sonda xatirə şəkilləri çəkdirilib.

# BDU-da Respublika elmi konfransı: "Yer təkinin öyrənilməsi və mineral xammal ehtiyatlarının proqnozlaşdırılması"

*Mayın 7-də Geologiya fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Yer təkinin öyrənilməsi və mineral xammal ehtiyatlarının proqnozlaşdırılması" mövzusunda Respublika elmi konfransı keçirilib.*

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransı giriş sözü ilə açan Geologiya fakültəsinin dekanı, dosent Mamoy Mansurov Azərbaycanda geologiya elminin, xüsusilə neft-qaz yataqlarının işlənməsinin, mineral xammal ehtiyatlarının öyrənilməsinin, dağ-mədən sənayesinin, seysmologiyanın inkişafının Ulu Öndərin adı ilə bağlı olduğunu bildirib. O diqqətə çatdırıb ki, Ulu Öndərin hakimiyyəti illərində Azərbaycanda aparılmış məqsədyönlü siyasətin nəticəsində öz mineral resurslarımızdan istifadə təşəkkül tapıb. Çətin bir şəraitdə "Əsrin müqaviləsi"nin imzalanması da Azərbaycanın inkişafını səciyyələndirən əsas amillərdən biri kimi tarixə yazılıb.

Milli Məclisin üzvləri Pərvin Kazımzadə, Naqif Həmzəyev, Geologiya fakültəsinin tədris işləri üzrə dekan müavini, YAP Gənclər Birliyinin İdarə Heyətinin üzvü İlqar Quliyev çıxışlarında vurğulayıblar ki, Ulu Öndər Heydər Əliyev milli lider, qüdrətli dövlət xadimi kimi müasir Azərbaycanın yeni inkişaf tarixinin müəllifidir. Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, milli-mənəvi yüksəliş, azərbaycançılıq ideyalarının bərqərar olması, gələcək inkişaf üçün güclü və möhkəm əsasların yaradılması Ulu Öndərin zəngin təcrübəyə, parlaq zəkaya, ali liderlik qabiliyyətinə, yüksək siyasi idarəçiliyə əsaslanan siyasəti nəticəsində mümkün olub. Dünya dövlətləri sırasında layiqli yer tutan Azərbaycanın Ulu Öndər tərəfindən müəyyənləşdirilən inkişaf xətti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu Öndərin müstəqillik konsepsiyasının, sosial-iqtisadi inkişaf strategiyasının uzaqgörənliyi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı böyük uğurlarda bir daha tarixi təsdiqini tapır.

Daha sonra Seysmologiya və yer təkinin fizikası kafedrasının dosenti Vaqif Qədirov, Ümumi və tarixi geologiya kafedrasının dosenti Ələddin Məmmədəlizadənin elmi məruzələri dinlənilib.

# Audiovizual Şura Jurnalistika fakültəsində reklam qanunvericiliyinə dair seminar keçirib

*Mayın 15-də BDU, Audiovizual Şura və Medianın İnkişafı Agentliyi arasında imzalanmış anlaşma memorandumuna uyğun olaraq Şura əməkdaşları tərəfindən Jurnalistika fakültəsinin tələbələrinə növbəti seminar keçirilib.*

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev əvvəl keçirilən görüşlərin tələbələr tərəfindən maraqla qarşılandığını və audiovizual medianın tənzimlənməsi haqqında məlumatlılığının artırılmasında belə görüşlərin vacibliyini qeyd edib.

Audiovizual Şuranın əməkdaşları Ayxan Sadıqlı və Kamran Əliyev "Lisenziyalar və icazələr haqqında" və "Reklam haqqında" qanunların əsas müddəalarına dair geniş təqdimatla çıxış ediblər.

Görüş zamanı yayımlanması məhdudlaşdırılan informasiyalar, məlumat almaq hüququ, yayımlanmış materialların saxlanılması, mediada reklamın yayılması ilə bağlı müzakirələr aparılıb, tələbələri maraqlandıran suallar cavablandırılıb.

# "Riyaziyyat, mexanika və informasiya texnologiyalarının müasir məsələləri" adlı Respublika elmi konfransı

*Mayın 2-də BDU-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Riyaziyyat, mexanika və informasiya texnologiyalarının müasir məsələləri" mövzusunda Respublika elmi konfransı keçirilib.*

BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov bildirib ki, son zamanlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yüksək texnologiyaların müxtəlif sferalarda tətbiqinin genişləndirilməsini nəzərdə tutan fərman və sərəncamları, bütövlükdə İKT sahəsində həyata keçirilən dövlət siyasəti müvafiq qurumlar, elmi müəssisələr və ali məktəblərin qarşısına mühüm vəzifələr qoyur. Ulu Öndər Heydər Əliyevin Azərbaycan elminin inkişafına göstərdiyi qayğıdan, müstəqillik illərində onun rəhbərliyi altında ölkəmizin keçdiyi inkişaf yolundan danışan Hüseyn Məmmədov qeyd edib ki, bu siyasət hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. O diqqətə çatdırıb ki, BDU son illər müxtəlif sahələri üzrə beynəlxalq və ölkə miqyaslı tədbirlərə, konfranslara uğurla ev sahibliyi edir. Tələbələrin elmi tədqiqata cəlb olunması tətbiqi elmlər üzrə güclü məktəbləri olan BDU-nun prioritet istiqamətlərindəndir. Hüseyn Məmmədov keçirilən konfransın riyaziyyat və informasiya texnologiyaları sahəsində aktual məsələlərin müzakirəsinə yol açacağına və faydalı olacağına əminliyini bildirib.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov ölkəmizdə dövlət gənclər siyasətinin əsasını qoyan Ümummilli Lider Heydər Əliyevin Azərbaycan gənclərinə hər zaman xüsusi qayğı ilə yanaşdığını, onlara böyük etimad göstərdiyini vurğulayıb. Natiq qeyd edib ki, bu gün gənclərin siyasi, sosial-iqtisadi sahələrdə mühüm vəzifələrə təyin olunması, onlara böyük ümidlər bəslənilməsi Ulu Öndər tərəfindən təməli qoyulan gənclər siyasətinin davamıdır.

Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, BDU-nun Ali riyaziyyat kafedrasının müdiri Misir Mərdanov Ümummilli Liderin həyatı və zəngin fəaliyyəti barədə məruzə edib.

BDU-nun Mexanika-riyaziyyat fakültəsinin dekanı, professor Ziyatxan Əliyev Ulu Öndərin Azərbaycan elminin, təhsilinin inkişafındakı xidmətlərini diqqətə çatdırıb. Daha sonra Ziyatxan Əliyev "Xətti və qeyri-xətti Dirak sistemlərinin assilyasiyası" adlı plenar çıxış edib.

Konfrans işini plenar məruzələrlə davam etdirib.

# BDU-da elmi seminar: "Qərbi Azərbaycan folkloru haqqında informasiya resursları"

*Mayın 15-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə "Qərbi Azərbaycan folkloru haqqında informasiya resursları" mövzusunda elmi seminar keçirilib.*

Elmi seminarda BDU-nun Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının magistrantı Bəsti Baxşıyeva məruzə edib. Tədqiqatçı əvvəlcə Qərbi Azərbaycan folklorunun zəngin qaynaqları haqqında ətraflı məlumat verib. Bildirib ki, araşdırmada Qərbi Azərbaycan ərazisində qeydə alınmış epiqrafik abidələr, bu ərazi ilə bağlı əfsanə və rəvayətlər, yazıya köçürülmüş folklor nümunələri, aşıq sənəti, milli-adət ənənələrimiz və s. kimi mühüm istiqamətləri əhatə edən informasiya resursları tədqiqata cəlb olunub: "Xalqımızın tarixi torpaqları olan Qərbi Azərbaycanda yaranmış folklor nümunələri bütövlükdə ümumtürk folklorunun ayrılmaz hissəsidir. Bu zəngin irs haqqında informasiya resurslarının tədqiqi bölgənin etnik, kulturoloji, ədəbi və digər mədəniyyət paradiqmalarını öyrənmək baxımından mühümdür".

Məruzədə Azərbaycan türklərinin tarixi torpaqları olan Qərbi Azərbaycanın mahallarında, o cümlədən İrəvan, Dərələyəz, Vedibasar, Göyçə və digər ərazilərimizdə meydana gəlmiş və yayılmış folklor nümunələri haqqında arxiv sənədləri, kitablar, qəzet və jurnal materialları, internet resursları, elektron məlumat bazaları təqdim olunub.

Elmi seminar müzakirələrlə davam etdirilib.

# BDU-da elmi seminar: "Tədqiqat universitetində dərsin psixopedaqoji məsələləri"



***Mayın 1-də İnformasiya və sənəd menecmenti fakültəsində "Tədqiqat universitetində dərsin psixopedaqoji məsələləri" mövzusunda elmi seminar keçirilib.*** Elmi seminarda BDU-nun Pedaqogika kafedrasının professoru Hikmət Əlizadə mövzu üzrə məruzə edib. Məruzədə əvvəlcə təhsilə fəlsəfi yanaşma meyarlarından bəhs olunub, ənənəvi, fəal və interaktiv təlim metodları izah edilib. İntellekt, intellektual məntiq, təfəkkür anlayışları barədə məlumat verilib, dünya psixoloqlarının tədqiqatlarında əksini tapmış intellektin inkişaf modelləri diqqətə çatdırılıb.

Təlim məqsədlərinin taksonomiyasını şərh edən məruzəçi qeyd edib ki, bu prosesdə əksini tapan bilik, anlama, tətbiqetmə, analiz, sintez, qiymətləndirmə meyarları təfəkkürün hərtərəfli inkişafına istiqamətlənib. Məruzəçi tələbələrdə təfəkkürün inkişaf etdirilməsinin fəal təlim metodlarının yaranmasına, bütün bunların isə Universitet 3.0 və Universitet 4.0 modellərinin formalaşmasına səbəb olduğunu diqqətə çatdırıb: "Tədris prosesində fəal təlimi səciyyələndirən xüsusiyyətlər kimi müəllim-şagird əməkdaşlığı, müəllim və şagirdin idraki fəallığı intellektin və təfəkkürün inkişafını təşviq edən amillərdir. Bu mənada tədqiqat universitetində dərsin psixopedaqoji məsələlərinin təhlili hədəflərin müəyyən edilməsi və yaxşı nəticələrə nail olmaq baxımından mühüm əhəmiyyətə malikdir".

Məruzədə bu sahədə tədqiqat aparan dünya alimləri ilə yanaşı, görkəmli Azərbaycan alimləri, professorlar Əkbər Bayramovun və Əbdül Əlizadənin araşdırmaları və elmi nəticələrinə istinadlar edilib.

Elmi seminar müzakirələrlə davam etdirilib.

# BDU və "ARB 24"ün birgə layihəsi olan növbəti "NewsLab" təlim proqramına start verilib

***Mayın 2-də BDU və "ARB 24" telekanalının birgə layihəsi olan növbəti "NewsLab" təlim proqramına start verilib.***

Təlimin ilk günü telekanalın direktoru Radik İsmayılov tələbələrə xəbərin operativ təqdim olunması zamanı jurnalistlərin yol verə biləcəyi yanlışlıqlardan danışıb. O, təcrübələrini bölüşərək çətin situasiyalarda məlumatın dəqiqləşdirilməsi üçün hansı vacib addımların atılmalı olduğunu izah edib.

3 ay davam edəcək məşğələlərə müsahibə mərhələsindən keçən 10 tələbə cəlb olunub.

İndiyədək keçirilən iki təlim proqramı zamanı 12 tələbə "ARB 24"də işlə təmin olunub. Layihə xəbər hazırlanması, nitq mədəniyyəti, görüntü, video-montaj sahələrini əhatə edir. Proqramı uğurla bitirən tələbələrə sertifikatlar təqdim olunur və iştirakçıların ən azı yarısı əmək müqaviləsi ilə rəsmi şəkildə işə götürülür.

# Dövlət Məşğulluq Agentliyi "Müsahibə texnikaları" adlı seminar keçirib

***Mayın 1-də Dövlət Məşğulluq Agentliyi (DMA) BDU-nun tələbələrinə "Müsahibə texnikaları" mövzusunda seminar keçirib.***

Karyera Festivalı çərçivəsində təşkil olunan seminarda DMA-nın əməkdaşı Jalə Bənnayeva işədüzəlmə ərəfəsində işaxtaranların müsahibə texnikalarına yiyələnməsinin vacib məqam olduğunu qeyd edib.

İş müsahibəsinin növləri barədə məlumat verən DMA əməkdaşı özgüvənin, bədən dilinin, səmimiyyətin, şirkət və vəzifə barədə araşdırmanın, öncədən məşqetmənin də bu prosesdə rolunu izah edib. O bildirib ki, araşdırmalara əsasən, ünsiyyətin 7%-ni sözlər, 38%-ni intonasiya, 55%-ni isə bədən dili təşkil edir. Bu baxımdan müsahibə mərhələsində bədən dilindən doğru istifadə işaxtaran şəxsi digər namizədlərdən fərqləndirən amilə çevrilə bilər. Tədbir interaktiv formada davam edib, tələbələrin sualları cavablandırılıb.

# BDU əməkdaşları ağacəkmə aksiyasında iştirak ediblər



***Mayın 6-da Biologiya fakültəsinin əməkdaşları "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatı və Yasamal Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən ağacəkmə aksiyasında iştirak ediblər.***

Bakının Müşfiqabad qəsəbəsində təşkil edilən aksiya zamanı qeyd olunan qurumların əməkdaşları, Biologiya fakültəsinin müəllimləri və ekokönüllülər tərəfindən Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 700-ə yaxın Eldar şamı və zeytun ağacı əkilib.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən ağacəkmə aksiyasının məqsədi ictimaiyyətin diqqətini ətraf mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına yönəltmək və iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verməkdir.

# BDU-da Respublika elmi-praktik konfransı: "Karbonsuz istehsal, dayanıqlı inkişaf, innovativ texnologiyalar"



***Mayın 2-də Coğrafiya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Karbonsuz istehsal, dayanıqlı inkişaf, innovativ texnologiyalar" mövzusunda tələbə, magistr və gənc tədqiqatçıların Respublika elmi-praktik konfransı keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb.

BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin icra olunmasında Azərbaycanın rolunu vurğulayıb. O bildirib ki, konfransın mövzusu müasir dünyanın aktual problemlərini əhatə edir. Tələbə və gənc tədqiqatçıların elmi-praktik bacarıqlarının formalaşması, təkmilləşməsində bu cür tədbirlərin böyük əhəmiyyəti var.

Coğrafiya fakültəsinin dekanı, professor Məqsəd Qocamanov Prezident İlham Əliyev tərəfindən 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasının milli və ümumbəşəri əhəmiyyət kəsb etdiyini, qlobal ekoloji təhlükələrin qarşısının alınması istiqamətində beynəlxalq miqyasda tədbirlərin həyata keçirilməsinin vacibliyini bildirib. O qeyd edib ki, Azərbaycan Respublikası yeni təşəbbüslərlə qlobal çağırışlara qoşulur, həmin tədbirlərin həyata keçirilməsində əsas təşkilatçılardan biri rolunu oynayır. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi də ölkəmizin vacib rolunu bir daha vurğulayır. Məqsəd Qocamanov tələbə və gənc tədqiqatçıları ətraf mühitin mühafizəsi və coğrafi tarazlığın qorunub saxlanılmasında fəal rol oynamağa çağırıb, konfransı məhz həmin məqsədə xidmət edən mühüm hadisə kimi qiymətləndirib.

Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının müdiri, dosent Saleh Nağıyev çıxışı zamanı Azərbaycanda ətraf mühitin mühafizəsi istiqamətində aparılan işlərə diqqət çəkib. O diqqətə çatdırıb ki, hazırda böyük şəhərlərin, xüsusi ilə Bakı aqlomerasiyasının antropogen yükünün azaldılması, ekoloji mühitin qorunması, yaşıllıq və rekreasiya zonalarının təşkili aktual məsələlərdəndir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji zonaları" elan edilməsi bu sahədə aparılan işləri daha da sürətləndirəcək. Saleh Nağıyev işğaldan azad olunmuş ərazilərin təbii ehtiyatlarının öyrənilməsinin aktuallığını qeyd edərək, tələbələrin bu sahədə tədqiqatlar aparmasının əhəmiyyətini vurğulayıb.

Coğrafiya fakültəsi üzrə TEC-in fəxri üzvü, I kurs magistrant İmran Bayramov son illərdə qurum tərəfindən həyata keçirilən konfrans və layihələr haqqında məlumat verib.

Coğrafiya fakültəsi üzrə TEC-in sədr müavini Nəzirə Dursunova "Ekvatordan Qütblərə" elmi-populyar jurnalının növbəti sayını təqdim edib, bu istiqamətdə tələbələr tərəfindən qrup şəkilində görülmüş işlərdən söz açıb.

Konfransın plenar iclasında tələbə və magistrantların üç məruzəsi dinlənilib. Fakültənin magistrantları Fəridə Mürşüdova "Azərbaycanda UNESCO irsi üzrə turizm marşrutlarının təşkili imkanları (Xınalıq və Köç Yolu timsalında)", Aygün Əzizova "Şirvan düzünün su-bataqlıq landşaftlarının morfologiyası", III kurs tələbəsi Leyla Səmədova "Tərəflərin Konfransı – COP29" mövzularında məruzələr ediblər.

Sonra məruzəçilərə və TEC-in fəaliyyətində fərqlənmiş tələbələrə təşəkkürnamələr təqdim olunub.

Konfrans öz işini iki bölmə üzrə davam etdirib.

# BDU-da İsrailin Yerusəlim İbrani Universiteti ilə imzalanmış ikili diplom proqramına dair infosessiya

*Mayın 1-də Biologiya fakültəsinin tələbələri üçün İsrailin Yerusəlim İbrani Universiteti (Hebrew University of Jerusalem (HUJI)) ilə imzalanmış ikili diplom proqramı ilə əlaqədar infosessiya keçirilib.*



Tədbirdə fakültənin Biologiya, Biotexnologiya, Su bioehtiyatları və akvakultura ixtisasları üzrə təhsil alan IV kurs tələbələri iştirak ediblər. İnfosessiyada BDU rektorunun rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərova, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov tələbələrə ikili diplom proqramına müraciət üçün şərtlər, proqramın istiqamətləri haqqında geniş məlumat veriblər.

Qeyd edək ki, BDU və HUJI arasında ikili diplom proqramı və birgə tədqiqat üzrə əməkdaşlıq müqavilələri 2023-cü il mayın 24-də imzalanıb.

# “Yüksəliş” müsabiqəsinin qalibi olan BDU məzunları ilə görüş

*Mayın 1-də BDU-da Karyera Festivalı çərçivəsində “Yüksəliş” müsabiqəsinin qalibi olan BDU məzunları ilə tələbələrin görüşü keçirilib.*

Görüşdə birinci “Yüksəliş” müsabiqəsinin qalibi, Ali Məhkəmənin İnzibati işlər üzrə sektor müdiri Ləman Qafarzadə, ikinci “Yüksəliş” müsabiqəsinin qalibi, Dövlət Turizm Agentliyinin Təhsil və təlim sektorunun müdiri Arzu Tairquliyeva-Nağıyeva, üçüncü “Yüksəliş” müsabiqəsinin qalibi, Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı ölkə ofisinin kommunikasiya eksperti Azad Qəribov, həmçinin, BDU-nun 40 il öncəki məzunu, Elm və Təhsil Nazirliyinin akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun aparıcı elmi işçisi, dosent Elmira Ağayeva iştirak edib.

“Mən tələbə olsaydım” konsepti ilə başlayan görüşdə qonaqlar tələbəlik illəri, keçdikləri təcrübə, qarşılaşdıqları çətinliklər və motivasiyanın yaradılma üsullarından söz açıblar. Bildiriblər ki, karyerada uğur əldə etmək tələbəliyin ilk illərindən qarşıya hədəf və məqsədlərin qoyulması, karyera plan xəritəsinin çəkilməsi, CV-nin ilkin variantının hazırlanmasından başlayır. Tələbələr artıq III-IV kurslarda işə qəbul mərhələsinə hazır, öz ixtisasları istiqamətində mövcud təcrübə proqramları ilə tanış olmalıdırlar. Onlar tələbələrə uğursuzluqlardan çəkinməməyi, yalnız irəliyə, yüksəlişə doğru getməyi tövsiyə ediblər.

Qonaqlar zamanın tələblərinin dəyişdiyini və dövrün daha geniş imkanlar vəd etdiyini diqqətə çatdırıblar. Bunun üçün yeniliklərə açıq olmaq, xüsusən də ali təhsil dövründə dərslərlə yanaşı, tədrisdən kənar fəaliyyətlərlə məşğul olmaq, bacarıqları da formalaşdırmaq lazımdır. “Necə deyərlər, gələcək bu gündən ona hazırlananlara aiddir”.

Görüş tələbələrin çoxsaylı suallarının cavablandırılması ilə interaktiv formada davam edib.

# BDU-da tədbir: “Yaşıl enerji çağırışları kontekstində gələcəyə baxış”

*Mayın 3-də Fizika fakültəsinin təşkilatçılığı ilə “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində “Yaşıl enerji çağırışları kontekstində gələcəyə baxış” adlı tədbir keçirilib.*

Tədbirdə Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun Bitkilərin ekologiyası və coğrafiyası laboratoriyasının müdiri, Fizika fakültəsinin məzunu Elman Yusifov məruzə edib. O bildirib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi mühüm tarixi hadisə, ölkənin iqtisadi strategiyasının keyfiyyətcə yeni, yaşıl iqtisadiyyat mərhələsinə keçməsi deməkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi bu məsələnin önəmini xüsusi vurğulayır. Planetin 198 ölkəsinin üzv olduğu bu mötəbər beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi ali təhsil müəssisələrinin qarşısına da mühüm vəzifələr qoyur. Neft istehsalçısı olan Azərbaycan COP qarşısında irimiqyaslı öhdəliklər götürüb. Belə ki, Azərbaycan Respublikası qlobal iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması üzrə təşəbbüslərə töhfə olaraq 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının 35% azaldılması, elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılması, 2050-ci ilə qədər istixana qazlarının emissiyasının 40%-ə qədər azaldılmasını hədəf kimi müəyyən edib. Həyata keçirilən start işlərinin miqyası bu öhdəliklərin artıqlaması ilə yerinə yetiriləcəyinə inam verir.

Məruzədə həmçinin iqlim dəyişmələrinin təbii və antropogen səbəblərinin xronologiyası, bioloji müxtəlifliyə və insan həyatına yaratdığı ciddi təhdidlər, fəsadların yumşaldılması və zəifləndirilməsi yolları, Yerdə həyatın yaranması və inkişafına olan ən son baxışlar, COP29-un mahiyyəti, ölkəmizə verəcəyi töhfələr, dunyanın gələcək konsepsiyası və qlobal modelləri, XXI əsrin ekoloji çağırışları barədə danışılıb, Azərbaycanın müasir ekoloji problemləri və cəmiyyət-təbiət münasibətlərinin müasir strategiyası barədə məlumat verilib.

Tədbirdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Milli Aviasiya Akademiyasının, BDU-nun digər fakültələrinin alim və mütəxəssisləri iştirak edib, fikirlərini səsləndiriblər.

# “Azerbaijan Fish Farm” şirkəti BDU-da “Beynəlxalq satış üzrə mütəxəssis” mövzusunda “workshop” keçirib

*Mayın 1-də BDU-da Karyera Festivalı çərçivəsində “Azerbaijan Fish Farm” şirkətinin əməkdaşı Ülviyyə Cəfərova tərəfindən tələbələr üçün “Beynəlxalq satış üzrə mütəxəssis” mövzusunda “workshop” keçirilib.*

Tədbiri giriş sözü ilə açan BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun mütəxəssisi Yeganə İmanova sektorun fəaliyyəti, təşkil edilən təlim və seminarlar haqqında məlumat verərək, tələbələri aktiv olmağa səsləyib.

“Azerbaijan Fish Farm” şirkətinin əməkdaşı Ülviyyə Cəfərova bildirib ki, beynəlxalq satış üzrə mütəxəssis şirkətin strateji hədəflərinə uyğun olaraq xarici bazarların araşdırılması, ticarət əlaqələrinin qurulması və inkişaf etdirilməsi üzrə təkliflərin hazırlanması, mövcud partnyorlar və müştərilərlə əlaqələrin inkişaf etdirilməsi, potensial partnyorlar və müştərilərin tapılması, ixrac əməliyyatları istiqamətində danışıqların aparılması, xidmətlər üzrə müqavilələrin hazırlanması, nəqliyyatın planlaşdırılması, nəqliyyat dəyərinin hesablanması və sifarişi, gömrükdəki iş prosesi üçün lazım olan sənədlərin hazırlanması və prosesin koordinasiya edilməsi kimi funksiyaları həyata keçirir.

Ülviyyə Cəfərova tələbələri şirkətin təcrübə proqramları ilə tanış edib, onların mövzuya dair suallarını cavablandırıb.

# Mediasiya Şurası BDU-da tələbələrlə görüş keçirib

*Mayın 3-də Mediasiya Şurasının əməkdaşları Coğrafiya fakültəsində “Mübahisələrimizin həlli mediasiyada” mövzusunda təlim keçirib.*



Coğrafiya fakültəsinin dekanı Məqsəd Qocamanov ölkəmizdə aparılan mediasiya islahatları barədə danışıb, Mediasiya Şurası və Bakı Dövlət Universiteti arasında olan əməkdaşlığın əhəmiyyətini qeyd edib.

20 saylı mediasiya təşkilatının mediatorları Vüsalə Dadaşova, Nicat İsmayılov və Venera Əsgərova tərəfindən keçirilən təlimdə mediasiya xidmətinin mahiyyəti barədə tələbələrə ətraflı məlumat verilib. Qeyd olunub ki, mediasiya mübahisələrin məhkəmədənkənar həlli üsuludur. Mediasiya zamanı tərəflər mediatorun (vasitəçinin) köməyi ilə digər tərəfin mövqeyi barədə daha çox məlumat qazanır, öz mövqeyini yenidən qiymətləndirir və barışmaq imkanlarını araşdırırlar. Nəticədə əksər hallarda mübahisəli problemlər öz müsbət həllini tapır və məhkəməyə ehtiyac qalmır. Mediasiya konfidensial səciyyəlidir və tərəflərin məlumatları tam məxfi qorunur. Məhkəmədən fərqli olaraq, mediasiya prosesi daha qısamüddətli olur və tərəflərin vaxtlarına qənaət edilir.

Təlimin sonunda mediatorlar iştirakçıların çoxsaylı suallarını cavablandırıblar.

# BDU-nun Psixoloji yardım sektoru "Düşüncənin gücü" adlı təlim keçirib

*Mayın 3-də BDU-nun Psixoloji yardım sektoru tələbələr üçün “Düşüncənin gücü” adlı təlim keçirib.*

Təlimə universitetin bütün fakültələrindən tələbələr qatılıb. Tələbələrə düşüncənin insan həyatındakı rolu, duyğu və davranışlara təsiri, gündəlik həyatda istifadə edilən düşüncə xətaları (koqnitiv təhriflər) və onlarla mübarizə üsulları haqqında ətraflı məlumat verilib. Qeyd edilib ki, gündəlik həyatda istifadə edilən koqnitiv təhriflər müxtəlif faktorlarla bağlı meydana çıxa bilər.

Tələbələrin müzakirə olunan mövzu ilə bağlı sualları cavablandırılıb, onlara gündəlik həyatda istifadə olunan koqnitiv təhriflərlə bağlı doğru mübarizə texnikaları öyrədilib.

Sonda tələbələr öyrəndikləri mübarizə texnikalarını tətbiq etməklə neqativ düşüncələri daha funksional düşüncələrlə əvəz edən praktik çalışmalar yerinə yetiriblər.

# BDU-nun nəzdində “Gənc istedadlar” liseyində "İmtahan stresinin aradan qaldırılması" adlı təlim

*Mayın 15-də BDU-nun nəzdində “Gənc istedadlar” liseyində "İmtahan stresinin aradan qaldırılması" adlı təlim keçirilib.*



Təlim zamanı BDU-nun Psixoloji yardım sektorunun psixoloqu Natəvan Həsənzadə və "Gənc istedadlar” liseyinin psixoloqu Əsmər Mehdiyeva şagirdləri stresin həyatımıza təsiri və onu aradan qaldırmaq yolları barədə məlumatlandırıblar. Şagirdlərə stresin əlamətləri, bu zaman davranış qaydaları izah olunub. Stresi, tənəffüs və əzələ gərginliyini aradan qaldırmaq üçün praktik çalışmalar edilib.

Təlimin sonunda “Stres menecment” adlı videoçarx nümayiş olunub, şagirdlərin sualları cavablandırılıb.

# BDU-da ASEAN Parlamentlərarası Assambleyasının nümayəndə heyəti ilə görüş

*Mayın 4-də Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının (ASEAN) Parlamentlərarası Assambleyasının nümayəndə heyəti ilə görüş keçirilib.*

Görüşdə ASEAN Parlamentlərarası Assambleyasının Baş katibi Siti Rozaimeriyanti təşkilatın fəaliyyəti haqqında məlumat verib. Baş katib təşkilatda elmi tədqiqatlar və ali təhsil sahəsində həyata keçirilən layihələr haqqında danışıb. Daha sonra tərəflər qarşılıqlı əməkdaşlığın perspektivlərini, ASEAN ölkələrinin elm-təhsil mərkəzləri ilə BDU arasında tərəfdaşlığa dair imkanları müzakirə ediblər.

Görüşdən sonra Baş katib Siti Rozaimeriyanti tələbələrə “ASEAN-ın fəaliyyəti və onun regionda rolu” mövzusunda mühazirə oxuyub və onların suallarını cavablandırıb.

# “Tarixi torpağımız Qərbi Azərbaycanın maddi-mənəvi irsi” adlı tədbir

*Mayın 30-da Tarix fakültəsinin və Qərbi Azərbaycan İcmasının “Qərbi Azərbaycan: Yurd yerimizə sahib çıxaq” adlı birgə lahiyəsi çərçivəsində “Tarixi torpağımız Qərbi Azərbaycanın maddi-mənəvi irsi” mövzusunda tədbir keçirilib.*

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra isə torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov Qərbi Azərbaycan İcmasının fəaliyyəti haqqında geniş məlumat verib. Qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə səsləndirdiyi fikirlər, "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası"nın hazırlanması elm və təhsil müəssisələri qarşısında da bir sıra vəzifələr qoyub. Bu məqsədlə BDU-da Qərbi Azərbaycan Araşdırmaları Mərkəzi yaradılıb, İcma ilə birgə tədbirlərə başlanılıb.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli isə qeyd edib ki, “Qərbi Azərbaycana Qayıdış Konsepsiyası”nda Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus tarixi və mədəni irsin, məscidlərin və qəbiristanlıqların kütləvi şəkildə dağıdıldığı, yer adlarının dəyişdirildiyi öz əksini tapıb. Əziz Ələkbərli vurğulayıb ki, qərbi azərbaycanlıların öz yurduna qayıdışı erməni vandalizmini üzə çıxaracaq.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, akademik Yaqub Mahmudov, Arxeologiya və etnoqrafiya kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Fəxriyyə Həvilova, AMEA-nın Tarix və Etnologiya İnstitutunun Qərbi Azərbaycan şöbəsinin müdiri Cəbi Bəhramov çıxışlarında Ermənistanın Qərbi Azərbaycanda həyata keçirdiyi deportasiya siyasətindən və soydaşlarımıza qarşı törədiyi vandalizm aktlarından bəhs edib, bu ərazinin maddi və mənəvi irsi haqqında məlumat veriblər. Çıxışlarda vurğulanıb ki, Azərbaycanın Qarabağda böyük Zəfəri, Ermənistanın 30 illik işğalına son qoyması öz əzəli yurdlarından didərgin düşən bütün qərbi azərbaycanlıların doğma ellərinə qayıdışına inamını daha da artırıb.

# Son 3 ildə BDU-nun 1684 tələbəsinə təhsil krediti verilib

*Mayın 14-də Bakı Dövlət Universitetinin 1684 tələbəsi 2021-2024-cü illər ərzində təhsil krediti almaq hüququ əldə edib. Onlardan 494-ü sosial, 1190-ı isə standart təhsil kreditidir.*

Son 3 ildə təhsil krediti almaq üçün müraciət edən 2038 BDU tələbəsindən 1684-ü bu hüququ qazanıb.

2023/2024-cü tədris ilində isə ümumilikdə 705 BDU tələbəsinə təhsil krediti verilib. Onlardan 184-ü sosial, 521-i isə standart təhsil krediti olub.

Təhsil krediti almaq istəyən tələbələr www.e-ttkf.edu.az üzərindən elektron müraciət edə bilərlər.

Qeyd edək ki, təhsil tələbə krediti verilən zaman girov və ya zaminlik tələb olunmur. Təhsil tələbə krediti uzunmüddətlidir və təhsil müddətində, güzəşt və möhlət dövründə tələbədən kreditin qaytarılması tələb edilməməklə yanaşı, faizlər də hesablanmır.

# 2024/2025-ci tədris ilində BDU-nun SABAH qruplarında 6 ixtisas və 8 ixtisaslaşmada tədris aparılacaq

***2024/2025-ci tədris ili üçün BDU-nun SABAH qruplarında bakalavriat səviyyəsi üzrə 6 ixtisas, magistratura səviyyəsi üzrə isə 8 ixtisaslaşmada tədris aparılması nəzərdə tutulur.*** Bakalavriat səviyyəsində Biologiya müəllimliyi, Kimya müəllimliyi, Fizika müəllimliyi, Biotexnologiya, Psixologiya və Kompüter elmləri ixtisasları üzrə qruplar təşkil olunacaq. Magistratura səviyyəsi üzrə isə Ehtimal nəzəriyyəsi və riyazi statistika, Əməliyyatlar tədqiqi və sistemli təhlil, Optimallaşdırma və optimal idarəetmə, Nanohissəciklər fizikası, Kompüter elmləri və texnologiyaları, Jurnalistika, Kimyəvi kinetika və kataliz və Molekulyar biologiya ixtisaslaşmalarında tədris aparılacaq.

2023/2024-cü tədris ilində BDU-nun SABAH qruplarında 1085 tələbə təhsil alır. Ali məktəblərin SABAH qrupları arasında ən çox tələbə sayı BDU-dadır.

# BDU-da SABAH qruplarına tələbə qəbulu haqqında infosessiya

***Mayın 29-da BDU-da SABAH qruplarına bakalavriat və magistratura səviyyəsinə tələbə qəbulu ilə bağlı infosessiya keçirilib.*** Ali təhsil müəssisələrinin rəhbər şəxslərinin iştirakı ilə keçirilən infosessiyada SABAH qrupları İcra Komitəsinin rəhbəri Elza Səmədova tələbə qəbulu qaydaları, seçim mərhələləri, tələbə və məzunların nailiyyətləri haqqında məlumat verib. Qeyd edib ki, 2024/2025-ci tədris ili üçün SABAH qruplarında baza ali təhsil müəssisələri üzrə ixtisasların siyahısında Qarabağ Universitetindən olan ixtisaslar da öz əksini tapıb.



Tədbirdə bildirilib ki, 2024/2025-ci tədris ili üçün BDU-nun SABAH qruplarının bakalavriat səviyyəsi üzrə 6 ixtisas, magistratura səviyyəsi üzrə isə 8 ixtisaslaşma ilə fəaliyyətinin davam etdirilməsi nəzərdə tutulub. Bakalavriat səviyyəsində Biologiya müəllimliyi, Kimya müəllimliyi, Fizika müəllimliyi, Biotexnologiya, Psixologiya və Kompüter elmləri ixtisasları üzrə qruplar təşkil olunacaq. Magistratura səviyyəsi üzrə isə Ehtimal nəzəriyyəsi və riyazi statistika, Əməliyyatlar tədqiqi və sistemli təhlil, Optimallaşdırma və optimal idarəetmə, Nanohissəciklər fizikası, Kompüter elmləri və texnologiyaları, Jurnalistika, Kimyəvi kinetika və kataliz və Molekulyar biologiya ixtisaslaşmalarında tədris aparılacaq.

Sonda isə tələbələrin sualları cavablandırılıb.

SABAH qrupları Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə 2014–2015-ci tədris ilindən dövlət ali təhsil müəssisələrində tədrisin keyfiyyətinin yüksəldilməsi, yenilikçi mühitin yaradılması məqsədilə formalaşdırılıb. Bu qruplar hazırda 13 ali təhsil müəssisəsində 55 ixtisas üzrə 4 minə yaxın tələbəni əhatə edir.

# “QS Quacquarelli Symonds” beynəlxalq reytinq agentliyinin BDU əməkdaşları üçün təlimi

*Mayın 30-da Nüfuzlu “QS Quacquarelli Symonds” beynəlxalq reytinq agentliyi Bakı Dövlət Universitetinin əməkdaşları üçün onlayn təlim təşkil edib.*

Təlimdə müxtəlif kateqoriyalar üzrə QS reytinq nəticələrinin BDU üçün əhəmiyyətindən bəhs edilib. Reytinqlərdə irəliləmə istiqamətində BDU-da görülmüş işlər haqqında agentliyin nümayəndələrinə məlumat verilib. Sonra isə təlimçilər agentliyin fəaliyyətinə və “QS Subject Ranking” kateqoriyasına dair geniş təqdimatla çıxış ediblər. Eləcə də müvafiq kateqoriya üzrə göstəricilər əsasında BDU-nun mövcud vəziyyəti bir sıra xarici ali təhsil müəssisələri ilə müqayisəli təhlil edilib.

Sonda agentliyin nümayəndələri tərəfindən iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# BDU tələbələri üçün ETSN-in Azərbaycan Geologiya Muzeyində interaktiv dərs



*Mayın 29-da Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələri üçün “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Azərbaycan Geologiya Muzeyində interaktiv tədris metodları ilə dərs keçirilib.*

İnteraktiv dərsin keçirilməsində məqsəd tədris planına uyğun olaraq tələbələrin ekoloji təfəkkürünün inkişafı və ölkəmizin faydalı qazıntılarının iqtisadi potensialının öyrənilməsi olub.

Dərs zamanı BDU-nun Coğrafi ekologiya kafedrasının dosenti Lalə Bayramova tələbələrə mineral ehtiyatların aşkar edilməsi, onların hasilatı və sənayedə tətbiqi barədə ətraflı məlumat verib. Dərsdə Azərbaycanın mürəkkəb geoloji quruluşu, müxtəlif eralara və dövrlərə aid faydalı qazıntıları, potensial xammal yataqlarının perspektivləri, təbiət-istehsalat münasibətlərinin iqtisadi rentabelliyi ilə yanaşı, təbii müvazinətin qorunmasının aspektləri təhlil edilib.

Sonda tələbələrin sualları Muzeyin əməkdaşları tərəfindən cavablandırılıb.

# Jurnalistika fakültəsinin məzunları ilə görüşlərə başlanılıb

*Mayın 27-də Jurnalistika fakültəsində BDU-nun 105, fakültənin 55 illik yubileyi ilə əlaqədar silsilə tədbirlərə start verilib.*

Bu münasibətlə fakültənin tanınmış məzunları ilə tələbələrin görüşləri təşkil olunur.

İlk görüş Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis kapitanı Toğrul Nəsirli və İdarənin inspektoru, polis kapitanı Pərvanə Muradova ilə keçirilib.

Qonaqlar tələbələrə yol-nəqliyyat hadisələri, onların kütləvi informasiya vasitələrində işıqlandırılması formaları barədə məlumat verib, bu tipli xəbərlərin yazılmasında operativliklə yanaşı, peşəkarlıq və məsuliyyətin də böyük rol oynadığını diqqətə çatdırıblar.

Görüş zamanı tələbələrə hərəkət iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən nəzarət-profilaktiki işlərin təbliği, inzibati hüquqpozmalara media yanaşması, eləcə də cinayətkarlığa qarşı aparılan mübarizə tədbirlərində medianın rolundan bəhs edilib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# BDU-nun “Brend tələbə”ləri mükafatlandırılıb

*Mayın 27-də AzEdu.az təhsil portalı və ali məktəblərin birgə təşkilatçılığı ilə həyata keçirilən “Brend tələbə” layihəsi çərçivəsində xüsusi meyarlara uyğun seçilən tələbələrin mükafatlandırılması davam edir. Bu gün AzEdu.az və BDU birgə təşkilatçılığı ilə BDU-da təhsil alan “Brend tələbə”lər mükafatlandırılıb.*

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Universitetin ictimai, elm və təhsil həyatında seçilən tələbələr üçün belə layihələrin önəmindən danışıb.

“Modern” Media Qrupunun rəhbəri Elşad Eyvazlı qalib tələbələri təbrik edib, onara təhsil həyatlarında uğurlar arzulayıb. Qeyd edilib ki, AzEdu.az təhsil portalı tələbələr arasında sağlam rəqabətlilik mühiti yaratmaq, aktiv gəncləri daha geniş müstəvidə tanıtmaq və onların bacarıqlarını gələcək tələbələrə çatdırmaq məqsədilə “Brend tələbə” siyahısını tərtib edib. Bu il siyahıya 24 ali təhsil müəssisəsinin hər birindən 10 tələbə daxil edilib.

İnteraktiv formada keçən görüşdə tələbələr layihə ilə bağlı fikirlərini və təkliflərini bölüşüblər. Sonra onlara sertifikatlar təqdim olunub.

# BDU-da “Ekoloji problemlərlə mübarizə ölkə iqtisadiyyatına töhfə verir” adlı debat turniri

*Mayın 22-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) “Debat klubu” tərəfindən Milli Debat Proqramı çərçivəsində 56-cı daxili debat turniri keçirilib.*

BDU-nun THİK sədri Zöhrab Cavadzadə debat turnirlərinin gənclərin özünüifadə bacarıqlarının, liderlik keyfiyyətlərinin formalaşmasında böyük rol oynadığını bildirib. debatçılara uğurlar arzulayıb.

“Ekoloji problemlərlə mübarizə ölkə iqtisadiyyatına töfhə verir” mövzusunda keçirilən turnir çərçivəsində qrup və seçmə oyunları keçirilib.

Yarışda Azərbaycan bölməsi üzrə 21, rus bölməsi üzrə isə 8 komanda iştirak edib. Daxili turnirin final mərhələsində Azərbaycan bölməsi üzrə “Gilas” və “Alça”, rus bölməsi üzrə isə “Söhbət səndən gedir, ömür məndən” və “Krasnıy Lotos” komandaları yarışıb. Yarışın nəticələrinə əsasən, “Gilas” və “Krasnıy Lotos” komandaları qalib olub.

Turnirdə hər iki bölmə üzrə ən yaxşı 20 natiq də müəyyənləşib. Azərbaycan bölməsi üzrə Kimya fakültəsinin tələbəsi Fərid Abbasov (63.57 bal), rus bölməsi üzrə isə Sosial elmlər və psixologiya fakültəsinin tələbəsi Məryəm İbrahimli (62 bal) bu siyahının öncüllərindən olublar.

# BDU tələbələri “Bakı marafonu 2024”ün xüsusi medalları ilə təltif olunublar

*Mayın 6-da BDU-nun tələbələri Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən “Bakı marafonu 2024”də iştirak ediblər.*

“Küləyə qalib gəl” şüarı altında keçirilən marafona 500 nəfərdən çox BDU tələbəsi qatılıb. 21 kilometrlik məsafəni əhatə edən marafonda BDU tələbələri aktiv iştirak edərək, finiş xəttinə çatıblar. Finiş xəttini ilk minlikdə keçən tələbələr “Bakı marafonu 2024”ün xüsusi medalları ilə təltif olunublar.

2016-cı ildən təşkil edilən “Bakı marafonu” idmanın inkişafına dəstək, sağlam həyat tərzinin təbliği məqsədi daşıyır. Yeddinci dəfə baş tutan marafonda 15 minədək iştirakçı yarışıb.

# III Bakı Elm Olimpiadasının finalçıları BDU-nun Biologiya fakültəsinə tanışlıq səfəri ediblər

*Mayın 13-də Bakıdakı 267 nömrəli tam orta məktəbin III Bakı Elm Olimpiadasının finalçıları olan X sinif şagirdləri Biologiya fakültəsinə tanışlıq səfəri ediblər.*

Molekulyar biologiya və biotexnologiyalar kafedrasının müəllimi Nurlan Əmrahov fakültənin laboratoriyalarındakı cihazların iş prinsipləri ilə şagirdləri tanış edib, müasir tədqiqat texnologiyaları və metodları barədə məlumat verib.

O, bitki biotexnologiyasının günümüzdə rolu, kənd təsərrüfatının əsas problemləri və onların aradan qaldırılmasında yeni metodların tətbiqi barədə danışıb. Hidropon texnologiyalarından istifadənin əhəmiyyəti, onların tətbiqi haqqında şagirdləri məlumatlandırıb.

# BDU əməkdaşları Çexiyanın Karlova Universitetində

*Mayın 13-də Biologiya fakültəsinin dekanı, professor Afət Məmmədova, Zoologiya və fiziologiya kafedrasının müdiri, dosent Əbülfəz Tağıyev, dosent Nailə Abdullayeva və müəllim Nurlan Əmrahovdan ibarət nümayəndə heyəti “Erasmus+” proqramı çərçivəsində Çexiya Respublikasının Karlova Universitetində ikitərəfli görüşlərdə iştirak ediblər.*

Karlova Universitetinin Təbiət elmləri fakültəsinin dekanı, professor Jiri Zima, dekan müavini, professor İvan Nemeç, Botanika kafedrasının müdiri, professor Jiri Neustupa, Eksperimental bitki biologiyası kafedrasının müdiri, professor Fatima Cvrckova, Ekologiya kafedrasının müdiri, professor David Horak, Zoologiya kafedrasının müdiri Michal Vinklerin iştirakı ilə olan görüşlərdə qarşılıqlı botaniki, zooloji, biotexnoloji tədqiqatların həyata keçirilməsi istiqamətində müzakirələr aparılıb.

BDU alimləri səfər zamanı Çexiyanın paytaxtı Praqada yerləşən Kimya və Texnologiya Universitetinin professorları Katerina Demnerova və Olga Valentova ilə də görüşüblər. Görüş zamanı ikitərəfli layihələr, birgə tədqiqatlar və eyni zamanda tələbələr üçün mobillik qrantları barəsində danışılıb.

Səfər müddətində BDU əməkdaşları Praqa zooparkında və Botanika bağında müxtəlif nadir bitki və heyvan növləri, onların saxlanılma, becərilmə şəraitləri ilə də yaxından tanış olublar.

# BDU-da "Könüllülük həftəsi" çərçivəsində "Müstəqillik turniri"

*BDU 105 və “BDU könüllüləri” təşkilatının 5 illik yubileyləri münasibəti ilə təşkil edilən “Könüllülük həftəsi” çərçivəsində Azərbaycandakı müxtəlif könüllü təşkilatların üzvlərinin iştirakı ilə 28 May - Müstəqillik Gününə həsr olunmuş "Müstəqillik turniri" intellektual oyunu keçirilib.*

İntellektual oyunda "BDU könüllüləri", "Ailəm Könüllüləri" Proqramı və "Miqrasiya könüllüləri" təşkilatlarını təmsil edən 11 komanda ("Morituri", "CoupDeGrace", "Məğlubedilməz Armada", "Albinos", "İnclude", "Filosoflar", "Eldorado", "Xarıbülbül", "Sonuncu şam yeməyi", "Sirius", "FərqliSən") hər turda 12 suala cavab verməklə 2 turda yarışıb.

Oyunun nəticələrinə görə, "Morituri" komandası l, "CoupDeGrace" komandası ll, "Məğlubedilməz Armada" komandası lll yerə layiq görülüb.

Qalib komandaların üzvləri sertifikatla təltif olunublar.

# BDU-nun Tələbə Gənclər Təşkilatı yeni layihəyə start verib: “Tələbədən məktəbliyə”

***Mayın 13-də BDU-nun Tələbə Gənclər Təşkilatının Hüquq fakültəsi üzrə üzvlərinin təşəbbüsü ilə “Tələbədən məktəbliyə” adlı layihəyə start verilib.***

Layihənin ilk ünvanı BDU-nun nəzdində “Gənc istedadlar” liseyi olub.

Görüş zamanı məktəblilərlə interaktiv sessiyalar təşkil edilib, onlara hüquq təhsili, Hüquq fakültəsi, onun tarixi, nailiyyətləri, yaratdığı imkanlar barədə ətraflı məlumat verilib. Tələbə və məktəblilər hüquq təhsilinin müxtəlif məsələlərini əhatə edən real kazuslar üzərində işləyiblər. Görüşdə şagirdlərin sualları cavablandırılıb, təklifləri dəyərləndirilib.



Qeyd edək ki, layihənin məqsədi məktəblilərin ixtisas seçimi zamanı düzgün istiqamətlənməsində, Hüquqşünaslıq ixtisası ilə bağlı fikirlərinin formalaşmasında vasitəçi olmaqdır.

# BDU tələbələri karyera quruculuğu barədə məlumatlandırılıb

***Mayın 15-də BDU-nun Karyera və məzunlarla əlaqə sektoru, “Gənclərin Töhfəsi” İctimai Birliyi və “Venta” Təlim, Tədris və İşlə Təmin Mərkəzinin birgə təşkilatçılığı ilə Karyera forumu keçirilib.***

BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov forumun əhəmiyyətindən və əmək bazarına hazır olmaq üçün gənclərin üzərinə düşən öhdəliklərdən bəhs edib.

“Gənclərin Töhfəsi” İctimai Birliyinin icraçı direktoru Gülnar Nəsibli layihə haqqında iştirakçılara məlumat verib, qeyri-hökumət təşkilatlarının bu istiqamətdə həyata keçirdiyi fəaliyyət haqqında danışıb.



“Venta” Təlim, Tədris və İşlə Təmin Mərkəzinin Təlim və inkişaf departametinin direktoru Rəşid Ağayev “İlkin müsahibə prosesi və mərhələləri”, “Şəxsi inkişaf və motivasiya”, “Performansın idarəedilməsi” mövzularında təqdimatlar edib.

Forumda aktiv iştirak edən tələbələrə hədiyyə və sertifikatlar təqdim edilib.

# Ötən il BDU-nun 3200 tələbəsi karyera quruculuğuna dair təlimlərə cəlb olunub

***BDU əmək bazarının mövcud tələbatının nəzərə alınmasına, işəgötürənlərlə əməkdaşlıq əlaqələrinin qurulmasına böyük əhəmiyyət verir. Belə ki, 2023-cü ildə ölkədaxili əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məqsədilə 8 təşkilatla əməkdaşlıq müqaviləsi imzalanıb.***

Hazırda 57 dövlət və özəl müəssisəsi, iri istehsalat şirkəti ilə əməkdaşlıq davam etdirilir.

Kadr hazırlığında əmək bazarının tələbatının nəzərə alınması məqsədilə işəgötürənlərlə birgə layihələr icra olunur. Ötən il işəgötürənlər tərəfindən karyera quruculuğu istiqamətində BDU-da tələbələrə 23 təlim və infosessiya, 17 təcrübə proqramı keçirilib, bir karyera sərgisi və iki karyera planlama xidməti təşkil olunub.

İl ərzində 3200 tələbə təlimlərə cəlb olunub, 124 tələbə karyera quruculuğu istiqamətində konsultasiya alıb.

# BDU tələbələri narkomaniyanın mənfi təsirləri barədə maarifləndirilib

***Mayın 30-da Biologiya fakültəsində Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə “Narkomaniyaya yox deyək!” adlı tədbir keçirilib.***

Fakültənin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Yusif Abiyev iştirakçılara narkotiklərin insan orqanizminə məhvedici təsiri və törətdiyi sosial bəlalar, genofondumuza verdiyi zərər barədə məlumat verib. Qeyd edib ki, narkomanlıq insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə ciddi zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına böyük təhlükə yaradan, həmçinin cinayətkarlığın artmasına səbəb olan əsas amillərdən biridir. Bu bəlanın qarşısının alınmasında elm və təhsil qurumlarının üzərinə ciddi vəzifələr düşür. Gənclər arasında sağlam həyat tərzinin təbliği, maarifləndirmə işləri çoxaldılmalıdır.



Sonra fakültənin I kurs tələbələri Natəvan Əkbərova və İsmayıl Mütəllimli narkotik tərkibli bitkilər haqqında təqdimat ediblər.

Tədbirin sonunda maarifləndirici videoçarx nümayiş etdirilib.

# BDU tələbələrinə erkən nikahın fəsadları barədə təlim keçirilib

***Mayın 2-də “BDU könüllüləri” təşkilatının Sosial elmlər və psixologiya fakültəsi üzrə üzvlərinin və “De Novo” klubunun birgə təşkilatçılığı ilə İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi Zümrüd Əlizadə tərəfindən “Erkən nikahın fəsadları” adlı təlim keçirilib.***

Təlimdə erkən nikah anlayışı, onun hüquqi və ictimai tərəfləri, səbəbləri, əhatə dairəsi, qurbanları, fəsadları haqqında məlumat verilib. Bildirilib ki, Ailə Məcəlləsinin 10-cu maddəsinə əsasən, ölkəmizdə nikah yaşı 18-dir, üzrlü səbəblər olduqda nikah yaşı 1 ildən çox olmayaraq azaldıla bilər. Erkən yaşda uşaqlar ailə qurmağa fizioloji, psixoloji cəhətdən hazır olmurlar və bu cür nikahlar sonradan onların həyatında böyük fəsadlar yaradır. Bu fəsadlar məişət zorakılığından tutmuş, doğuş zamanı ana-uşaq ölümləri və fiziki-psixoloji çətinliklərə kimi bir çox problemlərə yol açır. Qanunvericiliklə icazə verilən yaşda ailə quranlarla müqayisədə belə hallara erkən nikaha girən ailələrdə daha çox rast gəlinir. Erkən ərə gedən qızların özləri hələ uşaqlıq dövrünü yaşayır, buna görə də ana olan zaman onların öz uşaqlarına laqeyd yanaşması real problemlər yaradır. Bu isə öz növbəsində ciddi psixoloji pozğunluğa yol açır.

Təlimdə problemin ictimai-sosial və hüquqi həlli yolları müzakirə olunub, tələbələrin sualları cavablandırılıb.

# TTKF BDU və AzMİU ilə görüşlər keçirib

***Mayın 3-də Təhsil Tələbə Krediti Fondundan (TTKF) yararlanmış tələbələrin təhsillərini başa vurduqdan sonra təhsil kreditlərini geri qaytarmalarına dəstək göstərmək üçün onların məşğulluq imkanlarının artırılması məqsədilə təcrübə proqramlarına cəlb olunması və yekunda işlə təmin olunması istiqamətində işlər davam etdirilir.***

Bu məqsədlə BDU və Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) ilə görüşlər keçirilib. Tələbə və məzunların peşəkar bacarıqlarını artırması üçün əmək bazarının tələblərinə uyğun təcrübə proqramlarına cəlb edilməsi, karyera yarmarkalarında iştirakının təmin edilməsi, onların müxtəlif sahələrdə öz bacarıqlarını sınamaq və inkişaf etdirməsi üçün şəraitin yaradılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb, qarşıya qoyulan hədəflərə çatmaq üçün əməkdaşlığın genişləndirilməsi razılaşdırılıb.

# “Azerbaijan Fish Farm” şirkəti BDU tələbələri üçün təlim keçirib

***Mayın 13-də BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun və “Azerbaijan Fish Farm” şirkətinin birgə təşkilatçılığı ilə IV kurs tələbələri üçün “Beynəlxalq satış üzrə mütəxəssis” mövzusunda təlim keçirilib.*** BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov iştirakçıları sektorun fəaliyyət istiqamətləri, tələbə və məzunların karyera quruculuğu istiqamətində yaradılan imkanlarla tanış edib.

Təlimçi, “Azerbaijan Fish Farm” şirkətinin əməkdaşı Ülviyyə Cəfərova bildirib ki, beynəlxalq satış üzrə mütəxəssis xarici ticarət əlaqələrinin qurulması və inkişaf etdirilməsi üzrə təkliflərin hazırlanması, mövcud, potensial partnyor və müştərilərlə ticarət əlaqələrinin inkişaf etdirilməsi, ixrac əməliyyatları və xidmətlər üzrə müqavilələrin hazırlanması, nəqliyyatın planlaşdırılması, nəqliyyat dəyərinin hesablanması kimi prosesləri koordinasiya və icra edir.

Daha sonra təlimçi tələbələri şirkətin təcrübə proqramları ilə yaxından tanış edib, onların mövzu ilə bağlı suallarını cavablandırıb.

## BDU-nun SABAH qruplarının tələbələri Pakistanda keçiriləcək beynəlxalq yarışın finalına vəsiqə qazanıblar

***“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində “İnnovativ və Yaradıcı Həllərin Tapılması” adlı beynəlxalq müsabiqənin birinci mərhələsində BDU-nun SABAH qruplarının tələbələri Cahan İsmayılova, Leyla Əliyeva, Fəridə Rzayeva, İsgəndər Məmmədovdan ibarət komanda ikinci yerə layiq görülüb.***

Azərbaycan Texniki Universiteti və Pakistan İslam Respublikasının Milli Elm və Texnologiya Universitetinin birgə təşkilatçılığı ilə keçirilən müsabiqədə Azərbaycanın ümumilikdə 10 ali təhsil müəssisəsindən 22 komanda iştirak edib. Məqsəd universitetlərin müəllim və tələbələrinin innovativ ideyalarla qlobal problemlərin həllinə töhfə verilməsinə cəlb olunmasıdır. Müsabiqənin ilkin mərhələsinin qalibləri Pakistan İslam Respublikasının paytaxtı İslamabadda keçiriləcək final mərhələsinə vəsiqə qazanıblar.

# BDU komandalarının uğuru

***Mayın 1-də Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Yasamal Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Yasamal Rayon Təşkilatı və Bakı Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən rayon turnirində BDU-nun müxtəlif idman növləri üzrə komandaları uğurlu nəticələr göstəriblər.***



Belə ki, BDU-nun qızlardan ibarət voleybol komandası I, şahmat komandası I, basketbol komandası II, stolüstü tennis komandası lll yeri qazanıb.

Qaliblər müvafiq dərəcəli kubok, diplom və medallarla təltif ediliblər.

Komanda üzvlərini təbrik edir, uğurlar arzulayırıq!

# İkinci "Yüksəliş" müsabiqəsinin qalibi BDU-nun tələbələri ilə görüşüb

***Mayın 10-da BDU-nun "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə ikinci "Yüksəliş" müsabiqəsinin qalibi Fərid İsayevin BDU-nun tələbələri ilə görüşü keçirilib.***

Görüşdə "Strateji düşüncə" mövzusu müzakirə edilib. Strateji düşüncənin gənclərin karyera planlamasında mühüm rol oynadığı bildirilib. Tələbələrə bilik və bacarıqlarının artırılması yönündə diqqət etməli olduqları məqamlar izah edilib.

Fərid İsayev bildirib ki, strateji düşüncə qabiliyyəti olmadan uğurlu biznes qurmaq mümkün deyil. Çünki məhz onun köməkliyi ilə uzunmüddətli hərəkət planı təşkil etmək, kapitalı hara yatırmaqla bağlı qərar vermək, resurslardan necə istifadə etmək və son nəticəni proqnozlaşdırmaq mümkündür.

İnteraktiv formatda keçirilən görüşün sonunda tələbələrin müzakirə ətrafında sualları cavablandırılıb.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 26 iyul 2019-cu il tarixində imzaladığı Sərəncamla təsis olunub. Müsabiqənin məqsədi Azərbaycanda yeni nəsil idarəçilərin yetişdirilməsidir.

# BDU-nun SABAH qruplarının tələbələrinin "MDB-nin ən yaxşı tədqiqatçıları - 2024" müsabiqəsində uğuru

***BDU-nun SABAH qruplarının Tarix müəllimi ixtisası üzrə III kurs tələbələri Ümid Mikayılov və Həlilə Sadıqova Qazaxıstanın Astana şəhərində orta əsrlər türk-islam dünyasının böyük mütəfəkkiri Əl Fərabiyə həsr olunmuş "MDB-nin ən yaxşı tədqiqatçıları - 2024" müsabiqəsində iştirak ediblər.***

Ümid Mikayılov "Axıska türklərinin deportasiya və repatriasiya problemi", Həlilə Sadıqova "Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində Bakı və Şamaxı soyqırımları" mövzusunda məqalələrinə görə I dərəcəli diplom və "Ən yaxşı tədqiqatçı - 2024" medalı ilə təltif ediliblər.

# Azərbaycan Astronomiya Olimpiadasının nəticələri açıqlanıb

***Ümumtəhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında keçirilən IV Azərbaycan Astronomiya Olimpiadasının qalibləri elan olunub.*** İki mərhələdən ibarət olimpiadanın respublika turunda astronomiya üzrə bilik və bacarıqlarını yoxlamaq məqsədilə 1190 nəfər şagird qeydiyyatdan keçib. Toplam balın ən az 50%-ni toplayan şagirdlər final mərhələsinə dəvət alıblar.

Martın 30-da Bakı Dövlət Universitetində və Naxçıvan şəhərində STEAM Təlim-Tədris Mərkəzində baş tutan finalda respublika turunu keçən 100-ə yaxın şagird iştirak edib. Təşkilat Komitəsinin qərarına əsasən, onlardan 6-sı I, 10-u II, 9-u isə III yerə layiq görülüb. Qaliblərin siyahısı ilə aşağıdakı "Qaliblər" hissəsindən tanış ola bilərsiniz.

Olimpiadanın final mərhələsinin qalibləri medal və hədiyyələrlə mükafatlandırılacaq və bu il Braziliyada keçiriləcək XVII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərslərinə cəlb olunacaqlar. Hazırlıq dərsləri Bakı Dövlət Universiteti və Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin ekspertləri tərəfindən mərkəzdə təşkil olunacaq.

IV Azərbaycan Astronomiya Olimpiadasının təşkilatçıları Bakı Dövlət Universiteti, Azərbaycan Respublikasının Təhsil İnstitutu, N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və "Həvəskar Astronomiya Cəmiyyəti" İB-dir. Komandanın Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında iştirakı Azərbaycan Respublikası Təhsil İnstitutunun dəstəyilə baş tutur.

Qeyd edək ki, IV Azərbaycan Astronomiya Olimpiadası və XVII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərsləri Cənubi Qafqazda yeganə planetarium olan Tusi-Bohm Planetariumun baş sponsorluğu ilə həyata keçirilir.

# BDU tələbələri karyera planlaması barədə məlumatlandırılıblar

***Mayın 1-də BDU-da Karyera Festivalı çərçivəsində tələbələr üçün Dövlət Məşğulluq Agentliyi və "Paşa Sığorta" tərəfindən "Karyera planlaması" mövzusunda "workshop"lar keçirilib.***

"Paşa Sığorta" əməkdaşı Leyla Cəfərli qeyd edib ki, düzgün karyera qurucuğu üçün peşəkar şəxsiyyət kimi formalaşmaq və inkişaf planını hazırlamaq zəruri şərtdir. Karyera planlamasında özünüqiymətləndirmənin, karyeraya fayda qazandıran bacarıqların inkişaf etdirilməsinin, əzmkarlıq və qərarlılığın, məsuliyyətin, məqsədyönlülüyün rolu vurğulanıb.

Dövlət Məşğulluq Agentliyinin əməkdaşı Xanoğlan Sadiq isə karyera planlamasının peşə məqsədlərinə nail olmaq üçün bələdçi rolunu oynadığını diqqətə çatdırıb. Karyera planlaşdırılmasında bacarıqların təkmilləşdirilməsi, peşəkar şəbəkənin genişləndirilməsi də uğura aparır.

Tədbirin sonunda tələbələrin sualları cavablandırılıb.

# BDU tələbələri üçün imtahan stresinin idarə olunmasına dair təlim



***Mayın 6-da BDU-nun Psixoloji yardım sektoru və Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə Kimya fakültəsinin I kurs tələbələri üçün "İmtahan stresinin idarə olunması" adlı təlim keçirilib.***

Təlim zamanı tələbələrə stresin həyatımıza təsiri, idarə olunması yolları, stres reaksiyaları, imtahan stresinə səbəb olan faktorlar haqqında ətraflı məlumat verilib. Qeyd edilib ki, gündəlik həyatımızda stres müxtəlif faktorlarla bağlı meydana çıxa bilər.

Təlimdə iştirakçılara stres zamanı istifadə edilə biləcək effektiv və düzgün nəfəs, proqressiv əzələ rahatlama texnikaları göstərilib.

Sonda mövzu ilə bağlı tələbələrin sualları cavablandırılıb.

# BDU-nun SABAH qruplarının tələbə və məzunu İsveçin "SI Scholarship for Global Professionals" təqaüdünə layiq görülüb





Mayın 10-da BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisasının IV kurs tələbəsi Zübeyir Bağırzadə və 2023-cü il məzunu Nəzrin Yaqubova İsveç Xarici İşlər Nazirliyinin "SI Scholarship for Global Professionals" dövlət təqaüdünün qalibi olublar.

Nəzrin Yaqubova Avropa biznes hüququ üzrə, Zübeyir Bağırzadə isə Beynəlxalq insan hüquqları üzrə İsveçin Lund Universitetində tam təqaüdlə təhsillərini davam etdirəcəklər.

Qeyd edək ki, kifayət qədər rəqabətli hesab olunan "SI Scholarship for Global Professionals" təqaüdünə 50-yə yaxın dövlətdən ümumilikdə 8167 nəfər müraciət edib. Azərbaycan Respublikası üzrə təqaüdə ilk dəfə olaraq rekord həddə, ümumilikdə 36 nəfər layiq görülüb.

# İndoneziyanın Şərif Hidayətullah Cakarta Dövlət İslam Universitetinin nümayəndə heyəti BDU-da

*Mayın 29-da İndoneziya Respublikasının Şərif Hidayətullah Cakarta Dövlət İslam Universitetinin akademik işlər üzrə prorektoru, professor Ahmad Tholabi, Beynəlxalq əlaqələr mərkəzinin direktoru, professor Maila Rahiem, bu ölkənin Azərbaycandakı səfirliyinin 3-cü katibi Vanda Vidya, səfirin köməkçisi Pərvanə Kərimova BDU-da olub.*



BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov qonaqlara Universitetin tarixi və fəaliyyəti barədə məlumat verib. O bildirib ki, 105 illik tarixə malik BDU Azərbaycanın ən böyük və qədim universitetidir. 25 mindən artıq tələbəsi olan BDU-nun 16 fakültəsində elmin bütün sahələri üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlanır. Prorektor Şərif Hidayətullah Cakarta Dövlət İslam Universiteti ilə fizika, biologiya, kimya, riyaziyyat, iqtisadiyyat və s. istiqamətlər üzrə geniş əməkdaşlıq imkanlarının olduğunu vurğulayıb. Bildirib ki, qeyd olunan sahələr üzrə birgə elmi tədqiqatlar aparıla, seçilmiş istiqamətlərdə ikili diplom proqramları imzalana və birgə layihələr icra edilə bilər.

Şərif Hidayətullah Cakarta Dövlət İslam Universitetinin akademik işlər üzrə prorektoru Ahmad Tholabi təmsil etdiyi ali təhsil müəssisəsi haqqında ətraflı məlumat verərək, BDU ilə birgə tədqiqatlarda, müəllim-tələbə mübadiləsində, ikili diplom proqramlarının işlənməsində maraqlı olduqlarını qeyd edib.

Görüşdə iki universitet arasında əməkdaşlığın digər mümkün perspektivləri də ətraflı müzakirə olunub.

# BDU rektoru Türk Dünyası Milli Elmlər Akademiyaları Birliyinin VII Baş Assambleyasında iştirak edir

*Mayın 27-də Türkiyənin paytaxtı Ankara şəhərində Türk Dünyası Milli Elmlər Akademiyaları Birliyinin (TDMEAB) VII Baş Assambleyası keçirilir.*



BDU-nun rektoru Elçin Babayev də tədbirdə iştirak edir.

Tədbirdə quruma üzv olan türkdilli dövlətlər arasında elmi əməkdaşlığa dair aktual məsələlər, türk dövlətlərinin birgə tədqiqat proqramları və layihələrinin həyata keçirilməsi imkanları müzakirə olunur.

Tədbirin açılışında Beynəlxalq Türk Akademiyasının rəhbəri Şahin Mustafayev, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Türkiyə Elmlər Akademiyasının prezidenti Muzaffer Şeker, Türkiyənin Elmi və Texnoloji Tədqiqat Şurasının (TÜBİTAK) prezidenti Hasan Mandal, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli, türkdilli dövlətlərin elmlər akademiyalarının və bir sıra universitetlərinin rəhbər heyətləri iştirak edirlər.

BDU rektoru Elçin Babayev Baş Assambleyada çıxışında türkdilli dövlətlərin özünün intibah dövrünü yaşadığını qeyd edib. O bildirib ki, türk dövlətlərinin universitet və akademiyaları arasında əməkdaşlıq daha da genişləndirilməli, ənənəvi humanitar və sosial sahələrlə yanaşı, təbiət elmləri istiqamətində də layihələr çoxaldılmalıdır: "Türk dövlətləri arasında ikili diplom, mübadilə, mentorluq proqramları, yay məktəblərinin, birgə müsabiqələrin təşkili, gənc alimlərin tədqiqatlara təşviq olunması, ortaq rəqəmsal məlumat platformasının yaradılması, birgə elmi jurnalların dərci, akademiyalar, universitetlər və sənaye müəssisələri arasında əlaqələrin effektiv təşkil olunması qarşıya qoyduğumuz ümumi məqsədlərə çatmağa böyük dəstək olacaq. Türkdilli dövlətlərin alimlərinin elmi və texnoloji sahədə illik konfransı təşkil oluna bilər. BDU ev sahibliyi etməyə və bütün təşkilati işləri öz üzərinə götürməyə hazırdır. BDU yeni Beynəlxalq Türk Akademiyasının atacağı bütün addımları dəstəkləyir".

Baş Assambleyada quruma sədrlik Tatarıstan Respublikası Milli Elmlər Akademiyasından Türkiyə Elmlər Akademiyasına keçib.

# BDU Türkiyənin Atatürk Universiteti ilə əməkdaşlığa başlayır



*Mayın 21-də BDU ilə Türkiyə Respublikasının Atatürk Universiteti arasında birgə əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.*

Mərasimdə çıxış edən rektor Elçin Babayev hər iki universitetin təhsil və tədqiqat sahələri üzrə geniş imkanlarının olduğunu və imzalanan memorandumun uğurlu əməkdaşlığa imkan yaradacağını bildirib. O qeyd edib ki, anlaşma memorandumunda ortaq elmi-tədqiqat layihələrinin işlənməsi, akademik və inzibati heyətin, tələbə, doktorant və tədqiqatçıların mübadiləsinin, birgə konfransların, seminarların, simpoziumların həyata keçirilməsi nəzərdə tutulur.

Atatürk Universitetinin rektoru Ömer Çomaklı isə qeyd edib ki, rəhbərlik etdiyi ali təhsil müəssisəsi 67 illik tarixə malikdir. Atatürk Universitetinin 23 fakültəsində 80 minə yaxın tələbə təhsil alır. Ömer Çomaklı Azərbaycanın ən böyük ali təhsil müəssisəsi olan BDU ilə birgə ortaq layihələrin hər iki universitet üçün faydalı olacağına əminliyini bildirib.

# BDU-da Ulu Öndər Heydər Əliyevə həsr edilmiş poeziya gecəsi

*Mayın 20-də BDU-nun Rus Mərkəzində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Rus poeziyası gecəsi" keçirilib. BDU-nun Filologiya fakültəsinin Rus dili (təbiət fakültələri üzrə) kafedrasının və Rus Mərkəzinin birgə təşəbbüsü ilə keçirilən tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb.*

Poeziya gecəsində Rus dili (təbiət fakültələri üzrə) kafedrasının müdiri, professor Mikayıl Cəfərov və Rus Mərkəzinin rəhbəri Arzu Məmmədova Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti üçün gördüyü çoxşaxəli fəaliyyəti, həyata keçirdiyi layihələr, ölkəmizin beynəlxalq aləmdə söz sahibinə çevrilməsindəki misilsiz xidmətlərindən danışıb, Azərbaycan-Rusiya əlaqələrinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etməsində onun böyük rola malik olduğunu bildiriblər. Tələbələr məşhur Azərbaycan və rus şairlərinin əsərlərindən nümunələr səsləndiriblər.

Sonda fəal tələbələr mükafatlandırılıb.

# Türk Dövlətləri Təşkilatının Baş katibi BDU-da

*Mayın 20-də Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev Bakı Dövlət Universitetinin qonağı olub. BDU ilə tanış olan qonaq BDU-nun professor-müəllim heyəti ilə görüşüb.*

Qonağı salamlayan BDU rektoru Elçin Babayev qeyd edib ki, hazırda Türk dünyası tarixdə heç vaxt olmadığı qədər güclüdür. Türk dövlətləri iqtisadi, siyasi, sosial, mədəni, hərbi sahələrdə günü-gündən güclənir. Bu sahələr içərisində elm-təhsil istiqaməti xüsusi önəm daşıyır. Türk Dövlətləri Təşkilatının alt qurumlarının uğurlu fəaliyyəti barədə məlumat verən Elçin Babayev bu gün öz işinə başlayan Türk Universitetlər Birliyinin (TÜRKÜNİB) 7-ci Baş Assambleyasının iclasında Birliyin fəaliyyətinin yeni istiqamətdə qurulmasına dair ciddi müzakirələrin aparıldığını bildirib. O diqqətə çatdırıb ki, BDU TÜRKÜNİB-in tamhüquqlu üzvüdür. BDU Türk Universitetləri Birliyinin üzvü olan universitetlər ilə "Orhun" mübadilə proqramı çərçivəsində əməkdaşlığa da xüsusi önəm verir və bu proqrama qoşulub.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Azərbaycanın ən böyük və qədim ali məktəbi olan BDU-ya səfərinin tanışlıq məqsədi daşıdığını deyib və Universitetin professor-müəllim heyəti ilə görüşdən məmnunluğunu bildirib. Baş katib təşkilatın gördüyü işlər, gələcək fəaliyyət istiqamətləri, TÜRKÜNİB çərçivəsində əməkdaşlıq imkanlarından söz açıb. Qeyd edib ki, hazırda TDT-yə üzv ölkələrlə 30-dan artıq müxtəlif istiqamət üzrə əməkdaşlıq edilir. Bu əlaqələrin daha da inkişaf etdirilməsində elm-təhsil müəssisələrinin də üzərinə mühüm öhdəliklər düşür.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 31.05.2024

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08